# Nayıbəkbər və Zeynəbpaşa poeması

qəhrəman Heydər xətibi



# NAYIB ƏKBƏR VƏ ZEYNƏB PAŞA POEMASI

**QƏHRƏMAN HEYDƏR XƏTİBİ**

Təbriz2016

# NAYIB ƏKBƏR
# VƏ
# ZEYNƏB PAŞA
# POEMASI

**QƏHRƏMAN HEYDƏR XƏTİBİ**

Təbriz2016

*İD : Heydər Xətibi-Qəhrəman*

*Ünvan və yazarın adı: Nayıb Əkbər və zeynəb-paşanın Mənzuməsi/Qəhrəman Heydər Xətibi*

*Edit: Əhəd Fərəhməndi*

*Yayın evi müşəxxəsələri: Azər türk və Nəbati yayınevi-1395*

*Görüntü müşəxxəsələri: 320s.21*14.5*

*İSBN: 978-600-8343-39-4*

*Fehrestyazma durumu: Fipa*

*Mövzü: Azərbaycanca şeir*

*Mövzü: Azərbaycani poety-İran-20 century*

*Aritma İD: Fərəhməndi,Əhəd-editor*

*Kongre reytingi:PL314/H9N2 1395*

*Dewey reytingi: 894/3611*

*Milli Kitabxana sayı: 4562856*

---

*Azər Türk Yayən evinin adresi: Təbriz Tərbiyət ilə Taleqanı üç yolunun ortası Şəhriyar Ticari mərkəzi-zerzəmi- nümrə 46-* Tel:984135547501

Tayp: Haydə Buluki (özləm)

İÇİNDƏKİLƏ


Başlanqıc..........................................7
Önsöz...............................................15
Xətib məhəlləsi.................................22
Koroğlu və zeynəb paşa......................26
Nayıbəkbər.......................................31
Nayıbəkbər və zeynəb paşa..................34
Zeynəb paşanın doğum günü.............37
Gecənin xeyri,şəri.............................40
Gecə fitnəsi, səhər bilinir....................43
Gecə və zeynəb paşa...........................46
Cəmilə bu paşa və zeynəb paşa..........49
Niyə zeynəb paşa tanınmamış?..........52
QuşƏhməd.........................................56
Quşəhmədin yaşamı...........................60
Quşəhmədin tutulması......................66
Quşəhmədin uçmağı..........................72
Səttarxan və zeynəbpaşa....................78
Müsəlləslər........................................83
Bahalıq və zeynəb paşa.......................88
Gecə və aclıq......................................92
Zeynəbpaşanın başçıları....................97
Toplantı...........................................101
Nehzət gecəsi..................................104
Bazar və zeynəb paşa.......................107
Tanbakı nehzəti və zeynəb paşa........113
Qaeim maqam və zeynəbpaşa........121
Şəhidlər qanlığı...............................129
Yetimlər anası.................................134

Əlaolmolk və zeynəbpaşa.................138
Nezamololəma və zeynəbpaşa..........142
Borculu dəgirman...........................150
Zeynəbpaşanın kərbəla səfəri..........155
Zeynəbpaşanın ölüm xəbəri............161
Nayıb akbər və məşrutə....................167
Təbrizli abbas sərraf........................172
Urmu təhlükəsi................................178
Səttarxan və baqırxan........................187
Səttarxan və rus konsulu...................193
Xətib döyüşü Cuma axşamı..............198
Xətib döuüşü Cuma günü.................202
Xətib döyüşü şənbə günü..................207
Xətib döyüşü məhərrəmdə................211
Nayıbəkbərin qərə tüfəngi................215
Tülkü və səmədxan..........................218
Xətib döyüşü isfəndin altısında........223
Hacı qənnad şəfi..............................229
Xətib döyüşü isfəndin ondördündə.....232
Ruslarla döyüş..................................237
Hacı babaxan ərdəbili......................241
Sürgün.............................................245
Seqətülislam....................................251
Nayıb qəhvəsi..................................256
Xətib və mıqınat...............................261
Nayıbəkbərin ölümü.........................267
Möhtəkirlər oyunu...........................271
Sözlük.............................................275
Qaynaqlar........................................283

## Başlanğıc

Məşrutə nehzətinin mənzum tarixi əsərinə giriş:

Məşrutə nehzətinin tarixinin yazılmasında biz azərbaycanlılar öncül olmuşuq. Bu yazılan tarixlərin tayları sərahətlə deyə bilərik, hələdə yazıla bilməmişdir. Bu günə kimi boşqaba qoyulan bu tarixləri belə göstərmək olar:

1- Məşrutə tarixi- Əhməd kəsrəvi

2- Azərbaycanın onsəggiz illik tarixi- Əhməd kəsrəvi

3-Azərbaycan və səttarxanın üsyanı- Hac ismail əmirxizi

4-Azerbaycanın üsyanı məşrutə inqilabında- kərim taherzade behzad

5- Təbrizin iğtişaşı- Hac məhəmmədbaqır veycuyə

Bu tarixləry ana kitablardan hesablasaq,daha sonralar yuzlər kitab, Məqalə, və habelə

yazılar yazılmışdir. əlbəttə bunu unutmayaq ki, Məşrutə tarixinə hələdə ki hələdir son noqtə qoyulmamışdır vəGörürük ki hər gün ya hər ay bir neçə kitab ışıq üzü görə bilir. Bu Taysız nehzətə ayid bu günə kimi bir neçə mənzum tarixdə yazılmışdır Ki bu qələmin sahibinin gözünə dəyənlərin belə sıralaya bilər:

1-Cəngnameye təbriz: farsca yazılan daha doğrusu qoşulan həmin Mənzum məşrutə tarixini, şiva təxəllüs edən məhmud tondəri( Səmsamolsultan) qələmə gətirmişdir. Bu əsər 76-ci ildə onun Ayiləsindən olan bəhram bəyat sərmədinin yardımıyla tehranın səfi Əlişah nəşri sıralarında nəş olmaq imkani tapmışdir.

2- Ayine məşrutə: farsca qoşulan həmin mənzum tarixi mirzə möhsün Dəstgerdi( mühəndis) qoşmuşdurki indi təbrizin milli kitabxanasında, Böyük məarifpərvər hac məhəmməd aqa nəxcivaninin fondunda Qorunmaqdadir. Farsca olan 77 varaqlı bu məsnəvi, həzəc müsəddəs Məhzuf( məfaiylun- məfaiylun- fəulun) bəhrində qoşulmuşdur.quya Rəhmətlik DR.Rəhim çavoş əkbəri( təbrizli yəsna)bu kitabi çapa Hazırlayırdı ki əcəl aman vermədi.

3- Dürr xoşab: 2500 beytdən ibarət olan məşrutəyə ayid bu Məsnəvinidə təbrizli mirzə pərvin aştiyani qoşmuşdur. Quya bu nəşr Olunmamiş əsərin bir üzü rəhmətli seyid cəmal torabi Tabatabayidəydi

ki onun ölümüylə ışıq üzü gorə bilmədi. Ancaq Eşidilir ki onun çapına bir sıra təmhidlər görünür. Bu dəyərli Məsnəvi( faelaton-faelaton-faelon) vəznində qoşulmuşdur.mirzə Məhəmmədali pərvin mirzaye aştiyani təxminən hicri 1300-ci il Təbrizdə anadan olub, cavankən 45 yaşındaysa elə doğulduğu Şəhərdə dünyasını dəyişmişdir.

4-Mənzumeye gedanamə: farsca olan bu məsnəvimizdə mirza əhməd Müştehid qoşmuşdur. Həmin məsnəvidə məşrutə nehzətinə ayid bir Əsərlərdəndir. Bu mənzumənin qoşanı 1942 january 4 də dünyasini Dəyişmişdir.

5-Qaradağ ulduzu (səttarxan): bu kitabi qaradağın çağdaş şaeiri Qurbanəli ənsari qoşmuşdur. Bu184 səfhəlik mənzum tarixin məziyəti Bu ola bilərki şaeir kitabi öz danışdığı dildə qoşmuşdur. Türkcə Qələmə alınan bu kitab həcm babətindən cəngnameye təbrizdən qalın-Qeyimdir. Maraqlıdırki bu kitabda məşrutədən nə qədər söz-söhbət Gedirsədə, mehvəriyətdə elə igid səttarxan dayanmışdır.

6- Səttarxan el qəhrəmani: bu mənzum, habelə türkcə qoşulan Kitabında şaeiri germili, fərəc fəttahi olmuşdur. Həmin əsərdə üstdəki Əsər sayaq səttarxanın qəhrəmanlıqlarından danışmışdır. Bu Qəhrəman-

lıqlarla bərabər məşrutə nehzətindəndə yeri gəlmişkən söz Getmişdir. 136 səfhəlik "səttarxan el qəhrəmani" kitabi 81-ci il Ərdəbilin nikamuz nəşri təvəssütilə2000 nüsxədə yayinlanmışdır.

Üst sətirlərdə adın çəkdiyimiz kitablardan əlavə yəqinki bir neçə Kitabda varki, yazarın gözündən qaçmışlar. Ancaq demək istəyirəm ki Üstdə ad verdiyimiz altı kitabdan ikisi türkcə olub, dördisə farscadır. İndi bu listi iraə verməkdən sonra istərdim başqa bir mən zum Tarixədə toxunam ki oda həmin təbrizdə qələmə alınıb ya qoşulubdur. Əlbətdə bu tarix üstdəki unvanlarını çəkdiyimlə tam fərqilidir. Niyə ki Şairimiz bu tarixi hələ məşrutə nehzətindən öncə baş vermiş tanbaki Qalxınmasından başlamışdır. Təbrizdə baş tutan qalxınmanın böyük Rəhbərlərindən birisi cəsarətli qadın süleyman qızı "zeynəbpaşa"idi. Zeynəbpaşaya görə bu günə kimi bir neçə kiçik-böyük yazı oxusaqda, Burada şairanə bir mətnilə üz-üzə dayanırıq. Şair həmin mənzumədə Xəyal atına minib hər yeri dolandıqda, gözəl-gözəl movzulara Toxunmuşdur. Belənçi bir mətniləri yazmaq daha doğrusu hər birisinin işi deyil və ancaq bir şair gərək! İndi görək bu mənzumənin Şairi kimdir?

Bu günə qədər üç-dörd kitabinin oxucusu olduğumuz qəhrəman Heydər xətibi ki

şe`ridə qəhrəman təxəllüs edir günəş ili 1329 da tarix Boylu təbrizin əski məhəllələrinin birisi olan xətibdə ışıq dünyaya göz Açib. elə həmin məhəllədə boya-başa çatib, bu gündə öz ata-baba Yurdları olan xətibdə yaşayır. Bu nəzakətli qələmdaş bir şair olduğu Halda,tariximizdə maraqlanıb, əlinə keçən kitabi oxuyub, gahdan Onların bir sırasına tənqidi nəzərləridə olar. Hörmətli qəhrəman Xətibinin ən maraqlandığı tarix, məşrutə nehzətilə, azərbaycandaki 24-25ci illərdə milli hərəkətlər olmuşdur. Xətibli nayibəkbərin Vəfatilə bitirir. Məncə bu mənzumə bir təhərdə elə xətib məhəlləsinin Çağdaş tarixidə hesablana bilər.

Beləliklə görürük bizim araşdırdığımız təhqiqin əsasında bu günə Qədər məşrutə nehzətinə ayid 6 əsər yazılıb, maraqlıdırki bu əsərlərin Dördün biz azərbaycnlılar,ikişisə fars qardaşlarımız qoşmuşlar.
İndi şairimiz gəhrəman xətibinin bu əsərilə bizdə məşrutənin mənzum Tarixi türkcə-farsca beş cildə çatırki bu özlüyündə bir böyük iş  və Demək tarixdir. Maraqlı nuqtası burasıdırki qələmdaşımız ayağın Keçmiş şairlərin yerinə qoysada, onu məharət və ləyaqətlə Bitirmişdir.Ehsasli şair, kitabın öz ata-baba yurdu olan xətib məhəlləsində bu Beytlər başlayır:

Gecə ulduzlu, günüz güllü xətib
Bağı-bostanlari bülbüllü xətib

Xətibin keçmişi xoşdur, üzü ağ

Özü bir yurd olaraq, dövrəsi bağ

Bağçasi,mivəsi, xoş mənzərəsi

Sefisi, göy zəmilərdə tərəsi...

Sonralar isə xəyal atını minib məşrutədən öncə üz verən tanbakı Hərəkatından başlayıb, məşrutənin sonuna qədər dəvam etmişdir.

Maraqlıdırki burada şair dostumuz öz xətibli olduğuna görə, xətibin İzini məşrutə nehzətində gözəlcə bəyan etmişdir. Bu sətirləri yazar Özü şəxsən şahididiki coşqun təbili şairimiz necə məşrutəyə ayid olan Kitabları maraqla arayıb, axtarıb, hövə-hövə oxumaqina riğbət Qöstərirdi. İndi bu kitabin nəşrilə gözlərimiz ışıqlanıb, ədəbiyyat və Tariximizəisə bir zəngin varaq artırılmışdır. Bundan əlavə biz Azərbaycanlıların məşrutəyə ayid mənzum qoşduğumuz tarixlərində Sayılari 5 cildə çatmışdırki özlüyündə entersal və önəmli bir iş Hesablana bilər. Beləliklə siz əziz oxucumuzu bundan artıq keşikdə Saxlamaqdan, nəzakətli və coşqun təbili şair sayın qəhrəman heydər Xətibi ali cənablarina can sağlıqı diləyib, bu nəcib işinə görə öz Minnətdarlığımı bildirib, siz qədir bilən ədəbiyyatçılarımızla əsərin Oxumağına başlayıb, mənzumənin şairinə nailiyətlərlə başarılar ulu Tanrıdan diləyib, deyirəm, şair bütün

sevgilər sənin olsun!

Riza həmraz-təbriz

2015-8-5

Bu yazımızda yararlığındımız qaynaqlar:

1-Məqalə toplusu və məşrutəyə anım çıxışlar-təbriz 2003

2-Məqalə toplusu və məşrutə haqqında çıx-ışlar-təbriz 2004

3- Təbriz döyüş məktubu- məhmud tondəri (səmsamolsoltan) bəhram bəyat sərmədi Çalişmasıla- nəşre səfialaşah- tehran 1997

4-Səttarxan el qəhrəmani- fərəc fatehi

5- Qaradağ ulduzu( səttarxan), qurbanəli ənsari (qara dağli ənsar)

6- Pərvin mirzaye aştiyani,məşrutə inqilabını 2500 beytlətəsvirə çəkən şair, məhde Azadi

## Ön söz

Dünyada, həyatının necəlik dəyərini dirikən özünün necə çəkdigi, nəfəslərdə, Düşünüb və özündə oturan kimsənə, istər bir şair kimi hünər əhli olsun, yada bir Ziyali kimi aydınlar sırasında yer tutsun, oturduğu yerin və el-obasının durumunu, Hər baxımdan tanıyıb, onlara nisbət öz görəvini hər bir sahədə düşünməlidir. Yoxsa, kimliyinə yaramaz bir kimsə, yəqin ki həyatında bir neçə addimda, Heyvanlardan aşağı durmalıdır. Böyüklüyünü düşünməyən birisi, bə`zən böyük bir Alçaqlığada səbəb ola bildiyinə inanmalıdır.

Demək dünyada, bütün hakimiyyətlərin suçu, insanları yersizcə qırdıqlarına görə, Minlər və bəlkədə milyonlar qat, ləlöyün yırtıcı heyvanların qırdığı sürülərdən Artıqdır. Heyvanları hər bir əmələ sarı çəkən, onların fitrətlərinə bağlı olan zati Qərizələrdir. Onun tərsinə in-

sanlarin həyatında şour adlı min bir felli-qadalı Davranış hakim olduğu üçün, davranışların hər biri, min bir qırğın törətməyə Yönlənə bilər, ancaq alçaqlıqların amillərini aradan götürməyə yalnız el ara, uca Himmətlə dahi fikirli və ilahi ruhlu yorulmaz bir iradə gərəkir. Belə olursa zülmün Və zülmətin qarşısında durmaqla onun seytərəsini yaşamlardan silib, həyatı olduğu Kimi dəyərləndirmək çoxda çətin bir iş olmayacaq.

Yeri gəlmişkən qəhrəman şairimizdən bu şahbeyti səsləndirmək istəyirəm:

Həq tələblər ki çatıb həqqə əli



Adlanıb adları aləmdə dəli



Yuxarıda açıqlanan sözlərin cohəri kimi görünən bu beyt, şairimizin osturəyə Tanışlığınıgöstərməklə bir uzun mətləbi, özəl halda qısaca demək, onun şeirə Təsəllütünü yetirir.

Şair, tarix boyu bir elin, həq tələblik fikrilə boy atıb, həq carçısı olaraq, həq Dalınca getməsindən söz açdıqda, baxışları "dəli" sözünün dərin anlamına Çağırır. Keçmişlərdə, işlənən vurğun və cannisar sözünün yerini, əsrimizdə çılğın Kəlməsi tutubdur. Rivayətlərə görə, qudurqan bir xanın qəhrinə düşüb, yazıqca kor Olan mehtərə, havar duran, bir çox həq tələb camahat, onun oğlunu "koroğlu" Ədlandırarkən, başına

yığılıb, özlərini koroğlu dəliləri tanıtdırıblar.

Bu dəlilər zülümkarın qarşısında canlarını nisar etməklə düşmənlərin tifağını Dağıdıb, həqqə arxa durarkən, həq tələblik etmişlər.

Məncə həyatin dəyərini düşünüb və çəkdiyi nəfəslərə qimət verənlərin birisidə, şa`ir Qardaşım qəhrəman cənablarıdır. Onu, 1978-ci ilindəşah hokumətinə qarşı e`tirazlar dolu günlərdə, təzahuratlar başçısı kimi, bir qəhrəman tanıyırdımsa, 1979-1980-ci illərdə, çalışqan bir iştirakçı olduğum "şairlər və yazıçılar Cəmiyət"ində onunla yaxından tanış oldum. Bu əzizin saf-saydam ürəkli olduğunu Düşündüm. Onun istəklərilə görüşüb diləklərinə qovuşdum və bir az müddət Boyunda, daha doğrusu, onla can bir qalib dost olaraq, birbirimizlə könüldaşlıq Etdik. Şair qəhrəmanın, şeir dünyasında boy atmağı, 1978-1979dan başlanırsa Onun fikrinin gedişatını, üç qola bölmək olar.

1-1978dən 1988-ci ilə qədər

2-1989dan 2001-ci ilə qədər

3-2002-ci ildən indiyə qədər

O, şeir sahəsində varilan çağdan,axar təbili, saydam sözlü və bikr məzmunlu Bir şair olsada, ancaq yaradıcılıq həyatının:

*İlk bölümündə, onun xəmirəsi yoxsulluqla yoğrulduğu üçün, təbindən doğulan Şeirləri

çevrəsində şahid olduğu yaşayışların durumundan təsir alıb, çəkdiyi Fəlakətdən dolayi sözləri bir çox ürək sıxıcıdır.

** İkinci bölümündə xəmir mayasını, durğun əhvallı fikirlərdən təsirləndiyinə Görə, el arasında, olduğu kimi qarşılanıb ucalanmadi.

*** Üçüncü ya xod indiki yaşadığı dövrü 2001-ci ildən başlayaraq bu günə kimi, Yaratdığı əsərlərində, fikrini öz elinə, dilinə bağlayib, el-dil deyə, bir vətən Pərvər kimi, qələmilə fikrinə yiyə durduğu üçün, şeir sahəsində özünə bir Qabarıq kürsü qazanmaqdadır.



Artirmalıyam şairin üçüncü dövrü, dönüş nuqtası sayılarkən, başlanqıcda Dediyim kimi, öncə boy atdığı ocağı tanıyıb, tanıtdırmaqla başlamışdı.

Yaşadığımız yerin taleinə mismarlanan qara günlük keçmişlərdən ğasib Hokumətlər siyasəti altında olduğu üçün, xoş gün görmədiyimiz hamımıza Aydındır. Bizim yerli sözlərimizdən tutdu, yer-köy adlarına qədər bəlli bir Kimsələrin cövrilə talanıb, yerlərini qondarma və ögey adlar almaqla məfhum və Mənasını əlindən alıb eybəcər etməklə bu millətin kimliyini taptalayıblar. Mən Bu torpaqda yaşayanların birisi olaraq, yetmiş ilə yaxın öm-

rümdə, ucan, Tufarqan, qoşaçay, sayınqala kimi şəhərlərin, bostan abad, azərşəhr, miyandab, Şahindej, adına çevrilməsinə yana-yana tanıq olmuşam, habelə muğan çölünün Ürəyində, pars abad adıyla bir şəhərin dikəlməsinə tanıq olduğumda, bu yaxın Zamanlarda, "quru göl"ün adınıda "təfərrücgahe sədra" görəndə bu elin Kimliyinin aydınca talanmasına, ürəkdən yanıb ağlamışam. Artırmalıyam. Uzun Zamanlardan bəri azərbaycanın yer adları, bir para şərayitə bağlı olaraq Dəyişilmişdir.

Örnək üçün: sırxab dağının üstündəki atəşgahın, imamzadəyə çevrilməsi, yada, Min ildən artıq hərəmilər yurdu adlanan yerə, bir xətibin köçməsi əsərində "xətib" adlanması bir para inamdan asılı olmuşdur.

Şair qəhrəman cənabları "hərəmilər yurdunun"nədən xətib adlandırmasını Nəzmili bir əsərində axıcı olaraq açıqlayıbdır. Habelə yaşadığı yurdun Keçmişlərdən bu günədək başına gələn olaylarını, yetgin bir halda qələmə alıb Və öz boy-soyuna arxalanaraq, geniş bir halda, elinin qəhrəmanlarının, Şəhidlərin və başqalarının başlarından sovduğu acılıqla təhlükəli günlərini, Zəfər çalmalarınadək nəzmə çəkib dir. Bir yerdə yazır:

Xoş olar, el ara, bu olsa yasa

Öz kökün hammı dərindən tanısa

Onlarin hərəkətlərinə dəyər verməklə, xatirələrini canlandırmışdır.

O, tarixdə gələn bir kiçik movzudan bilə duyğulanib həmin olayı, bir canlı tablo Kimi göz önünə çixartmışdır.

Örnəyin: müzəffəriddin-in təbrizdə vəliəhd kürsüsündə hökm sürdüyü çağda, "Quş əhməd" adlə bir əyyarın başına gəldiyi macəranı açıqlamaqla, ucalıqlarını Gözə çəkib deyir:

İstərəm quşlara məndə qoşulam

Nə ki ölkəmdə, vətənsiz quş olam

Qəflətən zehnimə gəldi bu pəyam

Hansı insan quş olub məndə olam?

Şairin bu rivayi şeirində, təbi görküsü, quş əhmədi nişan verməklə onun şərhi Halını canlandırıb elinə tanıtdırır.

Bundan artıq hörmətli oxucuları yormayım diyə, şairimizin, elinə ğurur boyda Baxışı, böyük qoçaqlarımızada, hər bir sahədə təmsilçi olub və onların vətənlə el Yolunda həmasəli davranışların, şurlu hallı qələmilə dəyərləndirir.

O özüdə bir el-elçisi kimi, O macəralardan uzaqda durmayır. Onun baxışında "Zeynəbpaşa"kimi bir aslan qadının, qorxmazca hərəkəti hər bir qonuda diqqətə

Layiqdir.

Gəl dilə, söylə qadınsan ya kişi?

Hər kişi çun görə bilməz bu işi

Şair, bu beytin birinci misrainda, zeynəb-paşanı kişilərlə bərabər tutarkən, ikinci Misrada ustadcasına onun kişilərdəndə baş olmasına işarə edir. ədəbiyyatımız-da Kişi kəlməsi,ərkək və nəfər mənasın-da işlənsədə, bu beytdə, hər iki məna, yer li-Yataqlı əyləşmişdir. Umuram, bu can dostum və sayın qələmdaşımın yazdığı Mənzumələri, ışıq üzü görürsə, gələcəkdə tarix köksündə parlayacaqdır.

....Yolu açıq, ömrü mayalı, qələmi sağlam olsun!

Muğan-yaz 2015, təbriz

## Xətib məhəlləsi

Gecə ulduzlu, günüz güllü xətib
Bağı, bostanları bülbüllü xətib
Xətibin keçmişi xoşdur, üzü ağ
Özü bir yurd olaraq dövrəsi bağ
Bağçası, mivəsi, xoş mənzərəsi
Sefisi, göy zəmilərdə tərəsi
Aynalı lam-lam axan çeşmələri
Mavi afaqə bxan çeşmələri
Cəzb edərdi hamı yoldan keçəni
Şəngül eylərdi suyundan içəni
Xoş olar, el ara bu olsa yasa
Öz kökün hammı dərindən tanısa
Bölgənin olsa inayət kökünə
Xətibin var bu rivayət kökünə
Nəql ediblər ki "xətib təbrizi"
Əsrinin arifi, elmin dənizi

Ev tikib burda çün etmiş oturaq
Xətib adlanmış o gündən bu sayaq
Əmma yazmış belə ravi qələmi
Tutulandan sora “babək hərəmi”
Çen çatıb ğasib ərəblər hədəfə
“Hərəmi”lər dağılıb hər tərəfə
Təbrizi qəsd eləyən dəstə, həman
Hərəmilər buranı etdi məkan
Başqa bir bəlgədə vardır bu sözə
Görünür gün kimi tarixdə gözə
Ki bilib yazmağa tarixə səza
Qacarın şazdəsı “nadir mirza”
Xətibin mulkun araşmaqla dərin
Belə təsvirə çəkib çeşmələrin
Ən duru çeşmə “hac abbas” suyudur
Suvarır bağları illər boyudur
İçməyə xalq seçən “heydər bəy”
Hamı rəğbətlə içən heydər bəy
Bu həmən adlı xətib çeşməsidir
Suyu dərmanlı, əcib çeşməsidir
Çeşmənin vurğun olan nəğməsinə
Xoşlanar “ malla əli” çeşməsinə
“İsfəhani” suyu çün ayna axar
Hərə öz surətinə onda baxar
Lap şirin su “hərəmilər” suyudur
Qaynağı çöldə coşan bir quyudur

Dum duru sanki erəm çeşməsidir
Adı dillərdə hərəm çeşməsidir
Bəli beş çeşmədən o ad gətirib
Sözü məqsudə belənçi yetirib
İltifat olsa hərəm kəlməsinə
Adı mə'nailə düz gəlməsinə
Bəllənər ki suyun ünvani olub
Hərəmilər bu suya bani olub
Ayri bir bəlgədə çırpır gözümə
O "hərəm bağı"di şahid sözümə
Səpdi duz bu söz ürək dağlarına
Xəyalım getdi xətib bağlarina
Nazirəm"xan bağı", "naseh bağı"na
Möhtəşəm şazdaların yaylağına
Naz o ne'mətdə "vəzir bağı" beheşt
Cilvədə nəqşəli vilasi keneşt
Qərnilərdirki bu tarixi məhəl
Olub "üç bağ"la gözəllikdə məsəl
Qanalı, miveli "bülbüllü bağ"ı
Sarı köynəkli, qizil güllü bağı
"Çayçılar bağı", "bəyin bağı" sulu
"Haj ğəni bağı" bütün alma, hulu
Badamın mərkəzi "məşhəd bağı"dır
Bağların bölgədə ərşəd bağıdır
Cəvvi hörmüşdü ağaclar elə düz,
-Zərrəcə gün yerə düşməzdi günüz

Xoş olardi günüzündən gecəsi
Səslənərdi gecə bülbül cücəsi
Hər suyu şərbətə bənzərdi gecə
Hər bağı cənnətə bənzərdi gecə
Şazda təbrizdə edərkən oturaq
Ona, yaz-yayda gələn vəqtə qonaq
Çox aparmazdı şəhin bağlarına
Gətirərdi xətibin bağlarına
*
Qovuşub şəhrə o gündən ki xətib
Bizədə paslı hava oldu nəsib
Çeşmələr batdı, həyat oldu oyun
Nə davar tövlədə qaldı nə qoyun
Gün bə gün yurda yaman yel əsilib
Bağ yola düşdü, ağaclar kəsilib
Ağacın indi yerində becərib
-Qərə simanla dəmirlər gövərib
Çaldı lastik ğələbə gül,çiçəgə
Maşının tüstüsü qalxır fələkə
Bilik olsaydı, yoxuydu dağımız
Həm olardı evimiz həm bağımız
Açıram indi ara ğussəilə
Qələmi dağ edirəm qissəilə
O zaman ki xətibə qorxu dolub
Cəng meydanı bu təbrizdə olub
Var xəyalım taza bir tərh tökəm
Qəhrəmanlar döyüşün nəzmə çəkəm.

# koroğlu və zeynəbpaşa

Gecədir ay salıb afaqə ışıq
Işığından tapıb aləm yaraşıq
Gecə şair olar allah qonağı
Alışar siynədə elham ocağı
Hamı yatmış, oyağam mən bu gecə
İki qatlı qonağam mən bu gecə
Olmuşam zoqilə hər qaldan uzaq
Həm hünər, həmdə hünərməndə qonaq
Hünər ərbabi sevər çün qonağın
Məhrəm etmiş mənə məxsus otağın
Otaq əlbət ki hünər muzəsidir
Qoçların fəth o zəfər muzəsidir
Əski tarixi dirildib hünəri
Can verib heykələ ölməz əsəri
Çehrəsi zülmətə fanus anamız
Türkün osturəsi "tümrüs" anamız

Şə’ni pirayə günəş tək fələkə
Kuruşa alqan içirdən mələkə
Babəkin soləti, hündür qalası
İstiqamət dağı, azər balası
Ulu “səttarxan”ilə “baqirxan”
Söyləyən canları azərbaycan
Nayibəkbər ki böyük ad qazanıb
Tək, səmədxan qabağında dayanıb
Qanad açmış göyə “quşəhməd” uçur
Tapıb öz istəginə məqsəd uçur
Qoçların, nabiğədir tək bə təki
Dönməyib düşmənə dönməz kürəki
Surətən rö’bülü, siyrətdə qəşəng
Dağda aslan ısa dəryadə nəhəng
*
Bir rədifdə iki heykəl qoşadır
Bir koroğlu, biri zeynəbpaşadır
Qoç koroğlu dayanıb çənli belə
Vəli zeynəbpaşa himmətli elə
Ona yardımcı el oğlanlarıdır
Şer qadınlar bunun aslanlarıdır
O yıxılmışlara eylərdi kömək
Bu ac insanlara paylardi çörək
*
Qoç koroğlu oturardı gecələr
Dağda əyləncə qurardı gecələr

Yığışardı dəlilər dövrəsinə
Baş qatardı gecə osturəsinə
Amma zeynəbpaşa yummazdı gözün
Gecələr zəhmətə salmışdı özün
Bir əlində dava, bir əldə ağac
Xəstələr dərdinə eylərdi əlac
Baxdım o nadirənin heykəlinə
Ruhumun oldu səbəb seyqəlinə
Alıb ilham, sözü şəffaf elədim
Ona bu nəğməni ithaf elədim
Ay koroğlu yoluna yolçu olan
Nə gedişdən nə döyüşdən yorulan
O gedən yolda təkamul yaradan
Qaldıran zülm besatın aradan
Əsləhə bağlamısan öz belinə
Olmusan sankı koroğlu elinə
*
Qoç koroğlu eləyən vaqta qiyam
Tanınıb xəlqə çün o yaxşı məram
Arxadaşlar yığışıb dövrəsinə
Baş ucaldıb fələkin zöhrəsinə
Həq tələblər ki çatıb həqqə əli
-Adlanıb adları aləmdə dəli
Mə'nası bəllənir indi o adın
Düşünüb fəlsəfəsin yaxşı qadın
Sən becərdən mütərəqqi dəlilər
-Davasın verdi kehəldi zəlilər

Qan soran möhtəkeri ağlatdın
Neçə dəfıə bazarı bağlatdın
Fərraşın fərqinə çaldın dəyənək
Payladın aclara pis gündə çörək
İngilis fitnəsin ifşa elədin
Tanbakı nehzətin ehya elədin
Gəl dilə söylə qadınsan ya kişi
Hər kişi çün görə bilməz bu işi
Heykəlində dili var misli kitab
Gözləri, sözlərimə verdi cəvab
Mən koroğlu deyiləm, el qızıyam
Dəli sellərdə üzən sel qızıyam
Mən üzüb sahilə, seldən çıxanam
Zamanın oğrusun atdan yıxanam
Mən koroğlu deyiləm, can atanam
Korların bəlkə əlindən tutanam
Etdi kor bir kişini bir içi xam
Qoç koroğlu o zaman etdi qiyam
Hər nədən öncə, tutub qan tökəni
-Cəzalandırdı, gözə mil çəkəni
Can gözün indi ğənim kor eləmiş
Möhtəşəm ellərimi xor eləmiş
Səhldir sandıla kor, xəlqimizi,
-Dandılar riyşəmizi, həqqimizi
Mən necə indi qiyam eyləməyim?
Zalimə gündüzü şam eyləməyim?

Görürəm toteəni, vardı gözüm
Həqqimi almağa məcburəm özüm
Mən koroğlu elinə bir nigaram
Əski tarixdəki başçıl "navar"am
Döyüşüb ərsədə əl-qol açanam
Xəlqə azadlıq üçün yol açanam
Bəşərin şən yazı azadlığıdır
Düşsə uğrunda ğəmə şadlığıdır
Mən yazı tohfə gətirdim qadına
İndi malik özüdür hərzadına
Mən fəda etdim elə hərzadımı
Odur ellər, paşa qoymuş adımı
Elimin eşqili pərvanəsiyəm
Ya, həqiqətli bir əfsanəsiyəm
Mən qadın nehzətinə abramanam
Tanbakı nehzətinə qəhrəmanam.

## Nayıbəkbər

Nayıbəkbər anadan oldu gecə
Yeni şənliklə xətib doldu gecə
Süd əmib, ondakı süddən açılıb
Qapının ağzına gül tək saçılıb
Qoşulub kuçədə yar-yoldaşına
Beş yaşından yetişib on yaşına
Yazılıb məktəbə quran oxudu
Yazmaq öyrəndi gülüstan oxudu
Boy atib, camiədə oldu cəvan
Türk mənzumələrin etdi rəvan
Mə'nəviyyət üzügündə qaş olub
Hamıdan elm o ədəbdə baş olub
Şəm'i tək xəlqinə yandırdı ürək
Hər aca, yoxsula eylərdi kömək
Gəldi bir gün başına beylə qəza
Çöldə qalmışdı, çox isti havada

Elə çöl ki nə bulaq, nə quyu var
Küzəsində bir içimlik suyu var
Yol gedir, qan tər içində çalışır
Ciyəri, gördü ətəşdən alışır
Küzəni aldı ələ, su edə nuş
Gəldi bir qussəli səhnə ona tuş
Gördü yol üstə bir insan yıxılıb
Zə'f  edib halı pərişan yıxılıb
Küzəni qoydu yerə içmədi su
Nuşi can,söylədi: olmaz mənə bu
Yaramaz vicdanıma, sadə keçəm,
Biri təşnə yıxıla mən su içəm
Gəldi sürətlə başı üstə onun
Əcəlin gördü qaşı üstə onun
Götürüb qoydu dizi üstə başın
Gözlərin pak elədi sildi qaşın
Dedi: dərdin nədir? ay xəstə oyan
Yatma bu halilə yol üstə oyan
Gözlərin açdı o biçarə ğərib
Sankı gördü başı üstündə təbib
Dedi: can çıxmağa məndən çalışır
Susuzam, qəlbim ətəşdən alışır
Az qalır, əl həyatımdan qoparam
-Bir içim olsa su, mən can taparam
Nayıbəkbər küzəni tez gətirib
Qurumuş dil-dodağa su yetirib

Ona su verdi, özü qaldı susuz
Sanma, can mayəsini satdı ucuz
Çün ölümdən o bəşər tapdı nəcat
Su içib, saldı ələ tazə həyat
Bir dua etdi nayıbəkbəri o
Gəncə, layıq elədi govhəri o
Dedi: verdin su mənə, sən bu sayaq,
-Get ol illər boyu "səqqa"yə qonaq
Müstəcab oldu duası kişinin
Axırın gör nayıbəkbər işinin
El yolunda çalışıb tapdı şanı
Məqsədə çatdı xətib qəhrəmanı.

## Nayıbəkbər və zeynəbpaşa

Nayıbəkbər xətibin fəxri şanı
Vəsf qılmış belə zeynəbpaşanı
Xəlq fərzanəsi zeynəbpaşadır
Dillər əfsanəsi zeynəbpaşadır
Şah qadın, təbrizin aslan qızıdır
Əhrimən ziddi "süleyman" qızıdır
Gəncidim ki xətibə gəldi gecə
Oturub səkkidə dincəldi gecə
İlk dəfeydiki röyət elədim
Onu mənzildə ziyarət elədim
Uca boy, enli kürək, heykəli xoş
Verilib əndamına seyqəli xoş
Üzü ay parçası, gözlər badamı
Cəlb edirdi özünə hər adamı
Eyn halda əzəmət peykəridir
Başçı,"ceyran" xanımın məzhəridir

Gözü qartal gözü tək bərq vurur
Baxışından cana vəhşət oturur
Görkəmindən uca himmət tökülür
Surətindən isə solət tökülür
Bağlamışdı patava dizlərinə
Bürünüb sankı laçın öz pərinə
Dəyənək əldə, belində şələsi
Qax əriklə dolu yekkə sələsi
Zilləmişdim gözümü, gözlərinə
Qulaq asdım dedigi sözlərinə
Anama söylədi: ay canlı məram
Mən xətibdə səni məsul tanıram
Çün bu günlər çox olub təng məaş
Gecələr yatma bacı eylə təlaş
Dayanış qaftanı qıyma cırıla
Qoyma yoxsullar acından qırıla
Sırrılar örtügü haşa sökülə
Qoyma xalqın, su üzündən tökülə
Sora bir torba ərik verdi bizə
Mən əminəm dedi: hər anda sizə
Bu ərik qaxlarını aclara ver
Çörək avarəsi möhtaclara ver

*****

Budur onla mənim əvvəl görüşüm
Xatıratımda musəccəl görüşüm
Tanıdım sonraki zeynəbpaşadır
Adı öndərlər adıyla qoşadır

Gənc,qudrətdə, fəzilətdə qoca
Qocaman dağ kimi himmətdə uca
Qərə yellər qabağında dayanıb
Dəli sellər qabağında dayanıb
Belinə bağladı himmət kəmərin
Qaytarıb eldən əcanib xətərin
Ondan ilhamını səttarxan alıb
Zəfər istibdada nehzətdə çalıb
Əsrin ovcubəsi zeynəbpaşadır
Xəlq məhbubəsi zeynəbpaşadır
Başdan el qussəsin atmaz gecələr
Dolanar evləri yatmaz gecələr
Dərdinə xəstələrin eylər əlac
Qoymaz eldən biri qalsın gecə ac
Qəhrəmanlar tacı zeynəbpaşadır
Xəlqə əmlək bacı zeynəbpaşadır.

## Zeynəbpaşanın doğumu

Gecədir hər cürə hadis anası
Doğur osturə, həvadis anası
Doğmağa sancılanıb boylu günəş
Ana olmaqdan ötur qəlbi ətəş
Sürünüb, gün batana saldı özün
Cəlb edib doğmağına xəlq gözün
Cərrahın xidmətə göndərdi gecə
Vəhdəti kesrətə döndərdi gecə
Günəşin bağrı şəfəqdə sökülüb
Parlaq ulduz göyə saysız tökülüb
Fələkin həlqə vurub sağ-soluna
Körpələr sankı baxır süd yoluna
Yer, göyə baxdı həsadət elədi
Ərşilə fərş rəqabət elədi
Yerdə amma necə ulduz doğulub?
Qarşı min ulduza bir qız doğulub

Olsa tarixə bəsirətlə nəzər
Gecə dünyayə gəlib nabiğələr
Gecə musa anasından doğulub,
-Cumdurub dəryada, feron boğulub
Gecə"tumrus" ana,olmuş anadan
Kəsdi şərrin"kuruş"un asiyadan
Gecə təbıi yenə göstərdi özün
Açdı el başçısı dünyayə gözün
Çatdı öz əslinə təbrizdə kərəm
Qoydu zeynəbpaşa dünyayə qədəm
Göydə şənliklə çalıb zöhrə sazın
Yerdə el-tayfa əziz tutdu qızın
Qız nə qız! Nehzətə amil olaraq
Min igid mərdə muqabil olaraq
Şivədə qızlara örnək sayılan
Soltəçi ziddinə babək sayılan
Şer mubarizlərə öndər doğulub
Anadan doğma, muzəffər doğulub
Möhtəker qətlinə fərman gətirib
Acların dərdinə dərman gətirib
Zovq mülkündədə sankı paşadır
Eşq o himmətlə vucudi qoşadır
İki niruilə insan ucalar
Zərrədə olsa, günəşdən bac alar
Eşq, himmətlə verər yaxşı səmər
Himmət,eşqilə edər xəlq hünər

Təbrizin zöhrəsi zeynəbpaşadır
Şah qadın çehrəsi zeynəbpaşadır
Qoyan üst-üstə səlabət daşını
Təbrizin ərşə ucaldan başını
Hər zaman ədl o musavatı gəzib
Döyüşüb cəhl o xurafatı əzib
Almayıb öz ləqəbin xan, paşadan
Sankı zeynəb, paşa olmuş anadan
Olmasaydı paşa o xəlqimizə
Tanbakı nehzəti köçmüşdü dizə
Qəhrəmanlar təki zeynəbpaşadır
Qızların babəki zeynəbpaşadır.

# Gecənin xeyr, şərri

Gecə  əfsanəsinin ləzzəti var
Gər həqiqətlə uya qiyməti var
Qalır ovsafına heyrətdə adam
Gecədir sankı iki canlı badam
Yanaşıq çün iki istəkli bacı
Biri şiyrin, biri əlbəttə acı
Şirinin, xeyr qoyub el adını
Acının, şərr sanıb hərzadını
Xeyr o şər mayəsin almış gecədən
Sayısız, xatirə qalmış gecədən
Siynəsində gecənin süt yolu var
Xeyrilə şərrə, qoşa cüt yolu var
Sankı həm rə'fəti həm kiynəsi var
İki ziddi becərən siynəsi var
Kiynəsindən gecənin ay tutular
Rə'fətindən, qərə gün tez qutular

Gecənin bir üzü od, bir üzü su
Xeyr o şərr adlanıb ellər ara bu
Birinin ülkəri sə'dilə şaxar
Birinin ulduzu nəhsilə axar
Birinin cüt quzu quzlağı doğar
Birinin tək qoyunun, qurd boğar
Gecə bir qorxulu dəryadı dərin
Saymaq olmaz gecənin xeyr o şərin
Leyk ğəddarlar elə tərh töküb,
-Fuqəranın belin aləmdə büküb
Gecənin xeyri olar varlıların
Şərri, yoxsulların, azarlıların
Varlının eyşi fərahəmdi gecə
Yoxsula misli cəhənnəmdi gecə
Amma bə'zən gecənin xeyridə var
Onu tək toxlar üçün sanma havar
Aclara bəlkə ğənimətdi gecə
Həqlərin almağa fursətdi gecə
Gecə ne'mətdi mubarizlər üçün
Himməti, ğeyrəti barizlər üçün
Gecə imkan yaradar tor qurana
Qan tökən zalimə şəbxun vurana
Gecə çün hər yeri zülmət eləyər
-Döyüşə səhnəni xəlvət eləyər
Gecə e'laniyələr yaymaq olar
Bəs onu xəlqə kömək saymaq olar

İnqilablar gecə çatmış səmərə
Diktatorlar gecə düşmüş xətərə
Öz muhafizləri nəqşə bitirib
Gecə çox şahları qətlə yetirib
Gecə haylardı koroğlun dəlilər
Şahlara, xanlara çaldıqda zəfər
Qoç"nəbi" mindi gecə çapdı boz at
Qazamatdan"həcər"ə verdi nəcat
Gecə zeynəbpaşanin ərsəsidir
Yeni məktəb qoşanın ərsəsidir
Taza əndişə nurun saçdı elə
Gecənin xeyr o şərin açdı belə
Xəstənin dərdini toxtatsa həkim
Ölkədə olsa ədalət hakim
Gecənin şərri gedib, xeyri qalar
Xeyri, xəlqin başına kölgə salar
Bəli, düz elm yolun seyr eləyən,
Gecə şərrin çevirib xeyr eləyən
-Göstərən yol bizə zeynəbpaşadır
Qəhrəman, təbrizə zeynəbpaşadır.

## Gecə fitnəsi,səhər bilinər

Gecə qurqu yuvası xəlqə tikər
Fitnələr üstə qara pərdə çəkər
Toteə pərdəsi zülmətdi mudam
Birdə ğəflət yuxusun xoşlar əvam
Faciə olsada dəhşətli necə,
Gizlədər çətrinin altında gecə
Gecə hər faciəyə örtük olar
Məzlumun qəlbinə ğəm-qussə dolar
Gecə ulduzlarıla ərşi bəzər
Yerdə məzlumları, zülmətdə əzər
Xəlq yuxlar biligin başdan atar
Gecə fitnə qumaşın xəlqə satar
Gecə öz tərhini ifşa eləməz
Otared,söz açıq inşa eləməz
Gecə səssiz, yerə qar qışda yağar
Xamsıdıb xəlqi, səhər yer ağarar

Bomba vəqtinda necə düz açılar,
-Gecənin bombası gündüz açılar
Qıvrılar əfıi qaranlıqda naçar,
-Gün düşəndə belinə qəddin açar
Gecə xərmən alışıb çöldə yanar
-El səhər faciəsin yaxşı qanar
Gecə əcnasə bazar nırx qoyar
-Səhər əsnaf gəlib xəlqi soyar
Gecə rişvə olunar rəddo bədəl
-Səhər azad dolanar əhle dəğəl
Oğrular cürmə gecə tərh tökər
İncə əbzarilə divarı sökər
Tövlədə vər nə ki heyvan aparar
Amma səssizləri asan aparar
El görər sübh sökülmüş duvarı
Gedib əldən nə ki var mal-davarı
Var səsin oğrulara dərdsəri
Toyuğun çoxdu inəkdən xətəri
İnəgin çün səsi yox cüssəsi var
Toyuğun cüssəsi yoxdur, səsi var
Millətin çıxmasa hər qədr səsi
Boğanın, boğmağa artar həvəsi
Gecə çox faciələr xəlqə doğub
Səslərin amma boğazlarda boğub
Yuxlasa çöldə çoban rəhmə qalar
Sürüsün yırtıcılar əldən alar

Qarovul yatsa, olar rənci hədər
Elin əmniyyəti yəğmayə gedər
Gecə hər cibhədəki tor qurular
Yatan ordulara şəbxun vurular
Bəli, çox hadisə vermiş gecə üz
Faş olub xəlqə muəmmasi günüz
Hər məsəldən bu məsəl baş sayılar
Gecənin keflisi gündüz ayılar
Gecənin arizəsi toteədir
Hansı el toteədən təbrəədir?
O ki ğəflət yuxusun tərk eləyə
Ğəddarın toteəsin dərk eləyə
Qalaçı qalsa gecə düzgün oyaq
-qoya bilməz evinə oğru ayaq
Kimdi bu düz yola xəlqi aparan?
Yuxlamaq adətin eldən qoparan?
Gecənin arifi zeynəbpaşadır
Fitnənin kaşifi zeynəbpaşadır
Hamı gündüz görəni heyrətilə
O qaranlıqda görüb diqqətilə
Qıldı xunsa zələmə toteəsin
Sadir etdi gecənin təbrəəsin
Gecə zeynəbpaşa seçdi yolu düz
Kərvanı məqsədə çatdırdı günüz
Olmaz osturə, günüz yol aparan
Qəhrəmandır gecə düz yol aparan.

## Gecə və zeynəbpaşa

Gecənin məhrəmi zeynəbpaşadır
Siynədə el ğəmi zeynəbpaşadır
Mədəniyyət hörügün başda hörən
Gecənin xeyr o şərin yaxşı görən
Xoş adı, illəti var qalmış onun
Şə'ni, sibqət hamıdan almış onun
*
Gecədən söhbət olunmuş bu qədər
Var niyə vəsfinə yüzlərcə əsər?
İstəsən fəlsəfəsin düz biləsən
Bunu vacibdi yüzə yüz biləsən
Gecə, yardımçıların arxasıdır
Xəlq xadimlərinin aynasıdır
Göstərir şovq saçan çehrələri
Dolanıb muşkul açan çehrələri
Çehrələrdən ki olub zahir əmək
Yoxdur el xadimi zeynəbpaşa tək

Şah deyildi, deyəsən qudrəti var
Öz adın yaymaq üçün servəti var
Nə rəyasət nə səyasət gücünə,
-Adlanıb təkcə ləyaqət gücünə
*
Gecə zeynəbpaşadır şəhri gəzən
Mostəbed qəlbini vəhşətdən üzən
Çün günəş, çehrəsi xuffaşə qənim
Möhtəker düşməni, fərraşə qənim
Ğələbə qorxuya, ğeyrətlə çalan
Öz canin ovcuna, cürətlə alan
Gündüzü eyləyən əşrarə gecə
Axtaran çarəsizə-çarə gecə
*
Fuqəra xidməti fikrində ğərəz
Gecələr paltarın eylərdi əvəz
Pəhləvan börkü qoyardı başına
Endirərdi qırağın lap qaşina
Gözlərindən sora başdan ayağa
-Bürünərdi kişi tək arxalığa
Geyinərdi cecimin peykərinə
Bağlayardi patava dizlərinə
Ayağında qara tust, əldə yaraq
Hərəkətdə, qara quş tək qıvıraq
Xirtdəgindən yapışıb pulluların
Tar edərdi gecə tək ruzigarin
Sıxıb eylərdi devi mesli cücə
Pul alandan sora boşlardi gecə

Pul deyərkən, geri dönməzdi sözü
Bir şahı leyk götürməzdi özü
Varlılardan alınan pulları, düz,
-Cümlə yoxsullara paylardi günüz
Buidi hər gecə təbrizdə işi
Kimsə bilməzdi qadındır ya kişi
*
Gecə zeynəbpaşadır xəlqə kömək
Yetirən aclara zülmətdə çörək
Olan örnək işi sərdəstələrə
Dava-dərman aparan xəstələrə
Boylu ovrətlərə yağ, un yetirən
Sanci toxtatmağa mə’cun yetirən
Hədyə gizlincə yüzə-yüz eləyən
Gecəni yoxsula gündüz eləyən
Gecə rahət uzanıb, yatmadı o
Başdan el dərd o ğəmin atmadi o
Hamı yatdı gecə, o qaldı oyaq
Durdu öz xəlqinə böhranda dayaq
Baş vurub cümlə fəqirlər evinə
Çalışıb xırda uşaqlar sevinə
Bildi yoxsul uşağın öz uşağı
Qoymadı gül kimi solsun yanağı
Odur adlandı acızlar dayağı
Gecənin yatmazı, dayim oayağı
Gecənin sırdaşı zeynəbpaşadır
Qəhrəmanlar başı zeynəbpaşadır.

## Cəmilə bupaşa və zeynəbpaşa

Alqış olsun o mubariz qadına
Fəxr edər ahle cəzayir adına
İftixarilə həyatı qoşadır
Adı adlım"cəmilə bu paşa"dır
Əlcəzayirdə həmasə yaradıb
Ötəkin ağ səfəhatın qaradıb
Düşüb illər boyu zindanda qalıb
Peykərin zəhmətə işkəncə salıb
Çıxdı böhranda sınaqdan üzü ağ
Söhbəti bəzmiləri eylədi dağ
Bəski can yandırıb öz millətinə
Alıb azadlığı can qiymətinə
Salıb avazəsi afaqə tənin
İntişar eyləmiş öz xəlqi yəqin
İndi tutmur bu cəhan şöhrətini
Saxlayır aləm onun hörmətini
Amma təbrizdə olan ğəflətə bax
Diktatorlar törədən illətə bax

Eləbil öz darağın tel tanımır
Hələ zeynəbpaşanı el tanımır
Tanır aləm cəmilə bu paşanı
Tanımır öz eli zeynəb paşanı
Soruşulsa cəmilə bu paşadan,
-Almış ilhamını zeynəbpaşadan
Baxma burda sözünün var kasadi
Öz diyarında ğərib olmuş adı
Kərbəlayə eləyən vəqtə səfər
Quş tək afaqə açıb şöhrəti pər
Məşq olub dünya mubarizlərinə
Hend o afriqa mubarizlərinə
Covhər azadlıqa zeynəbpaşadır
Ərəz ancaq cəmilə bupaşadır
Hər birindən ola lazimdi sipas
İkisin etmirəm əlbəttə qiyas
Cəmilə bupaşa işkəncə görüb
İstiqamət hörügün başda hörüb
Çalışıb, fərdi mubariz olaraq,
-Yurduna yardım ola, xəlqə dayaq
Amma zeynəbpaşa tufan eləmiş
Xəfəqan ziddinə esyan eləmiş
Qaldıran milləti zeynəbpaşadır
Yaradan nehzəti zeynəbpaşadır
El, bu öndərlə tapıb əl zəfərə
Tanbakı nehzəti çatmış səmərə

Həm qadın nehzətinə rəhbər olub
Həm ədalətçilərə öndər olub
Atanış covhərinin aynasıdır
Əzəmət kəlməsinin mə'nasıdır
Həm sitəmgər başına düdmə çalıb
Həm yetimlər başına kölgə salıb
Həm qəhətlikdə ac insan doyurub
Qişda paltar verib, üryan doyurub
Şiyvəsi qızlara məşq olmaq üçün
Arzuman sağərimiz dolmaq üçün
Xatirə salmalı zeynəbpaşadır
Əbədi qalmalı zeynəbpaşadır
Şe'r dünyasına şə'ni yaraşan
Olacaq vəsfinə vaqif araşan
Sanma iğraq, musənnef nəzərin
Saymaq olmaz o qadın hüsnülərin
Əbədiyyətlə məqamı qoşadır
Hüsn məcmuəsi zeynəbpaşadır
Var omiydim ki cəvanlar araşa
Xəlqə bu fəxr libası yaraşa
Bəllənə himməti zeynəbpaşanın
Yurduna xidməti zeynəbpaşanın
Dəstani düşsə aşıqlar sazına
Cəlb edər aləmi öz obrazına
Mahnılar çeşməsi zeynəbpaşadır
Qəhrəman nəğməsi zeynəbpaşadır.

## Niyə zeynəbpaşa tanınmamış?

Niyə zeynəbpaşanı el tanımır?
El yolunda coşanı el tanımır?
Var bunun camiədə çox səbəbi
Deyirəm, gözlürəm ancaq ədəbi
İtirib çox belə, cəmiyyətlər
Qalıb itgin ulu şəxsiyyətlər
Axtarışda tutaq, ellər dalıdır,
-Kim tapıb xəlqə tanıtdırmalıdır?
O nəfər ki qələm almış əlinə
Şübhəsiz ilqarı var öz elinə
Ucalanda başı zeynəbpaşanın
Kimidi çağdaşı zeynəbpaşanın?
O ki məşrutəni diqqətlə yazıb
Başa-baş nehzəti zəhmətlə yazıb
Səbt edib nehzətin illətlərini
Millətin çəkdigi zəhmətlərini

Çörəyin böhranın inşa eləmiş
Möhtəker fitnəsin ifşa eləmiş
Göstərib xəlqə fəlakət nizamın
Çörək üstündə qadınlar qiyamın
Gizlədib amma pəyamın deməyib
Öndəri kimdi? qiyamın deməyib
Faş edib nehzəti qaldırdı qadın,
Yazmayıb başçısının leyk adin
Söyləmiş ki elə qorxub zoəma
-Şəhridən qaçdı nezamololəma
Deməyib amma qaçırdan kimidi
Zülmə qarşı, edən esyan kimidi
Heç umud yox bu işə" kəsrəvi"dən
Umma yardım yetişə kəsrəvidən
O ki olmuş biri yoldan çaşanın
Nə bilər qədrini zeynəbpaşanın
Köləlik əfkarına malik olan
Əcnəbi kültürülə məğzi dolan
öz diyarında məfaxir tanımaz
Belədir elmi dərin, fikri dayaz
Danmıram həqqini, ciddiyyət edib
Xəlqə tarixi yazıb, xidmət edib
Yazmasaydı o, bu tarixi əgər,
-Təbrizin zəhməti olmuşdu hədər
Bəli məşrutəni tə'lif eləmiş
Amma bə'zən sözü təhrif eləmiş

“Şex xiyabanı”nı əğyarə satıb
Ziddinə cibhə tutub, addim atıb
Öncü qarşında, inad üstə durub
Yardım etmək yerinə,zərbə vurub
“Tənqidiyyə”qurulun dayir edib
Düz məsiri buraxıb tərsə gedib
Aqq olub yurduna, milliyətinə
Çalışıb özgə səlahiyyətinə
Bu işi xırdaca yalnışdı hələ
Var yekə cürm o xətasi habelə
Əldə çün töhməti alət eləmiş
Qocaman türkə xəyanət eləmiş
Soltəçi xeyrinə bir şar buraxıb
Kültürün ağ üzünə qarə yaxib
Tuxumun əkmiş o, indi gövərib
Şuvinizmin əlinə süjə verib
Pəhləvi soltəsinə arxa durub
Özü-öz riyşəsinə tiyşə vurub
Azəri riyşəsini tərsə qanıb
Öz dilin əcnəbi qarşında danib
Verməmiş xəlqə nişan əsnadin
-Fars adlandırıb öz əcdadın
Yazıb azər eli nisbət zamana
-Danişir türkü moğuldan buyana
Əql o məntiqdən uzaq bu yava söz
-Ki sanıb cümlə xəlayiq hava söz

Cəvaba hacəti yoxdur bu sözün
Göstərir uyduruq olmaqda özün
İsə, çün yavə sözün yox sənədi
Özünə nəng qazanmış əbədi
Gördügü, işləri etmirdi guman
Göstərər ayna kimi xəlqə zaman
Gələcəkdə edəcək milli şuur
El həyatında günəş misli zuhur
Qılacaq gənclərin fikri əyan
-Şuvinizmin olacaq məkri əyan
Xəlq tarixini təhrif eləyən
Baş uca elləri təzıif eləyən
El quran məhkəmədə xar olacaq
Özü məhkum, adı aldar olacaq
Gənc nəsli tilisim sındıracaq
Lap əyandır kimi-kim sındıracaq
Yazıçı təhrifə şahid olacaq
Nur saçan zülmətə," nahid" olacaq
O çəkəndə üzə zeynəbpaşani
Qəhrəmanlar olacaq söz qoşani.

## Quş əhməd

Gecə əfsanə quşu lanə toxur
Sanasan nəğmə, quş əhməddən oxur
İncə təbiin quşuna danə tökür
Başıma pər açib əfsanə tökür
Oyağam məndə gecə quşları tək
Öz içimdə edirəm seyr fələk
Mən xəyalilə qanad bağlamışam
Yer nəvasilə göyü dağlamışam
Qəribə quş kimi yalqız uçuram
Söz fəzasında qanadsız uçuram
İstirəm quşlara məndə qoşulam
Nəki ölkəmdə vətənsiz quş olam
Yurdumun bollu qaranquşları var
Sarı köynəkli qızıl quşları var
Ğəflətən zehnimə gəldi bu pəyam
Hansı insan quş olub, məndə olam?

Dedi ilham quşu: quş əhmədə bax
Seyr qıl xəlq yolun məqsədə bax
Alıcı quşlarımız çoxdu bizim
Amma quş əhmədə tay yoxdu bizim
Quş nə quş! quşlara səqqa quşudur
Dağların qartalı, dərya quşudur
Həm odur dilsizə etmiş qışı, yay
Doğramış öz çörəyin quşlara pay
Yol nişan, şiyvədə məxluqə verib
Çöldə heyvanlara azuqə verib
Rəhm edib heyvana, heyvanlığına
-Mat qoyub xəlqi öz insanlığına
*
Gecə quş əhməd açıb xeyrə qanad
Çalışıb hasil ola xəlqə murad
Uçub o dəm ki qonardı hər evə
Sankı rəhmət quşu açmış pər evə
Bəski öz rə'fətin etmişdi əyan
Hamı, dərdin ona eylərdi bəyan
Sipər etmişdi fağır xəlqə özün
Zalimin qəhrilə qırmışdı gözün
Gecə bilməzdi rahatlıq özünə
Yuxu gəlməzdi ışıqlı gözünə
Doldurub torba alardi dalına
Yetişərdi fuqəranın halına
O olan yerdə yetimlər, belə kim
-Özlərin doğrusu bilməzdi yetim

Hər zaman qeydinə qalmış oların
Ğəmlərin xatirə salmış oların
Edə bilməz gecə asudə yata,
-kim özün bilsə yetim qeşrə ata
Bayramında yada salmış oların
Taza paltarların almış oların
Bəs quşəhməd özü bayram quşudur
Nəğməli şairə ilham quşudur
Leyk bir kəlmə ötəkdə adı yox
Nisgil olmuş mənə bu məsələ çox
Yenə zeynəbpaşanın bir adı var
Bunun amma nə adı nə yadı var
Mat qalıb,vicdana, insan nə deyə?
Yazmayıblar bunu tarixə niyə?
Rəhmət olsun yenə heydər babama
Ötəki eyləyən əzbər babama
Siynəsi səfhəli tarixə məsəl
İmkani verməsədə yazmağa əl
Dildə tarixi mufəssəl danışıb
Onaki tapmış özü əl danışıb
Qəhrəmanlardan o vermişki xəbər
-Yox kitablarda adındanda əsər
Özü quş əhmədi rö'yət eləmiş
Ona ixlasilə hörmət eləmiş
Sankı qılmışdı onun zəbt səsin
"Sahiboləmr"idəki məhkəməsin

Çün oyaqlardanıdı ravi özü
Tez seçərdi quşu, zülmətdə gözü
Dərk edənməz yatan insan ki necə?
Nə günüz yatdı quşəhməd nə gecə
Adlanıb leyk muzəffər zamanı,
-tək quşəhməd, uçan el qəhrəmanı.

## Quşəhmədin yaşamı

Təbriz, ilkinlərin adlım şəhəri
Gün tək afaqə yayılmış hünəri
Adlanıb xəlqi həmasə yaradan
Ədəbi vichəsi getməz aradan
Oyanış mərkəzi, himmət ocağı
Tanınıb aləmə nehzət ocağı
Təbrizin iftixarından sayılar
-Qalsa təbrizdə yatanlar ayılar
Suyu mə'dən sularından durudur
Cahilin dərdinə dərman suyudur
Verməz əlbəttə xurafatə rəvac
Qaçar ordan kim ola köhnə mezac
Çün görüb elm o təməddündə qabaq,
-Şazdalar orda edərmiş oturaq
Orda saysız hərəkətlər görünüb
İftixarlar, əzəmətlər görünüb

Varidi şazda "muzəffər" zəmanı
Təbrizin bir uca boy qəhrəmanı
Xoşumuş tiynəti, dərki, ədəbi
Adlanıb leyk quşəhməd ləqəbi
Çün özü qıvrağıdı quş sayağı
Geri qalmazdı qanaddan ayağı
Yoxumuş bir elə quş tək pər açan
Möhrə nazik duvar üstündə qaçan
Atılarmış, atılanlardan uca
Göyə qalxarmış iki öz boyuca
Yol gedib çöldə çatan vəqtə çaya,
-Tez o taydan sıçırarmış bu taya
Anadan doğma, hünərdə təkimiş
Eləbil herfəli jimnastikimiş
Bağlaşanda kişilər oylaqda
Bir-birilə göyə hobbulmaqda
Baş uca çıxdı quşəhməd hamıdan
Seçilib ərsədə ərşəd hamıdan
Necə qalxışda quşəhməd seçilib
Mehrəbanlıqdada ərşəd seçilib
Gecələr şəhridə zeynəbpaşa tək
Dolanıb aclara paylardı çörək
Zorlulardan pul alıb qudrətilə
Bəzl edərdi acıza rə'fətilə
Ğərq olarmış ətəgi göz yaşına
Əl çəkən vəqtə yetimlər başına

Çün bilərdi o, yetimlər sayını
Yetirərdi hərənin öz payını
*
Tək nə el dərdinə eylərdi əlac,
-Qışda qoymazdı kı quşlar qala ac
Az yeyərdi özü mənzildə yemək
Artırıb, quşlara doğrardı çörək
Göldə rö'yət eləyəndə su donub
Quşların üstə ətəş rəngi qonub,
Edə bilməzdi baxıb sadə keçə
Su qoyardi dama, quşlar su içə
Quşu görseydi salıblar qəfəsə
Sıxılardı ürəgi bir nəfəsə
Pul verərdi yiyəsin şad eləsin
Ta qəfəsdən quşu azad eləsin
Sanma tək quşlara doğrardı çörək,
-Cümlə heyvanlara eylərdi kömək
Biri qoymazdı cəhalət eləsin
Heyvani tutsun, əziyyət eləsin
Heyvana tor qurana düşmənidi
Ox atıb, daş vurana düşmənidi
Tutulan seydə gələrkən yazığı
Ovçulardanda gələrdi acığı
Xoşu gəlməzdi odur sultandan
Xacə şöhrətli"mohəmmədxan"dan
Çün o sultan çıxıb evdən gecələr
Baş qatardı şikara sübhə qədər

Xatiratın kı quşəhməd oxumuş
Ehtiramı ona nisbət yoxumuş
Yad edərdi vəli “ceyran” anasın
Alı qacarın o aslan anasın
İftixarlar yaradıb çün o qadın
El gərək yad edə hörmətlə adın
Yoxudu şahə vəli xuş nəzəri
İncidərdi çün o şəh tülküləri
Xacə ki tülkünü eylərdi şikar
Diri saxlardi günüz misli davar
Amma qəlbin necə dağlardı gecə?
Zınqıro boynuna bağlardı gecə
Buraxardı sora heyvanı çölə
Səslənib o-bu gülərdi habelə
Bu dəlilə görə quşəhməd ona,
Tək nə hörmət quşu, qoymazdı qona
Bəlkə söhbət eliyəndə, nə ki var,
İntiqad zərbinə eylərdi duçar
Çünkü satqınlar onu anladılar
Getdilər hakimə şeytanladılar
Düşdü quşəhməd odur eldən uzaq
Gəzdi illər boyu çöllərdə qaçaq
Zülmükar şad olub, el ğussələnib
Ğəm tozu başlara onsuz ələnib
Verdi zeynəbpaşa əldən kömıəgin
Sıxdı hicran ğəmi coşqun ürəgin

*

Oldu avarə quşəhməd gecələr
Qaldı çöllərdə mucərrəd gecələr
Amma el dərd o ğəmin atmadı o
Çöldə asudə gedib yatmadı o
Başının altına qoymazdı qolun
Çün yetimlər gecə gözlərdi yolun
Canın əlbəttə salardı xətərə
Gecə zülmətdə gələrdi şəhərə
Varımış rəbti nayıbəkbərilə
Ərəz ülfətdə olar covhərilə
Birdə köz od necə doymaz maşadan
-Ülfətin kəsmədi zeynəbpaşadan
Oların yardımı doğmuşdu murad
Sankı quşəhmədə vermişdi qanad
Eşidib gündə olardan xəbəri
Xəlqə əşraf eləyən zülmüləri
Əzm edib bir gecə əytamə görə
Bir qulaq burması əşrafə verə
İttila hasil edib ki əşraf.
Bazar ə'yani.muəyyən əsnaf
Olacaq cəm'i bir ərbab evinə
Uyğun ərbablara cəzzab evinə
Demə, çillə gecəsiymiş o gecə
Pişib onbeş cürə pişmiş o gecə

Tək özü qıldı iradə o qoçan
Gizlədib əzmini zeynəbpaşadan
Gecə zeynəbpaşa quşəhmədilə
Çalışardı cütü bir məqsədilə
Qəhrəmanlar hərəkatı qoşadır
Lengə, quşəhmədə, zeynəbpaşadır.

## Quşəhmədin tutulmasi

Qışın əfsanəli çillə gecəsi
Oldu quşəhmədə pillə gecəsi
Ucalıb şöhrəti afaqə dolub
Xəlqin əfsanəsi dillərdə olub
Mən quşəhməd gecəsin yad edirəm
Xəlqi çillə gecəsi şad edirəm
Gecə çillə gecəsi, pəxlə pişib
Paça amadələşib, kəllə pişib
Ortadan qırmızı qarpız bölünüb
Sankı bir bölgə amansız bölünüb
Hər iki tayda tuxumlar qaralir
Ayrılıq xatirəsin yadə salır
Lalələr gün tək edib qəsri ışıq
Sazın amadə qılıb çalsın aşıq
Paltarın başdan əyaqş dəyişib
Bəzm vəqtində quşəhməd yetişib

Məclisə, nəqşə çəkib, daxil olub
Nəqşədən ev yiyəsi ğafil olub
Bəzm başlandı, coşub şur o nəşat
Qan soranlar döşədi eyşə besat
Yeyilir quş əti, içgi içilir
Amma quşəhməd olardan seçilir
Məzdəmək eylir olar ləzzət alır
Bu baxır, ac bəşəri yadə salır
Olar əlvan məzə bir yerdə tıxır
Bunu biçarələrin dərdi sıxır
Keflənibər olar eşrət diləyir
Bu yetimlər halına fikr eləyir
Qoşulub onlara ərbab özüdə
Qarnı doymur isə doymur gözüdə
Yeməgə lap qızışan vəqtə hamı
Çöndü birdən qiyama çillə şamı
Duzqabın aldı quşəhməd əlinə
Bir təhərrük verib öz heykəlinə
Duzqabi daşdanıdı vəzni ağır,
Leyk almas daşı tək bərqi şaxır
Gördü çün qan içilir aş yerinə
Oda işlətdi qabı, daş yerinə
Vurdu söndürdü fəqət bir çirağı
Şüşə sındı, səpilib lampa yağı
Sankı şaqqıldadı şimşəkli bulut
Hakim oldu evə dəhşətli sukut

Elə bil aldı səsin ıldırımın,
Göldəki qurbağalar çəkdi xımın
Gördülər bir uca qamətli igid
Yarağı əldə, gəlib ğeyzə şədid
Hərəkətdə qara quşdan bac alan
Görkəmində əzəmətli savalan
Dedi huzzarə nəsihət eşidin
Tez itaət sözə, fursətdi edin
Mənəm el oğlu, quşəhməd taniyin
Əhdə, ilqarə muqəyyəd taniyin
Mənəm aləmdə yetimlər vəkili
Atasızlar, anasızlar kəfili
Parazı ya mənilə bölməlisiz
Ya bu saətdə hamız ölməlisiz
İstəsəz ölməyəsiz sağ qalasız
-Pul verib, yaxşı budur can alasız
Ta quşəhməd adın əsnaf eşidib
-Ölümün nəğməsin əşraf eşidib
Mələkəlmovtu görüb sankı hamı
Boğazında hamının qaldı şamı
Tez boşaldıbla dolu kiysələrin
Verdilər, sovdula başdan xətərin
Pulları aldı quşəhməd əlinə
Gətdi zeynəbpaşanın mənzilinə
Dedi: cəryanı bilərsən soradan
Pulu verdi, özü çıxdı aradan

Gizlənib söz gecə bəlləndi səhər
Yayılıb, çatdı vəliəhdə xəbər
Ki qoyun cildinə aslan bürünüb
Gecə təbrizdə quşəhməd görünüb
Tək igid bir sürü əsnafı soyub
Ev içində girib əşrafı soyub
Eşidib, gəldi muzəffər ğəzəbə
Dedi: o tək necə çaldı ğələbə?
Dedilər: quş təkin o şəhpər açar
Görsə qoçlar onu hər yerdə qaçar
Əl tapa bilməz ona fərraşlar
Baxa bilməz günəşə xuffaşlar
Dedi şazda: onu tez tutmalısız
Yoxsa tənbihilə qan utmalısız
*
Valı iblağ edib öz fərraşına
Cayizə qoydu quşəhməd başına
Cayizə almaq üçün fərraşlar
Sankı zülmətdə gəzib xuffaşlar
Bir yetim qız anası qoydu bara
Danışan vəqtə dedi qonşulara
Qızıma elçi gəlib, hən demişəm
Ola amadə toya mən demişəm
Söz verib çün sözü üstə qalacaq,
-Cahazin cümlə quşəhməd alacaq

Düşdü bu sözki ağızdan-ağıza
Verdi quşəhmədi axır güdaza
Şəhnələr bildiki vəqtin biləcək
Hətmən o yurda quşəhməd gələcək
Yatdılar pusquda qan təşnələri
Valının tülkü sifət şəhnələri
Bir gecə yardım edənlər yoxumuş
Evlərə adı gedənlər yoxumuş
Öz zamanında işin görmək üçün
Cahazın nəqd pulun vermək üçün
Çarəsizlikdən özü amil olub,
-Evə quşəhməd özü daxil olub
Tökülüb birdən ora fərraşlar
Qan tökən əsləhəli ovbaşlar
Dedi quşəhməd o cəm'ə bu sözü:
Görə bilməz məni xor dəhr gözü
Əl-ələ versə bütün ovbaşlar
Üstümə gər tökülə fərraşlar
Sala bilməz məni bir ləhzə tora
Başımı əymərəm ölsəmdə zora
Amma olsamda əlif, mim olaram
Sizə bir şərtilə təslim olaram
Söz verinki məni salsaz, tora siz,
Mən qolu bağlı olandan sora,siz
Bu evin əhlini incitmiyəsiz
Yetimi, biyvəni, sinsitmiyəsiz

Dedi fərraşbaşı:mən söz verirəm
Sözümə zamin iki göz verirəm
Oldu təslim eləbil sındı dəmir
Etdilər qartalı quzqunlar əsir
Qolların zəncirilə bağladılar
O yetimlə anası ağladılar
*
Gərçe quşəhmədə iş oldu çətin
Dayanıb leyk hədəf üstə mətin
El yolunda yaşamın gözdən atıb
Yaxalandı gecə dustaqda yatıb
Nayıbəkbər eşidib faciəni
Belə tovsif eləmiş vaqiəni
Öndərin gözlərinə düşdü gözüm
İlk dəfeydi ki mən gördüm özüm
İslanıb gözləri zeynəbpaşanın
Odludur sözləri zeynəbpaşanın
Ağlamaq olsada man pəhləvana
Qəhrəman ağladı ol qəhrəmana.

## Quşəhmədin uçmağı

Hay düşüb şəhrə quşəhməd tutulub
Sayilan qoçlara ərşəd tutulub
Eləbil bomba açıldı bu xəbər
Tərpənib, bir-birinə dəydi şəhər
Şazda dustaqçıya əmr etdi belə
Saxla quş əhmədi kürkünə elə
Paltarın soyma, silahın alma
Görkəmin pozma, viqardan salma
İstirəm çehrəsin iymendə görəm
Öz libasilə onu məndə görəm
Carçılar çəkdilər avazilə car
Ki səhər bir ələni məhkəmə var
Müttəhəm cürmə quşəhməddi olan
Qorxusu canlara dərbarda dolan
Hökmüdən takı ola razı özü
-Şazda şəxsən olacaq qazı özü

Məhkəmə zöhrüdən əlbəttə qabaq
"Sahiboləmri"də dayir olacaq
Sahiboləmrə o gün xəlq axır
Qurulub səhnədə şahanə çadır
Çadırın həcmi geniş səqfi uca
Qubbası başda muzəyyəndi taca
Oməra dəstə bə dəstə oturub
Şazda baş səndəlin üstə oturub
Dedi: quşəhmədi hazir eləyin
Milləti, keyfərə nazir eləyin
*
Sel kimi çöldə cəmaət dayanıb
Görə quşəhmədi, millət dayanıb
Ğəflətən etdi cəmaət həyəcan
Sıxnaşıb bir-birinə verdi təkan
Çün quşəhməd görünüb gözlərinə
Sankı covhər səpilib közlərinə
Qolların bağlı görüb ağladılar
Lalə tək siynələrin dağladılar
Əlləri bağlı quşəhməd ki gəlir
-Göz yaşın, el ona baxdıqca əlir
Şur gəlib səhnədə saysız adama
Az qalıb həmhəmə,dönsün qiyama
Məclisə daxil olub vahiməsiz
Göstərib ürzə özün etdi əziz

Başladı məhkəməni şazdə belə
Tutdu quşəhmədə üz gəldi dilə
Dedi: əvvəl de görüm ay mürtəd,
-Niyə söylür sənə el quşəhməd?
Dedi: qurban, elə mən doğru quşam
Qanadim yox vəli uçmaqda başam
Dedi: xoşdur görə göz quşluğunu
Ver nişan bir bizə öz quşluğunu
Dedi: sən əmr elə qurban ki əlan,
-Açalar qollarımı azca zaman
Göstərim mən sənə öz quşluğumu
Görə hər şübhəli göz quşluğumu
Şazda əmr etdi açın qollarini
Görüm insanda uçuş yollarini
Açılan ləhzə həmasə yaradıb
Sankı əfsanə həqiqət baradıb
Gördülər cüt təpigin vurdu yerə
Qalxışı top kimi gəldi nəzərə
Göyə hobbuldu iki öz boyuca
Bəlkə düz ölçüdə ondanda uca
Sütünün ortasına pəncə atıb
Dırmaşıb sürətilə səqfə çatıb
Səqfi xəncərlə yarıb, çıxdı çölə
Elə qaçdı, qoşulub sankı yelə
Vurdu heyrət qoşunu cəvvə ələm
Hamının ağzı açıq qaldı o dəm

Mövcüzə misli gəlib gözlərinə
Baxdılar bir-birinin üzlərinə
Göz vurum anda görüb çen o işi
Dedilər: doğrusu quşdur bu kişi
Şazdanin ağzına göz tikdi hamı
Görələr ta nədi vala pəyami
Şazda qalmışdı ki heyran o quşa
-Ayrı söz olmadı mümkün danışa
Ancaq öz heyrətin ibraz elədi
Tək" quşəhməd ki quşəhməd" sölədi
Şəhnələr öz gedişatin dəyişib
Qoççağı tutmağa amadələşib
Şazda əmr etdiki hörmətlə baxın
Vaqiən quşdu, o mərdi buraxın
Quşluğun uçmağıla verdi nişan
Məndə verdim quşa ölkəmdə aman
Leyk insanlıqı yüzdə-yüzümüş
Cümlə şə'nindəki sözlər düzümüş
O yetimlərdən ötür rəncə düşüb
El yolunda işi boğrəncə düşüb
İntiqad etsədə sultan babama
Mən həlal etdim o düzgün adama
Adam öldürməyib o dustaq ola
Quşdur o göydə gərək bayraq ola
O gərək dünyada azad yaşasın
Ellərə örnək olub, şad yaşasın

*

Bu sayaq məhkəməsi çatdı sona
Bu gözəl qoşmanı el qoşdu ona
Quşluğun verdi nişan quşəhməd
Şazdadan aldı aman quşəhməd
Yoxdu quşlar ara quş əhmədə tay
Ala azadlıqı bir uçmağa pay
Quş nə quş! Xəlqə məhəbbət quşudur
Adı əhməd özü rəhmət quşudur
Tək məhəbbət quşudur qəlbə qonan
Kiynəni, nifrəti dimdiklə yonan
Gözünə aldı məram üstə qanın
El yolunda xətərə saldı canın
Çox qəfəsdən quşu azad eləmiş
Dolu vurmuşlara imdad eləmiş
Çoxunun var adı, yoxdur səfasi
Tək quşəhməddi  yetimlər atası
*

Yenə zeynəbpaşa quşəhmədilə
Öz yolun getdi böyük məqsədilə
Verdilər əl-ələ böhran zamanı
Xidmət oldu oların arzumanı
İkisi bir birinə oldu kömək
Aclara çatdı qəhətlikdə çörək
Xətərə doğru düşən vəqtə həyat
Verdilər məhləkədən xəlqə nəcat

Olmasaydı o iki tiynəti pak
Aclıq eylərdi çox insanı həlak
El unutmaz oların yaxşılığın
Müşkülatilə isə qarşılığın
Ta cəhan vardı, cəhanı yaradan,
Qəhrəmanlar adı getməz aradan.

## Səttarxan və zeynəbpaşa

İki şəxsiyyəti azər elinin
Sayılır fəxri, muzəffər elinin
Biri ğeyrətli kişi, şə’ni uca
Biri himmətli qadın, xəlqə rəca
Birinin and içər ellər adına
Birinin cəzbəsi var hər qadına
Biri sərdar olub öz millətinə
Biri olmuş paşa cəmiyyətinə
Biri fəth eylədi qanun ocağın
Biri yandırdı ədalət çirağın
Biri azadlığı sovqət gətirib
Qorxusuz olmağı xəlqə yetirib
Biri bəzl etdi elə tazə həyat
Tanbakı nehzətinə verdi nəcat
Biri məşrutəyə yerlik dilədi
Biri məşrutəni ehya elədi

Biri səttarxan, ulu şöhrəti var
Biri zeynəbpaşa hürriyyəti var
Alqış olsun iki məşrutəçiyə
Durdular qarşı iki soltəçiyə
Biri ğeyrət ələmin ərkə vurub
İngilis soltəsinə qarşı durub
Biri ruslar axışın sədd elədi
Həm əmannamələrin rədd elədi
Ondakı vəhşətə dolmuşdu hamı
Təslim, istibdada olmuşdu hamı
Sınmamışdı fəqət onaltı nəfər
Canların lap bürüyən vəqtə xətər
Dedi rus konsulu sərdarə belə:
Canıvı vermə bu tufanda yelə
Hamı təslim olaraq, sən qalısan
Əl-əyaq, faydasi yoxdur çalısan
Ağ ələm vur qapuva, çökmə dizə,
-Ol viqarilə pənahəndə bizə
Dilə sərdar gəlibən, qıldl xetab
Konsulu etdi pəşiman bu cəvab
Mən əbülfəzl pənahında varam
Yadların əhdinə bel bağlamaram
İstirəm yeddi vilayət sığına
Onun əltaf o fəzilət bağına
*
El gərək vaqiədən ibrət ala
Sərdarın ol əməgin yadə sala

Ondakı küfrə basılmışdı vətən
Çoxudu dildə əbülfəzli sevən
Nəngi çiynində daşırdı hamısı
Rus pənahında yaşırdı hamısı
Kimidi evdə əza bəzmi quran?
Damına rus ələmin öncə vuran?
Kimidi din adına, dini yıxan?
Rusların peşvazına yolda çıxan?
Kimidi zəhməti zayil eləyən?
Rusları tşbrizə daxil eləyən?
*
Ay əbülfəzli sevən dinçi bəşər
O cənabın yoluna müştərilər
Vətənin satmaz əbülfəzli sevən
Xam düşüb, yatmaz əbülfəzli sevən
Belə məktəb gətirib hansı imam?
Olmusan sən ona aləmdə ğulam
Almisan dərs fəqət ağlamağı
Başıva birdə qara bağlamağı
Çün sənə nalə olub təkcə hədəf,
-Edisən ömrünü ğəflətdə tələf
Vətənin viran olur, yox xəbərin
Var-yoxun talan olur yox xəbərin
Zəlzələ yurda verən vəqtə təkan
Cümlə viranə qalan vəqtə məkan
Torpaq altda bağıran vəqtə elin

Səni dadə çağıran vəqtə elin
Sən qatıbsan başını ağlamağa
Qəlbini, siynə vurub, dağlamağa
Sənsən əbbas yolun tərsə gedən
Özün əğyar əlinə alət edən
O tökür tərh gecə, gündüzünə
Görüm əbbas tüpürsün üzünə
*
Qorxaq insanə yaraşmaz habelə
Qolsuz əbbasə özün şiy'ə bilə
Sənki qorxu belə qırmış gözünü
Cürətin yox diyəsən öz sözünü
Siynənə çalma əbulfəzl daşın
Qatma xəlqin yava sözlərlə başın
Ay olan vurğun əbülfəzl adına
Bax əməkdə o mubariz qadına
Gör necə əcnəbi qarşında durub
Soltəçi surətinə silli vurub
O həman, məğzə qoyan od maşadır
Nehzətin başçısı zeynəbpaşadır
O gedib düzgün əbülfəzl yolun
Nə sağın məkrinə uydu nə solun
Dedi:var ta bədənimdə iki qol
Qoymaram ölkəmə xiffət aça yol
İşin oxşatdı əbulfəzl işinə
Öz canın aldı döyüşdə dişinə

Bir belin, bağladı açdı iki əl
Tanbaki məsələsin eylədi həl
Sağ əli fərraşa vurdu dəyənək
Sol əli payladı ac xəlqə çörək
Sağ əli etdi musavatı ələm
Sol əli çəkdi xurafatə qələm
Sağ əlin çırpdı sitəmgər başına
Sol əlin çəkdi yetimlər başına
İnqilab osvəsi zeynəbpaşadır
Mə'rifət cilvəsi zeynəbpaşadır
Dəmirin riyşəsi bağlı daşadır
Ülgü səttarxana zeynəbpaşadır
Türkün ərdəmdə yox arvad, kişisi
Aslanın bir olar ərkək, dişisi
Ta cəhan vardı, zamandan-zamana
-Fəxr edər el bu iki qəhrəmana.

## Müsəlləslər

Olan aləmdə müsəllt bəşərə
Gəlir özlükdə müsəlləs nəzərə
Üç bucaq bircə müsəlləs yaradıb
Muxtəlif sahədə məbhəs yaradıb
Mə'rifət gözlügün ancaq gözə tax
Cür bə cür rəhli müsəlləslərə bax
Dənizin "bermuda"əfsanəsi var
O müsəlləsdə xətər lanəsi var
Cumulub orda suya çox gəmilər
İtilib, sankı olub yox gəmilər
Çox kitablar ora mərbut yazılıb
Sayısı hadisə məbsut yazılıb
*
Üç hokumət ki edib türkə sitəm
Bir müsəlləs yaradıblar bahəm
Ha vo sin, p, oxu tarixin özün
Mətrəh etmişlər apartayd sözün

Bir müsəlləs bizi etmiş qolçaq
Tez inanmaq, çox utanmaq, qorxmaq
*
Bir müsəlləs gərək olsun canımız
Dil və kök, birdə azərbaycanımız
*
O müsəlləs ki qurur millətə tor
Adlanıbdır zər o təzvirilə zor
Sözüm ancaq o müsəlləsdə gəzir
Qərnilərdirki fağır xəlqi əzir
Adı birlikdə müsəlləs qoyulur
Üç quruhilə cəmaət soyulur
Biri mofti, biri hakim, biri xan
Kətdə xan,şəhridə bazari həman
*
Təbrizin neççə axundu varıdı
Ad axund, özləri anbardarıdı
Girişib cürətilə ehtikara
Möhtəkerlərdə baxırdı olara
Oki təqvadən ibarətdi sözü
Əmələn möhtəker olmuşdu özü
Alim elmilə əgər etsə fəsad
Aləmi fasid edər,cəhl o inad
Din gərək olsun ədalət yaradan
Din deyil fəqr o fəlakət yaradan
Din mükəlləfdi edə dərdə əlac
Din olan yerdə gərək olmaya ac

*

Var ikinci quruhun vəhşəti çox
Hakimiyyət özüdür, qudrəti çox
"Saedolmolk" fəlakət törədən
Qan töküb, zülm o cinayət törədən
Xəlqə qondarma qəhətlik yaradan
Nəngi, tarix boyu getməz aradan
Qıssalatdım sözü, açdım vəli yol
Oxu öz vaqiəsin, multəfit ol
*

Bax üçüncü quruhun hiyləsinə
Fuqəraya toxumuş piyləsinə
Bazar ə'yanı muzəvver hacılar
Möhtəker qeşri, muqəsser hacılar
Hakimiyyətdən alıb ixtiyarı
Peşə etmiş özünə ehtikarı
And içir söz başı millət başına
Salır öz cürmünü dövlət başına
Xəlqə qıtlıq bu müsəlləs yaradıb
Ağ günü, xəlq gözündə qaradıb
" Bermuda" vahimə salsa dənizə
Bu edib məhləkə dünyanı bizə
Onu dəryadə təbiət yaradıb
Bunu təbrizdə hokumət yaradıb
Möhtəkerlər hamısı əl bir olub
Ac qalıb, kütlələrin rəngi solub

*

Bir tərəfdəndə yolun tərsə gedir
Xəlqə çox zülmü, çörəkpəzlər edir
Ayrı şeylər una gizlincə qatır
Pişməmiş, çiy çıxadır, xəlqə satır
Verir əsgik malı miyzan yerinə
Satır üç çarəki batman yerinə
*

Bunu tarixçi deyir: gördüm özüm
Dolananda bazarı düşdü gözüm
Bir çörəkçi danışır xəlqə bətər
Kərbəlayə eliyən vəqtə səfər
Deyir: ay el məni mə'zur tutun
Mənə nisbət ğəzəbiz olsa utun
Çörəgi satmışam əlbəttə baha
-Məni məcbur eləmişlər günaha
Nə gücüm var, nədə insan soyanam
Dovlət əmrin yerinə mən qoyanam
Valı soyqunçuları xəlqi soyur
Gündə bircür çörəgə nırx qoyur
Bahalıqda bizə bu miyzan olar
-Üç çərək un elə bir batman olar
Qoymuşam evləri viran gedirəm
Kərbəla şahinə mehman gedirəm
İstirəm qalmasın üqbayə məlal
Məni, zəvvarəm, edin indi həlal

*

Din belə millətə təfsir olunur
Yuxu tək ziddinə tə'bir olunur

*

E'tiraz etdi mubariz uləma
Oldu amadə qiyamə zuəfa
Amma qalxış yoxudu camiədə
Xəfəqan çox çoxudu camiədə
Sankı vəhşət daşı kəsmişdi yolu
Həm yolun batlağıdı sağla solu
Daşı sındırmağa daşçı yoxudu
Hərəkət etməyə başçı yoxudu
Daşı sındırmaq üçün daşçı gərək
İnqilab eyləməyə başçı gərək
Məşəli, nehzətə yandırdı qadın
Xəfəqan səddini sındırdı qadın
Xəlqə zeynəbpaşa başçıl seçilib
Yolu məsdud eləyən daş biçilib
Sözü nafiz daşa zeynəbpaşadır
Qəhrəman həm paşa, zeynəbpaşadır.

## Bahalıq və zeynəbpaşa

Bəşər aləmdə görüb çox bahalıq
Yusif əsrindəki tək, yox bahalıq
Kənanın əhli fəlakətdə qalıb
Yalvarıb misridən azuqə alıb
Deməki misridə mehnət yoxudu
Ordada fəqr o fəlakət çoxudu
Quruluq gətdi elə misrə axış
Yeddi il yağmadi bir damcı yağış
Amma yusif elə bir tərh töküb
İqtisad m'ənasın elmiylə söküb
Millətin fikrinə vəqtində qalıb
Bol o sol, pul verib azuqə alib
Sünbül üstündə alıb buğdaları
Ta xərab olmaya xalqın zumarı
Buğda anbarlarına buğda yiğib
Cümlə heyvanlar üçün yonca yığıb

Yusifin dərkini göstərdi zaman
Qıtlığın şum əsəri oldu əyan
Olmadı amma acından qırılan
Can libasi fuqəradən cırılan
Hakimiyyətdə əgər olsa şuur
-Edə bilməz bahalıq şərri zuhur
Bəli yusif yaradıb misrə səbat
Verdi tədbirilə məxluqə nəcat
Xoş olar, hakim ədalətli ola
Həm mudirlikdə ləyaqətli ola
Ondadır camiə görməz bahalıq
Edə bilməz qərə gün xəlqi yazıq
*
Əski tarixi sovan misrə baxın
Sora ibrətlə bizim əsrə baxın
Ac ölən olmasada kənanda,
-Qırılıb xəlq azərbaycanda
Təbrizə qorxu salanda bahalıq
Xəlqin aramın alanda bahalıq
Ac qalıb gündə cəmaət qırılıb
Çox igid etmədi taqət, qırılıb
Nə daha yusifi kənan tapılıb
Nə acın dərdinə dərman tapılıb
O zaman kı ələ gəlmirdi çörək
Yoxudu kimsə edə xəlqə kömək
Təkcə zeynəbpaşa qaldırdı qiyam
Çalışıb qıldı kömək xəlqə mudam

Yoxudu dəbdəbəsi yusifə tay
Gündə azuqə verə hər evə pay
Amma tədbirilə yusif sayağı
Oldu böhran çağı, xəlqin dayağı
Bollu-sollu qurudub yayda ərik
Qışda aclar ğəminə oldu şərik
Çün ac insanı ərik tez doyurar,
-Odu zeynəbpaşa seçmişdi zumar
Qoymadı çox elə sədmə vurula
Hamı yoxsullar acından qırıla
*
Yusif əsrindəki böhranə səbəb,
-Qar-yağışsızlıq olub, sanma əcəb
Amma zeynəbpaşanın əsrində,
-El yolunda coşanın əsrində
Möhtəker anbara yığmışdı fəqət
Buğdanı millətə etmişdi qəhət
Odu zeynəbpaşa gəldi ğəzəbz
Qəhrilə hakimə çaldi ğələbə
Xəlqə xatir əlinə aldı zopa
Dizinə bağladı möhkəm patava
Dedi: hakimdə əgər olsa şərəf,
-Olmaz ichaf oxuna kütlə hədəf
Valı,fəqri aparanmaz aradan
Özüdür çünkü fəlakət yaradan
Möhtəkerlər sıxılıb kölgəsinə
Özlərin əngəl edib özgəsinə

Dinməyir, leyk görür xəlq gözü
Möhtəkerlik eləyir hakim özü
Möhtəşəm xəlqə yaraşmaz otura,
-Üstünə, qanlı quduzlar qudura
Sala, lazimdi başın qalmaqala,
-Qəhrəman el gərək öz həqqin ala.

## Gecə və aclıq

Gecənin aclarıla ülfəti var
Aclığın xəlqə gecə zəhməti var
Acın əhvalına şahiddi gecə
Kimsə bilməz o dözür dərdə necə
Yuxu gəlməz gözünə ac bəşərin
Çıxar ahı göyə möhtac bəşərin
Yata bilməz, yerə düşgün yıxılar
Gecənin məngənəsində sıxılar
Qarnı toxlar yatar asudə gecə
Bilməz əsla gecə qurtuldu necə
Qarnı aclar vəli ulduz sayaraq,
Yanar ulduz kimi qaldıqca oyaq
Təb içində gecə gözlər səhəri
Toxun acdan vəli olmaz xəbəri
Nə bilər tox gecə aclar nə çəkir?
Nə əzabın tuxumun qəlbə əkir?

Çörək istər bala, var-yox bilməz
Atanın dərd o ğəmi əskilməz
*
Gecənin bir özünün qorxusu var
Zil qaranlıqda edər gözləri tar
Cür bə cür fırtana qalxar gecədən
Hərə bir nəhvilə qorxar gecədən
Zülmət axcaq, yerə vəhşət səpilər
Hərə bir məhfəzə tapcaq təpilər
Quş sığıncaq eləyər öz yuvasın
Qanad altında yatırdar balasın
Tək ac insan, gecə-gündüz tanımaz
Tar görüb həndəvərin düz tanımaz
*
Saralar göydəki ulduz gecələr
Ac qalıb sankı yetim qız gecələr
Bəşərin taqəti yox qussələrə
-Ta işarət eləyəm qissələrə
Təkcə bir səhnəni təsvir edirəm
Doğru bir qissəni təsxir edirəm
Yaradıb ondakı düşmən bahalıq
Təbrizə hakim olarkən bahalıq
Bağlamazdı qapısın el o zaman
Göz önündə hamının vəzii əyan
Varımış bir kişinin bir otağı
Bir həyat yoldaşı, doqquz uşağı

Olmamış sübh, gedərmiş bazara
Çörəgin gündə alarmış nahara
Naharı hazir edən vəqtə olar
Bir yetim qız, adı dillərdə"xumar"
Gündə vəqtində gəlib, zar o həzin,
Qabağında oturub pəncərənin,
Evdə, ev əhli yeyən vəqtə ğəza
Oda həsrətlə baxarmış olara
Süfrənin üstə görəndə çörəgi
Şəmıilər tək əriyərmiş ürəgi
paylarından kəsib ev əhli ğəza
Bir tikə gündə verərmiş o qıza
Dedi qıtmır kişi bir gün qadına
İndi salmır kimi-kimsə yadına
Gecədən novbə səfində qalıram
Çox məşəqqətlə çörək mən alıram
Özgənin dərdinə mən qılsam əlac,
-Qalar öz qızlarım, oğlanlarım ac
Bu yetim qız ki gəlir gündə belə
Qapını bağla, daha qoyma gələ
Etməyin bu çörəgi müftə həram
Yoxsa daşsam, sizidə ac qoyaram
Dil töküblər,kişini yağladilar
Qapını biləxərə bağladılar
O yetim qız qapını bağlı görüb
Ölümün ğəm hörügün başda hörüb

Evin əhli eşigə çıxmadılar
Ona xatir heç ürək sıxmadılar
Naharı, özləri evdə yedilər
Özgə hər nə olur olsun dedilər
Qapını açdilar axşam zamanı
Gördülər ğəm bürümüş ol məkanı
Fəqr tiyği canıla cismi bölüb
O yetim qız qapı ağzında ölüb
Bəski aclıq çəkib olmuşdu zəif
Olmadı cismı, daha fəqrə hərif
*
İlk bu hadisə yandırdı çirağ
Çəkdi zeynəbpaşanın qəlbinə dağ
Coşdurub, duyğusuna verdi təkan
Bürüdü cümlə vucudun həyəcan
Qəlbinə, taqqa verən ğussə düşüb
Nehzətin fikrinə əlqissə düşüb
Qadına söhbət olan vəqtə həram
Etdi zeynəbpaşa təbrizdə qiyam
Pəyamın aldı qadınlar oyanıb
Mötəkerlər qabağında dayanıb
"Mirza fərrox" qiyamın nəzmə çəkib
Şe'r gülzarına, solmaz gül əkib
Baxıb esyançılara təbii coşub
Şer qadınlar halına nəğmə qoşub

Düz qəzayanı fəsahətlə yazıb
Öz hərasinda sərahətlə yazıb
Leyk vəqtində görüb çün o işi
Qəhrəmandır o şərafətli kişi
Qəhrəman şahkarı zeynəbpaşadır
Doyuran acları zeynəbpaşadır.

## Zeynəbpaşanın başçıları

Gecə ay göydə münəvvər görünür
Günəşə qarşı muzəffər görünür
Saysız ulduz ona olmuş qərəvaş
Ay özün sanmayır amma yekəbaş
Aşağa başda tutub yer özünə
Görünə yaxşı cəmaət gözünə
Seçib elçi özünə yeddi qadın
Xəlq onun yeddi bacı qoymuş adın
Yeddi ulduz sayılır göz əyarı
-Göyün ulduzlarının başçıları
Yerdə elham eləbil göydən alıb
Göyün əksin deyəsən yerdə salıb
Yeddi xatun yerə olmuş yaraşıq
Parlaq ulduz kimi üzlərdə ışıq
Ayın öz məzhəri zeynəbpaşadır
Qiyamın öndəri zeynəbpaşadır

Yeddi xatunda onun başçıları
Cümlə türk ellərinin iftixarı
Görüb o yeddi qadın, yeddi işi,
-Nehzətin ta qabağa getdi işi
Təbii coşmuş, alaraq sujə dadın
Nəzmə çəkmiş oların şair adın
Yaxşı "sultan bəgim" eylərdi çıxış
El döyüşlərdə edən vəqtə axış
Bazarın nəbzi əlindeydi onun
Coşduran kəlmə dilindeydi onun
*
"Mahşərəf"yurduna artırdı şərəf
Çəkdi cəmiyyəti bazarə tərəf
Gizlin anbar varıdı hər nə qədər
Yerlərin tək o bilərdi sərəsər
*
El yolunda can atan "canı bəgim"
İstiqamətdə matan canı bəgim
Hamıdan yaxşı döyüş fənni bilən
Dəm bə dəm odlu qılıc tək itilən
*
Nehzətə əsləhəçi "fatma nisa"
Yaraq olmuş dayağı misli əsa
Hər təhərrükdə işin tapdı çəmin
Nehzətin tə'min edib əsləhəsin
Ulu "xeyrənnesa"dır xeyrə dəlil
Yetim olmuşlara olduqda kəfil

Piyada kuçələrə gündə düşən
Yaralanmışlara bir-bir yetişən
"Mah bəgim" heykəli görkəmdə qaya
Baş ucatmışdı şərafətdə aya
pişirərdi özü təndirdə çörək
Dustaq olmuşlara eylərdi kömək
Doyurardi oların ayiləsin
Çalışardı ğəmi cobran eləsin
"Şah bəgim" atlı, həmasə yaradan
Əli altında igidlər baradan
Tərk qılmazdı həcər tək qəmərin
At belində doğub öz südəmərin
Əzəmətdə dağı-dağ üstə qoyan
Adın öz dəstəsi, sərdəstə qoyan
İşlərindən biri örnək olaraq
-Söylürəm, el sözümə versə qulaq
Şəhnələr vergi cəmaətdən alıb
Sankı düşmən ğələbə xəlqə çalıb
Doldu sandıqlara saysızca vocuh
Oldu mə'mur olara zorpa quruh
Aparan vəqtə şəhərdən-şəhərə
Kərvanın aldı məsirin nəzərə
Şahbəgim öz nəfəratilə gedib
Şəhnələr dəstəsinə həmlə edib
Himməti yardım edib həq tələbə
Çaldı fərraşlara çöldə ğələbə

Yetirib şəhnələri keyfərinə
Qaytarıb mallari sahiblərinə
Qoymadı el malı həqsiz alına
Xəlqi malik elədi öz malına
Belə coşmuş “əmirə qız”lı qadın
Aparır el hamı hörmətlə adın*
Yeddi xatun kı olub adları zəbt
Nehzətə başçı olanlardı fəqət
Var hələ çoxları gizlində qalıb
Adları üstə itim kölgə salıb
“Yüzbaşı xavər”imiş fikri dərin
Başçılar vəchə qoyarmış nəzərin
Ulu zeynəbpaşanın sırdaşıdır
Adı söylürki özü yüzbaşıdır
Lap cəvan başçı “nayıb kolsum”dur
Əksi altında adı mərqumdur
Amma yüz şahbəgim olsaydı, yenə,
İkiyüz mahbəgim olsaydi, yenə,
-Tük salardı hamı zeynəbpaşadan
Hökm alardı hamı zeynəbpaşadan
Qəhrəmanlıq ona artıq yaraşır
Başçılar-başçısı zeynəbpaşadır.

## Toplantı

Gecə zeynəbpaşa toplantı qurub
Başına yeddi qadın həlqə vurub
Sankı can verdi həkim, xəstəsinə
Dedi bu sözləri öz dəstəsinə
Ay şərafətli mubariz bacılar
Səhnədə himməti bariz bacılar
Tanrı arvad-kişini bir yaradıb
Cümlə ərkək dişini bir yaradıb
Qadına çünkü cəhad oldu həram
Evdə qulluqçu olub qaldı mudam
Cə'l edib hər yetən əfkarı xəbis
Arvadı əzməgə bir başqa hədis
Dedilər: mənzilə ziynətdi qadın
Yə'ni kala kimi ne'mətdi qadın
Bəs gərək dürtülə dayim deşigə
Oturub, çıxmaya evdən eşigə

Kişi tosif olunub xeyli şərif
Arvada ad qoyulub cinsi zəif
Etdi bu ad bizi aləmdə həqir
Rəsmən arvad, kişiyə oldu əsir
Zülm edib ümdə xurafat qadına
İndi lazimdi musavat qadına
Köhnə zəncirləri biz qırmalıyıq
Təzvirin pərdələrin cırmalıyıq
Ğeybdən yox bizə imdad eləyən
Bəndidən qurtarıb azad eləyən
Ac qalıb,istir uşaq evdə çörək
Edə bilməz bizə göz yaşi kömək
Okı nafizdi sözü camiədə
Möhtəker olmuş özü camiədə
Gizlədib anbarını hiylə qurub
Neçə min xalvar ora buğda vurub
Söyləyir: həq sizə cənnət verəcək
Aclara həşridə ne'mət verəcək
Uşağız ölsə acından ya özüz,
Olmasın hakimə bir kəlmə sözüz
Xoşlayın fəqri bu dünyadə ğərəz,
-Verəcək tanrı o dünyadə əvəz
Amma biz həqqimizi almalıyıq
Zalimə, indi zəfər çalmalıyıq
İnqilabə gərək amadə olaq
Nəki boş əlli, silahilə dolaq

Hər zaman olmasa mərdümdə silah
E’tirazə çağırış bilmə səlah
Yalxı sözlə hamı şirkət eləməz
Əli boş çıxmağa cürət eləməz
Əsləhə, şayiədə olsa əgər,
Yenə böhranda verər xəlqə cigər
Öz əlimizlə bu dünyanı gərək
Ədl o qanunilə cənnət eləyək
Fəqri bir ləhzədə biz xoşlamarıq
Almamış həqqimizi boşlamarıq
*
Başçılar öndərə alqış dedilər
Sən, sitəmkarilə çaqqış dedilər
Vermişik biz sənə, beyət əlini
Sıxmışıq isti məhəbbət əlini
Ta varıq, beyətimiz sınmayacaq
Qəlbimiz ərsədə çırpınmayacaq
*
Belə, toplantı çatıb niyyətinə
Başlanış oldu qadın nehzətinə
Yaşasın baş uca təbriz yaşasın
Bəsləmiş siynədə zeynəbpaşasın
O təlaş etdi, yatanlar oyanıb
Qəhrəmanlar sözü üstə dayanıb.

## Nehzət gecəsi

Təbrizin görməli zülmət gecəsi
İnqilab axşamı, nehzət gecəsi
Çəkilib eynalıdan qarə duman
Verilib qarə nəfəs xəlqə aman
Səslənir nəğməsi şiyrin acı çay
Dalğası şurlu mubarizlərə tay
Bu gecə var fələkin şadlığı çox
Şaxan ulduzların azadlığı çox
Zöhrə azadlıq üçün nəğmə çalır
İlhamın sankı yer əhlindən alır
Hər gecə göydə çıxan vəqtə qəmər
Yerin əhli,göyə eylərdi nəzər
Bu gecə sankı sular tərsə axır
Göyün əhli, yerə həsrətlə baxır
Yerdə bir dəstə mubariz görünür
Çehrələr sətvəti bariz görünür

Həq yolun yerdə həman dəstə gedir
Özlərin nehzətə amadə edir
Gecə gizlin yayılıb şəbnamə
Ki səhər şəhridə var həngamə
Başçılar öz canın almış dişinə
Hərə məşğul olaraq öz işinə
Paylayır əsləhəçi mıxlı ağac
Nehzətə ilk, ağac verdi rəvac
Nə ağac! Da'vada sınmaz daşıdı
Kəlləsi toppuz, əmuddan başıdı
Yonulub fənnilə cəngəl ağacı
Üçmin amadə olub əl ağacı
Döyüşə hazir olur xəlq deməк
Birdi əndazədə üçmin dəyənək
*
Bir şəkilli patava üçmin cüt
Rəngi lalə sayağı qırmızı tüt
Verilir hər kəsə bir cüt patava
Bağlasın, xəsmə çalan vəqtə zopa
*
Verilir hər nəfərə bir çərqət
Göstərir çərqət ağır keyfiyyət
Var nişani ki döyüş çərqətidir
Tərrahı çünkü, qadın nehzətidir
Qoymayıb gərçe yoniform adın
Göstərib noxbəligin leyk qadın
Bazara ondakı nesvan dolacaq,
-Hamının çərqəti bir rəng olacaq

*
Başçılar son qoyub öz işlərinə
Yox dəqiq olmada söz işlərinə
Geydilər fəxrilə xələtlərini
Etdilər evdə vəsiyyətlərini
Qayıdıb, öndəri dərk eylədilər
İşlərin qurtuluşun söylədilər
Səhərin verlişinə saldı baxış
Etdi zeynəbpaşa bir qıssa çıxış
Bu gecə, sübhə baxıb şad olacaq
Çün qadın bəndidən azad olacaq
Qərnilərdir ki sıxılmış deşigə
Çıxacaqlar səhər evdən eşigə
Dəyənəklər bu gecə yağlanacaq
Dizə möhkəm patava bağlanacaq
Döyüşə pəncə qadınlar açacaq
Şəhnələr qorxularından qaçacaq
Bu gecə valı hərasən olacaq
Çün sabah şəhridə esyan olacaq
Möhtəker qəlbinə vəhşət dolacaq
El, səhər anbara sahib olacaq
Etdi zeynəbpaşa nıtqın kı tamam,
-Verə bəhrə, səhərə qaldı qiyam
Yenə el başçıları yatmadılar
Yasdığa baş əbəda atmadılar
Qəhrəmanlar o gecə qaldı oyaq
Nehzətin qafiləsi tutdu ayaq.

## Bazar və zeynəbpaşa

Gecə zeynəbpaşa yaydı pəyamın
Səhər etdi ələm ilkin qiyamın
Gün doğandan, ofoqə çıxdı günəş
Nur saçıb, zülmət evin yıxdı günəş
Təbrizin doğru səadət günüdür
Qadının sankı qiyamət günüdür
Uçulub zülm evi, zindan yıxılıb
Qorxu təlqinçisi, şeytan yıxılıb
Bağlı zəncir qırılıb. Sındı qəfəs
Xəfələnmiş qadına gəldi nəfəs
Ulu türkün eli qalxıb ayağa
Qoca təbriz yenə düşmüş qabağa
Salınıb körpə uşaqlar beşigə
Çıxdı himmətli qadınlar eşigə
Nehzətin əmri yetib təkvinə
Toplaşıblar "əmuzeynəddin"ə

Başçılar tez hamıdan hazir olub
Hərə öz dəstəsinə nazir olub
Aldı öz boynuna hər kimsə işin
Saldılar nəzmə qiyamın gedişin
Hamı öndərdən itaət eləyir
Öndər əfradı hidayət eləyir
Öndər, el xadimi zeynəbpaşadır
Başçılar nazimi zeynəbpaşadır
Göstərib bəski rəşadət o qadın
Xəlq zeynəbpaşa qoymuşdu adın
Çün qadın nehzətinə rəhbər olub
Adı dillərdə qalıb əzbər olub
Şer qadınlar yiğışıblar başına
Qatdılar möhtəkerin zəhr aşına
Get bə get yardımı artıb savaşın
Çoxalıb ləşkəri zeynəbpaşanın
Öncə olmuşdu neçə yol hərəkət
Heç birində yoxumuş bu əzəmət
Hərəkətlər böyüyüb oldu qiyam
Verdi arvadlar üçün beylə pəyam
Ac qoyub xəlqi, bilin ay bacılar
Buğdanı anbara vurmuş hacılar
Hakimiz qəsridə etmiş oturaq
Eyş o nuşə gecə məşğul olaraq
Baxmayır gündüz acın göz yaşına
Buraxıb məmləkəti öz başına

Siz gərək indi sukut etməyəsiz
Daha zülm altına heç getməyəsiz
Gəlib özgə, sizə iş görməyəcək
Həqqizi söltəçilər verməyəcək
Döyüşüb, zülmə zəfər çalmalısız
Həqqizi ancaq özüz almalısız
İstəsəz körpələriz qalmaya ac
Çıxın evdən eşigə əldə ağac
Bazarı bağlayaq əvvəldə gərək
Yağlayın, sınmasın ancaq dəyənək
Millətə var xətəri ehtikarın
Sındırın istəmin anbarçıların
Fərmanın xəlqə yetirdi bu sayaq
Xəlq, zeynəbpaşaya durdu dayaq
Üz qoyub el qızı bazarə tərəf
Buğda anbarların almaqdı hədəf
Ardıca düşdü yola xeyli qadın
Qorudu kütlələr öz ittihadın
Qoydu zeynəbpaşa bazarə qədəm
Sağ əlində dəyənək, solda ələm
Çün qadınlar bazarı basdı daşa
Qəsridə çatdı xəbər yekkə başa
Bir ölüm hökmü yazıb valı özü
Qızdı fərraş başının qanlı gözü
Qoşunun yolladı bir baş bazara
Tökülüb bir sürü fərraş bazara

Çal ha çal şiddətilə düşdü işə
Başladı hər iki ləşkər döyüşə
Eləbil yer açılıb oldu məzar
Qovzanıb zəlzələ, tərpəndi bazar
Ölumun qondu tozu çehrələrə
Möhtəkerlər təpilib hücrələrə
Fərraşın te'dadı çox, əldə tüfəng
Yağdırır qırmaq üçün xalqı fişəng
Çox rəşadətlə qadınlar atışır
Get bə get vəz'ı dönüb lap qatışır
Dam-duvardan ələnir toz-torpaq
Uçulur hərnə ki var taxta-tabaq
Daş yağır, şiyşə sınır, tay dağılır
Tökülür qənd o şəkər, çay dağılır
Göyə qalxır dəyənək, baş cırılır
Yıxılır torpağa fərraş qırılır
Diş sınır, üz yarılır, göz sökülür
Yaralardan yerə alqan tökülür
Vahimə söhbəti getmiş aradan
Qadının xiffəti getmiş aradan
Ayağından açılıb kündə düşüb
Xəlqin ağzında dili bəndə düşüb
Nə dinir tox, nədə aclar danışır
Dil açıb göydə ağaclar danışır
Göydə kəhlik kimi qaqqıldır ağac
Toqquşur bir-birə şaqqıldır ağac

Qadının qudrəti, el qudrətidir
Bu elin qudrəti, sel qudrətidir
Bürümüş xəlqi tükənməz həyəcan
Dalbadal çırpır ürəklər zərəban
Bir qadın taciri çəngində boğur
Bir qadın möhtəkerin burnun oğur
Bir qadın fərraşı qanə bələyir
Yaxasından yapışıb, silkələyir
Amma zeynəbpaşa göstərdi hünər
Uca fərraş başına saldı nəzər
Endirib kəlləsinə bir dəyənək
Sankı qapsandı yerə zırpı köpək
Köhnə sünnətləri sındırdı belə
Kimdə cürət var ona qarşı gələ?
Elə sürətilə tovlur dəyənək
Deyəsən göydə bitir çərx fələk
Hər kimə bir balaca zərbə vurur
Sındırıb fərqini beynin sovurur
Üz bə üz düşmənə dağ tək dayanıb
Eləbil ərsədə babək dayanıb
Okı etmişdi qəhət xəlqə çörək
Yedi zeynəbpaşadan bir dəyənək
El gücün valı ğərəz dərk elədi
Cümlə fərraş bazarı tərk elədi
Qırılanlar-qırılıb, qaçdı-qaçan
Qalmadı siynələrə güllə saçan

Çün zəfər çaldı, verib dəm bazara
Vurdu zeynəbpaşa pərçəm bazara
Taciri, möhtəkeri qovdu çölə
Buğda anbarlarını saldı ələ
Qapların el üzünə açdı özü
Qəlbinin, su səpilib söndü közü
Acları cümlə ora hayladılar
Böldülər buğdaları payladılar
Gecə aclar ki doyunca yedilər
O qadın rəhbərə alqış dedilər
İlk nehzət bu sayaq çatdı sona
Qoşdu ellər belə bir mahnı ona
Elin istəklisi zeynəbpaşadır
Doğru məsləklisi zeynəbpaşadır
Qoymadı mıxlana dayim deşigə
Çəkdi arvadları evdən eşigə
Açıb anbarları azad elədi
Aclara buğda verib şad elədi
Yandıran can elə zeynəbpaşadır
Özü canan elə zeynəbpaşadır
Eldən ilham alaraq təbii coşub
Xeyli şairlər ona nəğmə qoşub
Hər qılıncın vəli var bir kəsəri
Qəhrəman şairin ölməz əsəri.

## Tanbakı nehzəti və zeynəbpaşa

Tanbakı nehzəti, adlım hərəkət
Tapdı zeynəbpaşadan min bərəkət
Hər kim istir tapa, düzgün sözə əl
Maşasız vurmasın ancaq közə əl
Tanbakı nehzəti zeynəbpaşasız
Od götürməkdi ocaqdan maşasız
Yandırar barmağı, gəlməz ələ köz
Ola bilməz xətasız yə'ni o söz
Çün həman nehzət olub öncə səbəb,
Paşalıq ünvanın almış o ləqəb
Yayılıb şöhrəti zeynəbpaşanın
Çoxalıb hörməti zeynəbpaşanın
Tanbakı nehzətinə eylə nəzər,
-Görki zeynəbpaşa etmiş nə hünər
Dəstanın şe'rə qoşubdur-qoşanı
Oxu, yaxşi tanı zeynəbpaşanı

İki dövlət ara bir yol qoyulub
O qərardadilə millət soyulub
Adı səsləndi"qərardade reji"
Reji şirkət adıdır,soltə deji
Lirə qiymət alınıb neççə kisə
Duxaniyyat verilib ingilisə
Əli, alverçilərin çıxdı boşa
Yaşayış oldu fəlakətlə qoşa
Xeyli əfradə olub təng məaş
E'tiraz eylədi millət başa-baş
Bazar əhli, bazarı bağladılar
Nehzətin təndirini dağladılar
Qoşulub xəlqə mubariz uləma
Vəhşətə düşdü əmirlər, vuzəra
Şəhnələr milləti təhdid elədi
Bazarı açmağa tə'kid elədi
Dedilər: açmasa hər kim tukanın,
-Hökmüdar yandıracaq dudmanın
Mö'təriz alqana ğəltan olacaq
Tukanı həm evi viyran olacaq
Əsnafın qorxu , gözün kur elədi
Bazari açmağa məcbur elədi
Ğərəz, icbarilə bazar açılıb
Hocrə vo timçə vo anbar açılıb
Öncə təhdiydilə nəng oldu peşə
Sora rəğbətlə hamı düşdü işə
Tanbakı nehzəti iyranda yatıb

Çarə fikrin uləma başdan atıb
Nə yada tanbakı düşdü nə tütün
E'tirazlar aradan getdi bütün
Bəski tüccaridə ğifət çoxumuş
E'tirazlar eləbil heç yoxumuş
*
Reji iyranda çatıb mənzilətə
Seytərə tapdı bütün məmləkətə
Göndərib elçilərin hər şəhərə
Döndərib xəlq həyatın zəhərə
El, şəhərlərdə qısıb öz nəfəsin
Hamı təslim olaraq, kəsdi səsin
Amma təbrizlilər esyan elədi
Ğəzəb oqyanus tufan elədi
Eynalı rənginə millət boyanıb
Əcnəbiylər qabağında dayanıb
İstiqamət geyimin soymadılar
Təbrizə, soltəçini qoymadılar
Bazar əhli, tukana vurdu qıfıl
Düşdü gözdən şərəf uğrunda qızıl
İrmi min oldu musəlləh kişilər
Doldular məscidə əsləh kişilər
Zəmanın muctəhedi"mirza cavad"
Gərək olsun adı hörmətilə yad
Xəlqidən yaxşı himayət elədi
Nehzəti xeyrə hidayət elədi

Gərçe təbriz yetirib yaxşı sözün
Yenədə görmədi imendə özün
Məkrə aldandı,düşüb həqdən uzaq,
Və'də vo təhdidə məğlub olaraq
Açdılar ğeyrəti azlar bazarı
Qızdırıblar kefi sazlar bazarı
Öz başın qatdı hərə öz işinə
Yumuşaq bəllə gəzib öz dişinə
Yer-yerin oldu məsəldir su-suyun
Çıxdı yaddan eləbil şə'n o şoun
Köhnəlib sankı həna rəngi qaçıb
Hərə öz hücrəsin asudə açıb
Yox kül altındakı közdən xəbəri
Ki əsib yel, ucalır şövlələri
Qopdu birdən-birə dəhşətli qiyam
Adlanan tanbakı, vəhşətli qiyam
Bazarin qubbası sankı sökülüb
Eləbil göydən əbabil tökülüb
Çün yerə zəlzələ tək verdi təkan
Havanı toz bürüdü misli duman
Qapsadı səhnəni bir dəstə qadın
Ki gəlib ğeyzə məram üstə qadın
Hamısı əldə ağac dildə şuar
Beldə bağlı çadıra, üzdə viqar
Edib ünvan bu sözü çəkdilə car
Yadlara baş əyənə ar ola ar

Saldı bu sujə qiyamət bazara
Tökülüb xeyli cəmaət bazara
Başladı söhbətə heybətli qadın
Nehzətin başçılı, hörmətli qadın
Danışan millətə zeynəbpaşadır
Əl vuran nehzətə zeynəbpaşadır
Dedi: ay ğafil olanlar oyanın
Əcnəbilər qabağında dayanın
Hakimiyyət ki hokumət eləyir
Xəlqə hər ləhzə xəyanət eləyir
Əl tapıb yırtıcı sankı qoyuna
Əl vurur vahiməsiz hər oyuna
Baxmayıb pul alaraq yaxşı -pisə
Bəzl edib tanbakını ingilisə
Öz diyarında qoyub xəlqi bekar
Özgəni boynumuza etdi səvar
İngilis oldu müsəllət bazara
Ar ola ingilisə həm tezara
Bir-birindən ikisi zatı xəbis
Deyil oynaşmaları tazə hədis
Duxaniyyatı bu gün saldı ələ
Var sora ingilisin tərhi hələ
Təbrizi, istir edə tehrana tay
Bəlkə müstə’mərə, hindustana tay
İşi versəz belə ğəddar əlinə
Namusuzda düşər əğyar əlinə

Sözüzü cürətiz olmur deyəsiz
Bəs gərək nəng libasın geyəsiz
Siz ölümdən belə qorxursuz əgər,
Kim nəvamiysə edər siynə sipər?
Susdu çün əcnəbi qarşında kişi,
-Boynuna aldı qadınlar bu işi
Həqqizi almağa yox sizdə damar
Biz qadınlarda xoruz ğeyrəti var
Qalxışa olmasa gər sizdə ürək,
Olmusuz yadlara qulluqçu demək
Az bu şanlı elizi xar eləyin
Bağlayın tez bazarı ar eləyin
*
Bunu amma bilin ay heyvərələr
Daraşan el canına ac birələr
Bazarı bağlamasaz, iş dönəcək
Bu çomaqlar sizə doğru çönəcək
Gərək əsnaf tukanı bağlı qala
Taki el həqqin əcanibdən ala
Bazarı öz başına gər açasız
Söz verib yaki sözüzdən qaçasız
Sözümün üstə bilirsiz duranam
Xayinin boynunu möhkəm buranam
*
Ləçək atmaq qadının son sözüdür
Külün altında közərmiş közüdür

Qadın atsa yerə nehzətdə ləçək
Kişidən baş verər e'cazlı əmək
Coşdura ta kişilər ğeyrətini,
-Atdı zeynəbpaşa öz çərqətini
Yə'ni ğeyrət eləyin ay kişilər
Cəhd o himmət eləyin ay kişilər
Xəlq ehsasə gəlib, ağladılar
Bazarı, ciddiləşib, bağladılar
E'tisab eylədi düzgün kəsəbə
Səs verib təbrizə kənd o qəsəbə
Sözlərindən bu dönə qaçmadılar
Dayanıblar, bazarı açmadılar
Əlbir olmaqla qadınlar, kişilər
Yayılıb hər tərəfə çatdı xəbər
Bu xətər zəngi amansız çalınıb
Müctəhed fitvasına yer salınıb
Telqiraf eylədilər müctəhedə
Mətləbi söylədilər müctəhedə
Birligin oldu əyan e'cazı
Verdi fitva o zaman "şiyrazı"
Tanbakı hökmünü tə'mim elədi
Məsrəfin millətə təhrim elədi
Müctəhed əmrinə el oldu motiı
Nehzətin dayirəsi oldu vəsiı
Çün məzərratını dərk etdi hamı
E'tiyadın özü tərk etdi hamı

Çıxdı el baş uca o mərhələdən
Düşmədi qarğaşada hövsələdən
Mə'rifət şəmıini yandırdı hamı
Çubuğu, qəlyanı sındırdı hamı
Öz gücün xəlq ki zahir elədi
Ğələbə çalmağa qadir elədi
Lacərəm şirkətə üz verdi hərəc
Olmadı müştərisi, oldu fələc
Aqibət ingilisin sındı deji
Yə'ni ləğv oldu qərardad reji
Belə əl tapdı qadınlar zəfərə
Tanbakı nehzəti çatdı səmərə
Bəli zeynəbpaşa ğoğa elədi
Tanbakı nehzətin ehya elədi
Təbriz etdi savunuş tanbakıdan
Alqış avazı ucaldı bakıdan
Gəncədən, ənzəlidən, astaradan
Qarabağdan, şuşadan, ankaradan
Dedilər: qəlbi sədaqətlə dolan
İstiqamətdə dəmir misli olan
Od qoyan duyğular üstə maşadır
Tanbakı başçısı zeynəbpaşadır
Bəski üst-üstə həmasə qaladı
Tanbakı qəhrəmanı qaldı daşı

## Qaemməqam və zeynəbpaşa

Tanbakı nehzəti şənlik yaradıb
Şanlı ellər ara birlik yaradıb
Ardıca amma müsibət yetişib
Təbrizin əhlinə mehnət yetişib
Çün “ gərusi” şərəfin verdi nişan
-Qırmadı xəlqı, yerə tökmədi qan
Hakimiyyətdən olub əzl gedib
“Saedolmolk” yerin qəbzə edib
Saedolmolk, zaman mirğəzəbi
Taza, qaem məqam olmuş ləqəbi
Təbrizin hakimi vəhşət yaradan
Möhtəşəm millətə, zillət yaradan
Ərməğan, şəhrə gətirdi bahalıq
Mehnəti ovca yetirdi bahalıq
Çün qəhətlik törədən hakim olub
Camiə fəqr o fəlakətlə dolub

Kimsədə olmadı cürət danışa
Yetirə el sözünü yekkə başa
Yenə zeynəbpaşa qaldırdı ələm
E’tiraz naməsini qıldı rəqəm
Etməmişdən, çörək üstündə qiyam
Neçə yol hakimə göndərdi pəyam
Ki nəzər eylə, cəmaət qalıb ac
Buğda anbarların aç eylə əlac
Qoyma yoxsullar acından qırıla
Az qalır ğailə zəngi vurula
Valı məğrur olaraq öz-özünə,
-E’tina etmədi xəlqin sözünə
Nəqədər xəlq nişan verdi ədəb
-Olmadı r’əfət o islahə səbəb
Etmədi valı reayət ədəbi
Get bə get millətin artıb ğəzəbi
Neçə yol el ğəzəbi gəldi coşa
Saedolmolkun evin basdı daşa
Yenə qaem məqama gəldi ğurur
Həq tələb ellərə ad qoydu şərur
Çıxarı olmadı fikrin dəyişə
Millətin dərdinə düzgün yetişə
Harlaşıb bəlkə, tutub kiynə gözün
-İntiqamə edib amadə özün
Təbrizə gətdi mərağə qoşunun
Qoydu fitnə közünün üstə odun

Yığıb ovbaşları, düzdü damına
Qan besatın döşədi el şamına
Verdi fərman neçə yüz fərraşına
Yağdıra güllə cəmaət başına
Leyk zeynəbpaşa cürət elədi
Yığdı cəmiyyəti söhbət elədi
Dedi: ay nehzətə, izzət bacılar
Göstərən ərsədə ğeyrət bacılar
Tanbakı nehzətin ehya elədiz
İngilis qulduru rusva elədiz
Möhtəker hakim olub indi bizə
Məhkəmə yox yetişə dərdimizə
Qan soranlar, dalısında dayanıb
Fəqr odunda alışıb xəlq yanıb
Oki xayin əlinə verdi silah
Olmasın intizariz xeyr o səlah
Qan içən fikri cinayətdi fəqət
İşi məxluqə xəyanətdi fəqət
Sındırın qorxu tilismin rufəqa
Həqqizi almağa qalxın ayağa
Gər nişan vermiyəsiz qəhr o etab
Sözüzə verməyəcək valı cəvab
Gərək öz həqqizi e'lan edəsiz
Hakimin ziddinə esyan edəsiz
Səhər evdən çıxın əldə dəyənək
Möhtəker hakimi tənbih eləyək

Ağaca, çalsan ağac, bar tökülər
Üstünə yoxsa yağıb qar tökülər
Gecə qurtardı işıq saçdı günəş
Hərəkət etməyə yol açdı günəş
Qoydular şə'n o şərəf taci başa
Oldu amadə qadınlar savaşa
Yenə cəngə dəyənək yağladılar
Patava dizlərinə bağladılar
Atanış qafiləsi düşdü yola
Dedilər: valı gərək təslim ola
Tanbakı ğaeləsi tazələnib
Nehzətin mərhələsi tazələnib
Doldular əldə ağac "dəlləzən"ə
Ğələbə çaldıla, xalqı əzənə
Qovdular şəhnələri qudrətilə
Bağladıblar bazarı şiddətilə
Dolanıb "rasta bazar"dan habelə
Çıxdılar çaykənara sürətilə
Çayın, üz qoydula sağ bölgüsünə
Az qalıblarkı "qarı körpüsü"nə
Gördülər yatmış ədavət oyanıb
Körpü üstündə yüz atlı dayanıb
"Aynalı" əldə fişəngilə dolu
Bağlamış xəlqə o yüz atlı yolu
Şer qadınlar bərədən çönmədilər
Getdilər qarşı, geri dönmədilər

Güllə məxluqə tərəf  atdı qoşun
Öz əlilə aranı qatdı qoşun
Beş qadın qanə günahsız boyanıb
Səbr edib amma qadınlar dayanıb
Dözdülər öncə hələ daşmadilar
Düz yola, yolçu olub, çaşmadılar
Yenə yağdırdı qoşun güllə şədid
Çox adam yarələnib, oldu şəhid
Gəldi birdən ğəzəbə xeyli qadın
Keyfərin, xəsmə dadızdırdı dadın
Ğəddara olsun ölüm söylədilər
Qoşunun üstə hucum eylədilər
Göydə tovlandı ağaclar nə sayaq!
Qudrətin göstərib aclar nə sayaq
Atlar ürküb, hamısı kişnədilər
Toqquşub bir-birə "başlıq"la "kəhər"
Neçə atlı yerə atdan yıxılıb
Yıxılan torpağa quş tək sıxılıb
Ayaq altında olub leh bədəni
Biçilib qırmızı qandan kəfəni
Bə'zi atlı kırıxıb düşdü çaya
Çün kətan parça duçar oldu aya
Çox qadın qırmızı qanə bələnib
Sankı göydən yerə mərcan ələnib
Cəng odunda qoca təbriz alışır
Hamı qurtulmağa oddan çalışır

Qalmadı quşlarada göydə aman
Havanı çulqaladı qarə duman
Çarasız, əlsiz-ayaqsız qocalar,
"Sahiboləmr"ə dolub hərnə ki var
Damlara xəlq təmaşayə çıxıb
Xaliqə bəlkə təmənnayə çıxıb
Bə'zən əbzar, duadır bu elə
Hamısı yalvarır allahə belə
Saxla allah bizə zeynəbpaşanı
Görmə çox təbrizə zeynəbpaşanı
Elə qudrətlə qadınlar döyüşür
Şəhnələr canlarına qorxu düşür
Yolu zeynəbpaşa qanşarda açır
Qabağından hamı vəhşətlə qaçır
Şəhnələr üstə çəkəndə dəyənək
Sankı yerdən qovur aslan kəpənək
Gördü zeynəbpaşanı hansı əmir
Görünüb cin gözünə sankı dəmir
Ya, dəyib tülkünün, aslan gözünə
Axtarıb fori sığıncaq özünə
Qoşun ətrafə zibil tək səpilib
Hərəsi bir baca tapcaq təpilib
Hakimə çatdı bu dəhşətli xəbər
Çaldı zeynəbpaşa ummalə zəfər
Qalmadı bircə difa səndən edən
Qaçdı, zeynəbpaşa adın eşidən

Sözü güllə kimi, daş olsa, dəlir
İndi zeynəbpaşa bu qəsrə gəlir
Buğda anbarların ancaq alacaq
Əmələn fikrinə xəlqin qalacaq
Acları qəsrə tərəf haylayacaq
Buğdanı xəlqə bölüb paylayacaq
Ğailə riştəsini parə elə
Həm bizə həm özünə çarə elə
Hakimin rəngi qaçıb rə'şə tutub
Üzün irabilə fərraşə tutub
Dedi: kim qəsrə yaxın gəlsə vurun
Hətmən esyançıdı qarşında durun
Nəqşələr hakim əlilə çəkilib
Hakim amma özü daldan əkilib
Gördü hər nuqtə hərasilə dolub
Şazdaya getdi pənahəndə olub
Hər kim el xəşminə tuş etsə özün
Öz evindəndə gərək örtə gözün
Hakimin məkrini dərk eylədilər
Şəhnələr səhnəni tərk eylədilər
Qəsrə günorta çağı el yetişib
Dənizə sankı coşan sel yetişib
Gördülər şəhnəsi yox valı qaçıb
Öz əlilə qapısın xəlq açıb
Qoydu zeynəbpaşa qəsrə qədəmin
Saçdi dam üstə ədalət ələmin

Yenə ommid ışığın qəlbə saçıb
Buğda anbarlarının ağzın açıb
Nazir oldu özü tay-tay bölüşə
Başçılar yardım edib pay bölüşə
Ehtikar ökmələrin qoydula boş
Aclara buğda verib, etdilə xoş
İftixar eylədi xəlq ol qadına
Qoşdular mahnı belənçi adına
Etdi zeynəbpaşa üstün qiyamı
Sındırıb ərsədə qaem məqamı
Çün çıxardıb cızığından ayağın
-Burdu zeynəbpaşa hakim qulağın
Saedolmolk cəfa etdi elə
Odur el xəşmi cəza verdi belə
Qorxusundan buraxıb qəsri qaçıb
Özünə nəng səfində yer açıb
Arif öz həqqinə zeynəbpaşadır
Qəhrəman, xəlqinə zeynəbpaşadır.

## Şəhidlər qanlığı

Saedolmolk cəzayə yetişib
Ac yatan xəlq nəvayə yetişib
Xəlqə bu hadisənin nuktəsi var
Nuktə dərk etməyənin səktəsi var
Bizə bu mədrəsədə diktə budur
Təcribə xəlqə qalan nuktə budur
Həqqini almağa çün talib olub
-Top-tüfəngə, dəyənək ğalib olub
El gərək dərs ala zeynəbpaşadan
Onu esyanlı zəfərdir yaşadan
O şərəf dərsini məxluqə verib
Lütə paltar, aca azuqə verib
Gərçe aclar yedilər oldula xoş,
-Görünüb amma şəhidlər yeri boş
Şuhəda ayiləsi yasə batıb
Zəfərin şənligin ənduhə qatıb
Xəlq məsciddə əza bəzmi qurub

Matəm əhli qapı ağzında durub
Birinin qəlbini ğəm tiği bölüb
Mehriban qardaşı nehzətdə ölüb
Birinin qanə bələşmiş bacısı
Yandırır bağrını hicran acısı
Hamının göz yaşı qanə boyanıb
Ucalıb naləsi ərşə dayanıb
Çəkdi zeynəbpaşa baş yaslılara
Qoşulub, oldu hamaş yaslılara
Verdi baş sağlığı, aram elədi
Sözləri, təsliyət ilham elədi
Öz vucudində vəli ğəm çoxalıb
Matəmin üstünə matəm şoxalıb
Gördü çün gül kimi solmuş balalar
Tar buludlar kimi dolmuş balalar
Şuhədayə özünü bildi vəkil
Anasız körpələrə oldu kəfil
Dedi xəlqə: görüm olsun üzüz ağ
Həm ola başlarız illər boyu sağ
Şuhəda nehzətə bəzl etdi həyat
Xəfəqandan, elinə verdi nəcat
Şəhidin axmasa alqanı belə,
Gətirənməz bəşər azadlıq ələ
El yolunda savaşıb, qanə batıb
Öz həyatın, diləgin gözdən atıb
Biz gərək xidməti cobran eləyək
Yaslılar müşkülün asan eləyək

Gedib əldən, atası çox uşağın
Nazın evdə çəkəni yox uşağın
Ana ölmüş, qalıb ağlar balalar
Lalə tək qəlbini dağlar balalar
Biz gərək başlarına kölgə salaq
Buların qeydinə hər ləhzə qalaq
Sözlərin, dilləri yoxdur deməyə
Bu yetimlər çörək istir yeməyə
Siz gərək vəqti ğənimət biləsiz
Göz yaşın indi gözüzdən siləsiz
Ağlamaqla kömək olmaz bulara
Göz yaşından çörək olmaz bulara
Rahat olmaqlarına yeydi təlaş
Atasız qızlara lazimdi məaş
Hamımız indi gərək əlbir olaq
Bazara güclü şuarilə dolaq
Qan tökənlər canına qorxu salaq
Şuhəda qanlığın amildən alaq
Ta məaşi ola tə'min buların
Olmasın halları gərgin buların
Nehzətin başçıları həlqə vurub
Məşvərət etməyə toplantı qurub
Qoydular cümləsi birlikdə qərar
Səfərin yirmi beşində çıxalar
Xəlqə e'lanilə olcar verilib
Bazarın əhlinə ixtar verilib

Xəlqilə xoşdu gülüb ağlayasız
Bazarı, sizdə gərək bağlayasız
Gün o gün oldu hamı qarə geyib
O moraatilə ki başçı deyib
Tukanın əsnaf o gün açmadılar
İxtilafat ələmin saçmadılar
Bazara çıxdı qadınlar nəki var
Verdilər gur səsilə beylə şuar
Qətlə yetmiş atalar həm analar
Şuhəda qanlığın istir balalar
Verməsə hakim ölənlər diyəsin,
Etməsə razı əgər qan yiyəsin,
Qəsr həngaməsi tikrar olacaq
Hakimiyyət günü lap tar olacaq
Yetişib şazda cənabə bu xəbər
Ki qadınlar yaradıb tazə xətər
Şazda öz elçisin e'zam elədi
Öz pəyamın belə e'lam elədi
Olmayın xəlqə dedi: zərrə məlul,
Şazda el istədiyin etdi qəbul
Xoş xəbər gəldi, təkəddür qutarıb
Xəlq şad olub təzahur qutarıb
Belə zeynəbpaşa göstərdi əlac
Həyatın şənliginə verdi rəvac
Ordan adlandı yetimlar anası,
-Dillər əfsanəsi, el bir danası

Yə'ni əytamı yenə boşlamadı
İstirahət özünə xoşlamadı
Ömrücə eylədi məxluqə kömək
Səs verib, qoymadı məzlumları tək
Elin aydın gözü zeynəbpaşadır
Qəhrəmanlar sözü zeynəbpaşadır.

## Yetimlər anası

Gecə ay-ulduza sankı anadır
Nurlu salxımlara sonsuz qanadır
Siynəsi körpələrə süd yoludur
Sanasan süd gölü, süddən doludur
Yox fəzasında yetimlik uşağa
Hamı ay-ulduz almış qucağa
Aldı zeynəbpaşa ilham gecədən
Sona sankı yiyə durdu cücədən
Gecə olsa ana ulduzlar üçün
Bu ana oldu yetim qızlar üçün
Xilqətin oldu məhəbbət sonası
tanınıb xəlqə yetimlər anası
Qoymadı cumsun olar göz yaşına
Dolanıb gündə yetimlər başına
Özüdə oldu bir aləm gecə tək
Fuqəra sırrına məhrəm gecə tək

Onu ancaq yetim olmuş balalar
Özünə bildi ana hərnə ki var
Seçilib öz-özünə xəlqə vəkil
Cümlə əytamə özün etdi kəfil
Buna xatir ki edə dərdə əlac
Heç yetim, bir küçədə qalmaya ac
Bir qadın elçi seçib hər obadan
Olmasın bir bala məhrum anadan
Onları xidmətə ma'mur elədi
Bir bölük məhrumu, məsrur elədi
Çoxunun, gördü sora rəngi solub
Həm ata, həm anadan məhrum olub
Bir ev əytamə icarə elədi
Yığıb o evdə idarə elədi
Kölgəsində, anasızlar boy atıb
Tərbiyə düz oluban kamə çatıb
İftixarlı analar gəldi bara
"Qız tamam","xallı pəri","nazlı sara"
İki "xəccə" hamıdan adlım olub
Səhnədə bir-birinə yardım olub
Bir " uzun xəccə" kökü "bağ meşə"dən
Bir "külə xəccə" xətibli rişədən
Bir-birilə ikisi yoldaşımış
Bir-birindən lotuluqda başımış
Bağ meşə əhli uzun xəccə qoçan
Sözü qudrətli, özü muşkul açan
Çehrəsi cəzbəli heykəlli qadın

Bölgədə dillərə salmışdı adin
Bəski vermişdi nişan layiq özün
Sala bilməzdi yerə valı sözün
Bir günahsız tora düşseydi əgər
Xəlas eylərdi, olursa nə təhər
Boşlunun borcunu eylərdi əda
Girdə qoymazdı sıxılsın əbəda
Vəzii, qoymazdı çox artaq oluna
Puldan ötür biri dustaq oluna
Elə tutmuşdu böyüklükdə işi
Şazdanın da ona batmazdı dişi
Nəzm olunsa, yekə diyvandı özü
Külə xəcceylə uzun xəccə sözü
Külə xəccə xətibin şer qadını
El unudmaz onun əslə adını
üzv olmuşdu qadın nehzətinə
Fərman almışdı xətib xidmətinə
Gündə bir evdə döşərdi nahara
Aparardı özü azuqə ora
Yarma dartıb, pişirərdi özü aş
Tə'min eylərdi fağır xəlqə məaş
Buyudu ev görüşündən nəzəri
Qonşulardan ola düzgün xəbəri
Zəmanında eləsin dərdə əlac,
-Qalmasın kimsə evində gecə ac
El yolunda çalışıb, ğussə yemiş
Qocalıqda güvənib, xəlqə demiş:

Mənə zeynəbpaşa etmiş analıq
Xəlqə, xidmət bağım olmuş qanalıq
O yetimlər anası, ürzədə tək
Qəhrəmanlar becərib, xəlqə kömək.

## əlaolmolk və zeynəbpaşa

Açdı zeynəbpaşa birlik ələmin
Götürüb ilk musavat qədəmin
Çalışıb xəlqə səadət gətirə
Apara fəqri, ədalət gətirə
Bəli zeynəbpaşadır müşkül açan
Taza əndişə nurun xəlqə saçan
Ehtikar ökmələrin kəşf eləyən
Möhtəkerlər başına kül ələyən
Həqqini almağa ciddiyyət edən
Şəhnələrlə döyüşə güclü gedən
Yekə soyğunçuları eylədi xar
Açdı anbarları bir-bir nəki var
Yetişib novbə “əlaolmolk”ə
Çürüdə köhnə hesabın bəlkə
O həşəmdə hamısından başidi
Özü ğəddar başı Qəlbi daşıdı
Çün hokumətdə məqamı varıdı
Mülk o qudrətdə səhamı varıdı

Yoxudu lengəsi var-dovlətdə
Təkidi dəbdəbədə şovkətdə
Evi ə’yan oturan məntəqədə
Xan o elxan oturan məntəqədə
Öz xəyalında hünər xərcə verib
Zərbə qarşında sipər xərcə verib
Anbarın yə’ni çəkibdir qırağa
Aparıb el xətərindən uzağa
Amma zeynəbpaşa diqqət elədi
Kəşf edib, anbarı rö’yət elədi
İstədi iş ola xoşluqla tamam,
-Bir qadından ona göndərdi pəyam
Anbarın ver dedi, xəlqə açarın
Şad elə çoxlu qəhətlik duçarın
Xəlqə mən-mən deyəsən, yaxşı deyil
El qala, sən yeyəsən, yaxşı deyil
Saedolmolkun evin xatirə sal
Özünə ibrət o həngamədən al
Açmamış mənzilinə ac ayağın
Qoymamış siynənə möhtac ayağın
Münsif ol həqqinə, ichaf eləmə
El qanın sormada israf eləmə
İstəsən, xoş sənə olsun bu həyat
Ver özün öz canına indi nəcat
Yoxsa el xəşmi cəhənnəmdi sənə
Bayramın şənligi matəmdi sənə
Söz acıq gəldi əlaolmolkə
Zülmə şirnikdi birazda bəlkə

El gücü, xırdaca gəldi gözünə
Həm belə fikr elədi öz-özünə
Bu həman yüzbaşı zeynəbpaşadır
Sındıran fərraşı zeynəbpaşadır
Mən, şəriflər oturan nahiyədə
O, zəiflər oturan nahiyədə
Tanımır şübhəsiz o anbarımı
İstəyir məkrilə alsın varımı
Dedi zeynəbpaşanın elçisinə
Get, belə yüzbaşı xatunə denə
Anbarım yoxdu, əgər olsa, sizin
Hərnə azuqə ilə dolsa sizin
*
Boşa getdə sözü zeynəbpaşanın
Alışıb ğəm közü zeynəbpaşanın
Gecə qurtuldu, əzan verdi xoruz
Səhərin mahnısını çaldı qopuz
Öfüqün bağrı günəşlə sökülüb
Ağac əllərdə qadınlar tökülüb
Aldı zeynəbpaşa ə'yan kuçəsin
Varlılar nahiyəsin xan kuçəsin
Səssiz əlbəttə nə hay küy nə şuar
Anbarın dovrəsinə çəkdi hesar
Onda anbar yiyəsi açdı gözün
Ortasında hesarın, gördü özün
Amma zeynəbpaşa göstərdi sifət
Qoymadı el ona versin əziyət

Dedi: sən səndəlin üstündə otur
Gör necə aclara pay qısmət olur
İntiqam almağa biz gəlməmişik
Fırtana salmağa biz gəlməmişik
Gəlmişik almağa öz həqqimizi
Qurtaraq təhlükədən xəlqimizi
Həm özün etmisən izan ki yəqin
-Anbarım yoxdu, əgər olsa, sizin
Oturub səkkidə ol qarnı yoğun
Öz yanında bölünüb buğda onun
Öz göziylə görüb əndazəsicə
Ki acından saralıb xəlq necə
Görünüb gərçe həqiqət gözünə
Ayılıb, gəlmədi ancaq özünə
Çün baxışda çaşan insan gözüdür
Düz görən mətləbi vicdan gözüdür
Olsa hər kimsədə vicdan gözü kor,
-Həqqi görməz, danışar millətə zor
Görmədi həqqi oda, oldu cəsur
Çünkü vicdan gözünə gəlmədi nur
Həqqin almaqda görəndə qadını,
-Şər yaxıb qoydu talançı adını
Amma zeynəbpaşa himmət elədi
Buğdanı aclara qısmət elədi
Anbarı getdi əlaolmolkun
Ğəş edib, saxladı öz can mülkün
Şərəfin covhəri zeynəbpaşadır
Qəhrəman məzhəri zeynəbpaşadır.

## Nezamololəma və zeynəbpaşa

Çay qırağında “nezamololəma”
-Öz mücəlləl evin etmişdi bina
Ev nə ev! Ölkədə olmaz ona tay
Görməyib göz o gözəllikdə saray
Qəsri əfsanəli, şəddad bağı tək
Döşənəkli tənəbi, fərşi ipək
Nə qədər toxları döndərmiş aca,
-O səranın olub eyvanı uca
Uca eyvan ki bəzənmiş qabağı
Baxan ordan görür asan uzağı
Gözə amma nələr ordan görünür?
Ac ölənlər səhər ordan görünür
Sanma tək çay qırağın fəqrə duçar
Hər xiyabanda həman mənzərə var
Ravı söylür:ki olan vəqtə səhər,
-Küçələrdə tökülərdi ölülər

Şəhnələr, geysi geyərdi keçədən
Bir-bir əcsadı yığardı küçədən
Zülm oqyanusunun ğərqinə bax
Qəsrilə qonşusunun fərqinə bax
Mə’dələr orda yeməkdən cırılır
Fuqəra çöldə acından qırılır
Qəsrin əlbəttı neçə anbarı var
Hər böyük anbarın anbardarı var
Hər nəfər öz işinə amil olub
Buğda anbarlarına buğda dolub
Yatıb asudə nezamololəma
Xəbəri yox ki gəlir qəsrə bəla
Gündüzün qətl o fəsadın unudub
Özünün cürm o inadin unudub
Bu həman yaslı qaranlıq gecədir
Cəvvi təbrizdə dumanlıq gecədir
Ki günüz şəhridə olmuşdu qiyam
El gəlib xəşmə, pozulmuşdu nizam
Xəşmlər siynədə dönmüşdü közə
Zimnən olmuşdular agəh bu sözə
Ki gedib buğda çörəkpəzlər ala
Verməyib amma nezamololəma
Odur el çırmalanıb e’tiraza
Verməyə möhtəkerə doğru cəza
Açılıb sübh, nəfəs gəldi elə
Dəyənək əldə hamı çıxdı çölə

Tükənib səbri, gəlib canə hamı
Yığışıb xəşmilə meydanə hamı
Sankı dəryayə çatıb sel dayanıb
Muntəzer elxanıma, el dayanıb
Qəlblər zovqudan əlbəttə əsir
Öndəri görməyə millət tələsir
Sankı birdən suva əl tapdı ətəş
Gəldi öndər, eləbil çıxdı günəş
Qoydu zeynəbpaşa meydanə qədəm
El təhərrüklə gəlib vəcdə o dəm
Çıxdı bir çarpayanı etdi məqam
Verdi zeynəbpaşa məxluqə pəyam
Dedi: bilsin cərəyanı fuqəra
Ac qoyub xəlqi nezamololəma
Anbarın açmır, inad üstə durub
Neçə min xalvar ora buğda vurub
Saxlamış satsın ağır qiymətinə
Səbəb olmuş bu elin nekbətinə
Lacərəm səbr qumaşı cırılır
Möhtəşəm xəlq acından qırılır
Həqqizi indi özüz almalısız
Yenədə zülmə zəfər çalmalısız
Baxmayın şəhnələrin gur hayına
Üz qoyun nəzmilə meydan çayına
Gərək anbarları qəhrilə alaq
Taki bizdə diri dünyadə qalaq
*

Gərək alqış o qadınlardan ola
Düşdülər nəzm o nizamilə yola
Yaranıb yolda munəzzəm hərəkət
Əzmdə, cəzmdə möhkəm hərəkət
Müttəhed şəklidə əllardə ağac
Ləhzə bə ləhzə tapıb dəstə rəvac
Möhtəker ziddinə dillərdə şuar
Səslərin movcu verib cəvvə fişar
Yetişib dəstə ki meydan çayına
Körpüdən keçdi çayın sol tayına
Xətərə oldu şəhamətlə yaxın
İstədi el apara qəsrə axın
Qəsrə yığmışdı nezamololəma,
-Xeyli ovbaşı, muhafiz ola ta
Eyvana güllə atanlar düzülüb
Pula, vicdanı satanlar düzülüb
El geri dönməyən, onlar ənəşüş
Durdular üz-üzə, başlandı döyüş
Şəhnələr fərmanı icra edərək,
Yerə, göydən yağan, alqır dolu tək,
Yağdırıb güllə cəmaət başına
Qan yaxıb yerdə xiyaban daşına
Yıxılıb yan-yana saysız nəfərat
Az zəmanda verilib çox tələfat
Yetişən yox qırılanlar sayına
Qarışıb el qanı, meydan çayına

Öldü bir iddə qadın, çoxlu kişi
Gördü zeynəbpaşa müşküldə işi
Əmr edib neççə müsəlləh qadına
Çatalar tirilə xəlqin dadına
Əsləhə aldı qadınlar əlinə
Çəkilib xət qoşunun cədvəlinə
Dəyənək cəngi dönüb oldu tüfəng
Cəvabın verdi fişəngində fişəng
Etdilər eylə qoşun üstə hucum
Sankı zülmət sinəsin yardı nucum
O qadınlar ki həmasə yaradıb
Ağ günü şəhnə gözündə qaradıb
Unudulmaz oların gərçe yadı
Çoxunun yox vəli tarixdə adı
Nayıbəkbər belə söylür: o zəman,
-Varıdım orda özüm, tazə cəvan
Dedi zeynəbpaşa: əl sizdə qatın,
Çün olar güllə atır, sizdə atın
Vurdu bir güllə “sona” adlı mama
Fərraşı yıxdı, yapışdırdı dama
Dedi: mən tutduğum oğlan, qızı sən,
-Nə cəsarətlə vurub, öldürüsən?
Hər qadın ki ələ almışdı “qoşa”,
Qoşadan getmədi bir güllə boşa
Qızıl aşiqləri mən-mən ki dedi,
-Keyfərin gördü qızıl güllə yedi

Yerə hər fərraşı bir güllə yıxıb
Tökdüyü qan əvəzin xəlq çıxıb
Qan tökən sanma ki keyfərsiz ola
Xilqət ədliyyəsi davərsiz ola
Qarışıb siynə qanı, baş qanına
Batdı meydan çayı fərraş qanına
Amma eldən çox olub qanə batan
Şərəf uğrunda canın gözdən atan
Xatiratında ki tikrar eləmiş
Nayıbəkbər belə izhar eləmiş
Gördüm ol gün ki səfindən aralı,
-Yıxılıb yerdə qalıb çox yaralı
*
Gün çıxandan döyüşüb gün batana,
-Həq tələb ğalib olub şarlatana
Axşama çatdı günüz, qaş qaralıb
Günəşin rəngi öföqdə saralıb
Vürdi zeynəbpaşa fərman bu sayaq,
-Hamı getsin evinə əldə yaraq
Səhər amadə olun cəngə yenə
Gətirək qan soranı təngə yenə
*
Xəlqə matəm gecəsi oldu gecə
Kuçələr şiyvənilə doldu gecə
Çox yerə fanus əlamət vurulub
Ğəm besati şuhədayə qurulub

Qoşulub nalə səsi yel səsinə
Möhtəker verdi qulaq el səsinə
Cürmünün keyfərin aldı nəzərə
Məsləhət bilmədi qalsın səhərə
İttila verdi qohum-qardaşına
Yığıb öz əhl o əyalın başına
Gecə lap tiyrə olan vəqtə hava
Şəhridən qaçdı nezamololəma
Səhər olcaq yenə başlandı qiyam
Dünənin ğaeləsi tapdı dəvam
Qəsrə sürətlə cəmaət yetişib
Ökmələr xəlqə səlamət yetişib
Gördülər yoxdu nezamololəma
Nə qalıb şəhnə, nə ovbaş, nə sopa
Eyvana qırmızı bayraq saçılıb
Buğda anbarları bir-bir açılıb
Dedi zeynəbpaşa: bir səfdə qalın
Buğda, un səhmizi novbətlə alın
Bəski öndərdə ləyaqət görünüb,
-Gözə bir düzgün ədalət görünüb
Buğda məxluqə bərabər bölünüb
Var nə azuqə bərabər bölünüb
Hərə bir tay alıb un, pay aparıb
Bilmirəm buğda neçə tay aparıb
*
Verdi birlik bəli qudrət bu elə
Yekə piruzluğa əl tapdı belə

Bu dönə mahnı qoşanlar kı coşub
Başqa surətdə ona mahnı qoşub
Dedilər: el qızı zeynəbpaşadır
Dağ yıxan sel qızı zeynəbpaşadır
Gördü zeynəbpaşanı əldə zopa,
-Səhnədən qaçdı nezamololəma
Mat qalıb el, o qadın sovlətinə
Baxaraq heykəlinə, surətinə,
Dedilər: elmahı zeynəbpaşadır
Qəhrəmanlar şahı zeynəbpaşadır.

## Borclu dəgirman

Tanbakı nehzəti məqsudə çatıb
İngilis fitnəsi təbrizdə yatıb
Burda ğeyrət duvarı möhrələnib
Bütün iyran başabaş bəhrələnib
Sonra səsləndi qadınlar qiyamı
Sındırıblar necə qaem məqamı
Necə almiş ələ şəhri zoəfa
Olmuş avarə nezamololəma
Necə anbarların ağzı açılıb
Acların qəlbinə çün nur saçılıb
Ellər alqışladı zeynəbpaşanı
Çoxalıb şə’ninə qoşma, qoşanı
Hamı öyrəndi vilayətdə adın
Ki edib nehzəti o şanlı qadın
Dağlaşıb söhbəti məhfillərdə
Adı əfsanə olub dillərdə

Cümlə məxluqə gəlirdi sözü xoş
Yoxudu ev ki sözündən ola boş
Göstərib bəski sədaqət o qadın
Cəlb edib bir şərifin e’timadın
O şərifin olaraq niyyəti xoş
Saili rəd eləməzdi əli boş
Eşidib şə’nini zeynəbpaşanın
Cəzb olub sözlərinə söz qoşanın
Ki o himmətli qadın əl qol açıb
Etməgə aclara yardım, yol açıb
Adı afaqə günəş tək yayılır
Özü məxluqə əmiynə sayılır
Ərsələr ğalibi zeynəbpaşadır
E’timad sahibi zeynəbpaşadır
Gəldi zeynəbpaşadan etdi görüş
Dedi: var məndə qızıl həmdə gümüş
İstirəm yardım edəm aclara mən
Yetişəm şəhridə möhtaclara mən
O dəgirman kı adı borculudur
Çeşməsində duru su movculudur
Sənə uyğundu kı təqdim eləyəm
Aclara borcumu təslim eləyəm
Sənədində edərəm qeyd ki biz,
-O dəgirmanə şərikik ikimiz
Tanıram çün səni ac xəlqə kəfil
Məndə etdim səni bu əmrə vəkil

Ver fəqir xəlqə o sahman gəlirin
Aclara payla dəgirman gəlirin
Ulu zeynəbpaşa təqdir elədi
İqtisad çərxini təsxir elədi
Belinə bağladı himmət kəmərin
Göstərib xəlqə məiyşət hünərin
Tez dəgirmançı seçib bir kişini
Başladı sürətilə öz işini
İqtisad fikrini düz xəttə salıb
Müstəqim buğda, əkənlərdən alıb
Götürüb vasitə qeşrin aradan
Qalmasın taki fəlakət yaradan
Xəlqə əngəldi bütün vasitələr
Artırar qiyməti çün vasitələr
Vasitə, xəlqə törətmiş bahalıq
Bahalıqdan bara gəlmiş gedalıq
*
Çün dəgirmanı mədarında görüb
Başqa işlərdə kənarında görüb
Yayda bağlardan alıb bollu ərik
Ola aclar ğəminə qışda şərik
Gətirib öz zəmisində qurudub
Təklifin sanma kı bir an unudub
Çün qəhətlik görən əvvəldən odur
Verməyən ehtiyatın əldən odur
Düz gedib yusefe kənan yolunu
Yara toxtatmada, loqman yolunu

Loqmanın bəlkə görüb başqa işin
İlanın zəhrin alıb, çəkdi dişin
Yə’ni aldı qabağın möhtəkerin
Bağladı əl-ayağın möhtəkərin
Bağladı birdə sələmçi qolunu
Açdı məxluqə ucuzluq yolunu
Öz muqəddəs işinə verdi dəvam
Xəyyer insanlara göndərdi pəyam
Hərkim istir edə əytamə kömək,
çata yoxsullara böhranda çörək
payın ancaq özü bölsün fəqirin,
-Bu dəgirmanə gətirsin nəzirin
Əmin olsun bu ışıq məşəlinə
Yetişər verdigi, yoxsul əlinə
Ulu  zeynəbpaşanın ibtikarı
Cəlb edib yardıma, yardımçıları
E’timad eylədi vicdanlı bəşər
Buğdadan,arpadan imkanlı bəşər
Gətirib etdi dəgirmanə kömək
Ta ola bəlkə ac insanə kömək
*
Bəli zeynəbpaşa qanşarda gedib
Un  dəgirmanını xeyriyyə edib
Dayir etdi mədəniyyət əsasın
Qoydu təbrizdə təavun binasın
Düz modirlik yolun ancaq o zaman,
-Verdi hakimlərə təbrizdə nişan

Hakimin gər ola izləncəsi düz,
-Cümlə müşküllər olar həl yüzə-yüz
Kim elin, istir ola xoş yaşadan,
-Gərək ilham ala zeynəbpaşadan
Oldu zeynəbpaşa istək zəmanı,
-İqtisad ərsəsinin qəhrəmanı.

## Zeynəbpaşanın  kərbəla səfəri

Açdı zeynəbpaşanın taleıi pər
Kərbəlayə edib izzətlə səfər
Səfər üstə ki geyib rənc donun
Mə’nəvi illəti aydındır onun
Səfərin var vəli başqa səbəbi
Ki edib türkülə yoldaş ərəbi
Tanbakı nehzəti çün oldu ələm
Müstəbed heybətinə çəkdi qələm
Yayılıb təbrizin esyan xəbəri
Zülm önündə ələ gəlmiş zəfəri
Möhtəker ziddinə nesvan qiyamı
Ulu zeynəbpaşanın xoş pəyamı
Yetişib kərbobəlayə, nəcəfə
Ərəbistanda çatıb hər tərəfə
İki çay ortası kı nəsboleyn
Adlanıb dünyada beynənnəhreyn

Cür bə cür kütlələr, əqvam o elat
Qərnilərdir ki sürür orda həyat
Amma azadlığa həsrət qalaraq
Qonşulardan baxıb ilham alaraq
Yola, nehzətlərini salmaq üçün
Düz təriq özlərinə almaq üçün
Çağırış etdilə zeynəbpaşadan
Bir görüş eyləyə ol el obadan
*
Nayıbəkbərdən alınmış bu kəlam
Gəldi zeynəbpaşaya beylə pəyam
Ay azərbaycanın adlim paşası
Dildə kəsgin sözü, əldə "qoşa"sı
Olmuşuq vurğun uzaqdan sənə, biz
Muştaq olmuş, səni görsün elimiz
İltifat eylə bu aymaqda bizə
Bəlkə quvvət gələ ruhiyyəmizə
Bürümüş fəqr o fəlakət bizidə
Qorxudur gündə həlakət bizidə
Yoxdur azadlığımız, hörmətimiz
Yol nişan verməgə var hacətimiz
İki çay ortasına eylə səfər
Qıl bu müşküldə qalan xəlqə nəzər
Ürəgi yandı fağır kütlələrə
Oldu zeynəbpaşa hazir səfərə
Başına topladı el başçıların
Tapşıra onlara xəlqin zumarın

*

Son vidaiydi bu zeynəbpaşanın
El yolunda ğəmi hər an coşanın
Sankı ilhamilə bilmişdi özü
Qalacaq ellərinin yolda gözü
Ölümün ğurbətə, tale salacaq
Gözləri yaşlı yetimlər qalacaq
Dil açıb ğussəli söhbət elədi
Belə huzzarə vəsiyyət elədi
Dedi: mən kərbobəlayə gedirəm
Çağırır xəlq hərayə gedirəm
Gedirəm yardım edəm aclara mən
Göstərəm düz yolu möhtaclara mən
Umudum yox bu səfərdən qayıdam
Qurtulub birdə xətərdən qayıdam
Duymuşam öz yolumun can xətərin
Bilirəm rəcəti yox bu səfərin
Sizə məhrumları tapşırmalıyam
Cümlə məzlumları tapşırmalıyam
Qoymayın əlsiz ayaqsızları tək
Atasız ya anasız qızları tək
Yurduzu göz bəbəgiz tək qoruyun
Elizi, əslizi göyçək qoruyun
Olmayın əcnəbi öz millətizə
Vurmayın bambaça heysiyyətizə
*

Hərəkət ləhzəsi ğoğa görünüb
Göz yaşı xəlqidə dərya görünüb

Zahirən carladı çavuş kuçədə
Batinən banladı bayquş kuçədə
Ayrılıq vaqiəsin verdi xəbər
Eşidənlər ürəgin tutdu kədər
El duyub sankı verir əldən ətək
Birdə zeynəbpaşanı görməyəcək
Çəkdilər qıyha odur ağladılar
Lalə tək siynələrin dağladılar
Qoydu zeynəbpaşa məxluqu xumar
Ayrılıq mərkəbinə oldu səvar
Düşdü at üstə yola izzətilə
Ardıca baxdı hamı həsrətilə
Getdi zeynəbpaşanın qafiləsi
Kərbəlayə azalıb fasiləsi
Nə talançı, nə bəlayə ilişib
Xaneqeyn ağzına kərvan yetişib
Şəhnələr saxladılar qafiləni
Saldılar zəhmətə hər ayiləni
Gəldi əsgərləri osmanlıların,
-Zəvvarın təftiş edə hər nə varın
Tutdular xəlqi yaman tingitova
Verdilər artıq əziyyət olara
Gəldi zeynəbpaşa axır ğəzəbə
Dedi təftiş eləyən mirğəzəbə
Verməyin xəlqə əziyyət bu qədər
Özüzə var bu əziyyətdə zərər
Dedilər: kəs səsini tez xəfələn
Burda lal olmalıdır seyrə gələn

Neçə kəlmə söz olub rədd o bədəl
Qalmadı heç daha islahə məhəl
Ələ zeynəbpaşa aldı dəyənək
Dedi: tənbih ola zülm əhli gərək
Vurdu bir zərbə o danqaz başına
Başının axdı qanı göz-qaşına
Öndəri gördü qadınlar kı belə
Hamısı əl ağacın aldı ələ
Verməyib həmlədə fursət tərəfə
Göz vurum anda çatıblar hədəfə
Yə’ni bir ləhzə ki gəldi ğəzəbə
Çaldı əsgərlərə nesvan ğələbə
Sözü, öz işləri tovzih verib
Qaçmağı, durmağa tərcih verib
Qaçdılar, gözdən əsaker itilib
Eldə ruhiyyə qılıncı itilib
Qəravullar düzülüb sağ-soluna
Qafilə verdi idamə yoluna
Düşmədi gərçe xətərdən uzağa,
-Gəlmədi başqa həvadis qabağa
Qafilə kərbobəlayə yetişib
Xəstələr sankı şəfayə yetişib
Düşdülər mənzilə kərvansarada
Oturaq eylədi zəvvar orada
Təşkilat moxberi fəryadə gəlib,
-Ki bu zeynəbpaşadır dadə gəlib
Eşidib yerli qadınlar sevinib
Qartalı gördü, laçınlar sevinib

Kərbəla əhli nəfəslərdə tövüş
Gəldi zeynəbpaşadan etdi görüş
Çağırıblar gecə mənzillərinə
Getdi zeynəbpaşa məhfillərinə
Yanaşıb çehrəsi barizlərinə
Yol nişan verdi mubarizlərinə
Çalışıb, kütlələr amadə ola,
-Nehzəti məntəqədə saldı yola
Heyf ola olmadı ömründə vəfa
Təbrizə birdə verə nıtqı səfa
Əbədiyyətdə cumub yumdu gözün
Xəlqə, ğurbətdə fəda etdi özün
Yaz coşan halda, xəzan yetdi yasa
Kərbəla əhli bütün gəldi yasa
Peykərin dəstə gülə, el bələdi
Sonra iclalilə təşyi elədi
Dalğa şəmşiri dənizdən soyulub
Duyğu dəryası məzarə qoyulub
Kərbəla türbətinə mulhəq olub
Eşq dəryasına mustəğrəq olub
Qovuşub bir-birə sankı bəhreyn
Ğussədən laxladı beynənnəhreyn
Gərçe təslim olub öz ğurbətinə
Çatdı zeynəbpaşa son izzətinə
Qəhrəmanlıqda başı ərşə çatıb
Kərbəla şahı yatan yerdə yatıb.

## Zeynəbpaşanın ölüm xəbəri

Etdi zeynəbpaşa dünyasın əvəz
Cismi covhər olaraq, ruhu ərəz
Qafilə əhli ürək dağladılar
Tutdular tə'ziyəsin, ağladılar
Dedilər bir-birə axır bu sözü
Qalıb el-tayfamızın yolda gözü
Biz bu mərhuməni tərk etməliyik
Çarəmiz yox vətənə getməliyik
Nayıbəkbər dedi: mən qalmalıyam
Siz gedin, mən hələ kam almalıyam
Burda zeynəbpaşa ləngərki salıb
Bə'zi naqis işi var yerdə qalıb
Yaramaz xeyr işi tə'til eləyəm
Mən gərək nehzəti təkmil eləyəm
Öndərin ayrılığın xoşlamaram
Qəbrinin qonşuluğun boşlamaram

Nayıbəkbər oları saldı yola
Qaldı "səqqa"yə özü xadim ola
Həm idamə verə öz işlərinə
Nehzətin son qoya təşvişlərinə
*
Yol gəilb qussəli kərvan vətənə
Yetişib vəzii pərişan vətənə
Bir nəfər carladı, tufan elədi
Zəvvarın gəlməgin e'lan elədi
Dedi: ay təbrizin əhli eşidin
Peşvaza qarə libasilə gedin
Aynası bəxtimizin kaslı gəlib
Şən gedib qafiləmiz yaslı gəlib
Can alan, başçımızı əldən alıb
Ulu zeynəbpaşa ğurbətdə qalıb
Qayıdıb qafilə zeynəbpaşasız
Qaldı təbrizdə yetimlər anasız
El coşub, dağ çəkilib siynələrə
Ğəm giyahı əkilib siynələrə
Qələm o matəmi acizdi yaza
Döndü göz yaşları coşğun araza
Qartal ölmüşsə, laçınlar yığışar
Şer qadın ölsə, Qadınlar yığışar
Dəstə-dəstə gəlib ellər yasına
Ğərq olub camiə ğəm dəryasına
Dedilər: öndərimiz həqqə çatıb
Qoyub ağlar bizi, ğurbətdə yatıb

Hərə bir sujəilə verdi şuar
Oxşama layıq ona oxşadılar
Biri əşarilə vəsf etdi belə
Etdi zeynəbpaşa xidmət bu elə
Həqqi var camiənin boynunda
Qoymadı xəlqin əlin qoynunda
Biri tosif edib oxşatdı gülə
Yə'ni gül tək çalışıb, xəlq gülə
Biri söylüb ki yeri boş qalacaq
Möhtəker ərsədə çiltik çalacaq
Dedi bir başçı: bu zümrüd quşudur
Ki yanıb odda, bu kül olmuşudur
Külünün hər tozu bir quş olacaq
Qan soranlar tükün ancaq yolacaq
Yə'ni fikr etmə bu meydan boşalar
Gələcək ərsəyə zeynəbpaşalar
Yaslılardan birisi taqqa yedi
Belə huzzarə o məclisdə dedi
Məni zeynəbpaşa ehzar elədi
Can verəndə belə izhar elədi
Cəsədim kərbobəladə qalacaq
Amma ruhum sizə kölgə salacaq
Nazirəm işlərizə, xidmətizə
Siz idamə verin öz nehzətizə
Düşdü bu söyləmə dildən ki dilə
Yaranıb şayiə xəlq içrə belə

Ovliyanın biri zeynəbpaşadır
Ölməyibdir, diri zeynəbpaşadır
El içində gecə-gündüz dolanır
Baş çəkib xəqə, yüzə-yüz dolanır
Odur ellər ara ölməz adı var
Ruhu cəryan eləyir ki yadı var
Görünüb sonra doğurdan habelə
Döndərib damcını nehzətdə selə
Baş ucatdı necə zeynəbpaşalar
"telli"lər ya "cəmilə bupaşa"lar
*
Ondakı nehzətə üz verdi xətər
Doldu səngərlərə məşrutəçilər
Lap qızan vəqtidə təbrizdə döyüş
Xəlqə səngərdə nəsib oldu görüş
Etdi zeynəbpaşa ruhun kı əyan,
-Verdi "telli zəri"də xəlqə nişan
O özündə ki görüb diz qeyimin
Əyninə geydi mucahid geyimin
Kişilər surətinə saldı özün
Düşmənə zillədi hər anda gözün
Soruşan olmadı səngərdə adın
Bilmədi kimsə, gəlib cəngə qadın
Güllə dəydi yaralandı bədəni
Pozulub peykərinin əncüməni
Əsdi mehnət yeli sahman evinə
Yetiriblər onu dərman evinə

Dedi döktür: yerə qoy əbzarıvı
Ehtiyatilə soyun paltarıvı
Dedi: mən verməRəm əldən arımı
Ölərəm, soymaram öz paltarımı
Nəqədər etdilər israr kı soyun,
-Əymədi ancaq o təklifə boyun
Çatdı səttarxana axırda xəbər
Gəldi sərdar özüdə etdi nəzər
Dedi: mən indi təqaza edirəm
Səndən əlbəttə təmənna edirəm
Qoy təbib eyləyə dərman yarava
Gəl soyun, ta baxa asan yarava
Dedi sərdarə: çox üz vurma mənə
Açıram sırrımı naçar sənə
Var dəlili soyunuşda acızam
Deyiləm mən kişi, iffətli qızam
İstirəm ğunçəli qalsın çəmənim
Gözə görsənmiyə uryan bədənim
Sərdarın gözləri islandı bətər
Ağladı, qəlbinə üz verdi kədər
Dedi: qalxır göyə meydanda səsim
Mən hələ ölməmişəm var nəfəsim
Ğalibəm qan tökən ə’dayə qızım
Sən gəlibsən niyə də’vayə qızım?
Reqqət əl verdi mucahidlərə çox
Dedilər: bu ğəmin əndazəsi yox

Qan yaxıb telli zəri tellərinə
Ölsə, nisgil olacaq ellərinə
Bəlkə zeynəbpaşanın, ruhudu bu
Gətirib qızlara ilham quşu su
Bəli nehzət çirağı, sanma sönüb,
Ulu zeynəbpaşanın ruhu dönüb,
Oldu səngərdə həman telli zəri
Hələdə camiədə var əsəri
Cismidən ölsədə el qəhrəmanı,
-Ruhu yol göstərib, ölməz nişanı.

## Nayıbəkbər və məşrutə

Oldu xadim nayıbəkbər hərəmə
Tanınıb həm ərəbə həm əcəmə
Tutdu zeynəbpaşanın orda yerin
Qoymadı işlərinin yerdə birin
Xəlqə azadlığı təhsil elədi
Nehzəti bölgədə təkmil elədi
Keçdi illər, atanış nəsli bitib
Taza əndişə gəlib, köhnə itib
Rüşdünə fikrin, olub bilgi səbəb
Xəlq olub ölkədə məşrutə tələb
Bir gecə çulqadı qəlbin həyəcan
Nayıbəkbər yatıb eldən nigəran
Gördü zeynəbpaşanı rö'yadə
Dedi: dur ol səfərə amadə
Daha qalma burada, get vətənə
Hərnə xidmət edisən, et vətənə

Vətənin qorxulu bir haləti var
İndi xəlqin sənə çox hacəti var
Dostu rö'yət elə həm düşməni gör
Telgerafxanədə, sən gəl məni gör
Durdu mat qaldı o xatun sözünə
Qalmağı bilmədi cayiz özünə
Nayıbəkbər atına oldu səvar
Bildi təbrizdə böyük hadisə var
Uca dağlardan aşıb yel sayağı
Dərələrdən sovuşub sel sayağı
Ana yurdu xətibə gəldi gecə
Baş atıb yasdığa dincəldi gecə
Sübhükən durdu yerindən ayağa
Qapısın açdı gələn hər qonağa
Xətib əhli tökülüblər görüşə
Bir bə bir nayil olublar öpüşə
Dedilər: yaxşı gəlibsən vətənə
Göz tikib indi xətib əhli sənə
Dağlaşıb təndiri cəngin alışır
Xəlq məşrutiyət üstə çalışır
Hər məhəllə ki adı listə keçib
Öz mucahidlərinə başçı seçib
Səndə lütf eylə, bizim başçımız ol
İtirəndə yolu, göstər bizə yol
Dedi: fəxrimdi əgər lazim olam
Gəlmişəm öz elimə xadim olam
Nayıbəkbər seçilib xəlqə əmin
Başçısı oldu mucahidlərinin

Tapdı tarix səfəhatında qərar
“hacı veycuyə” kitabındada var
*
Telgerafxanəyə üz qoydu sora
Və’də, zeynəbpaşa vermişdi ora
Gördü, məşrutəçilər əlbir olub
Telgerafxanə cəmaətlə dolub
Hamı gözlür gələ qanun xəbəri
Ola məşrutənin aydın səməri
Ğəflətən qorxulu bir səs ucalıb
Hamı baxdı yola, heyrətdə qalıb
Gördülər bir bağıran dəstə gəlir
Xəlqi dadə çağıran dəstə gəlir
Dəstənin əhli qadındır başa-baş
Car edir hammısı gözdən üzə yaş
Oldu aydın kı o məzlum analar
Axtarıblar bazarı hərnəki var
Tapmayıblar vəli bir bəllə çörək
Qalacaqlar gecə ac, hər gecə tək
Buğda anbarları əlbəttə dolu
Acların yox olara amma yolu
Açıla bəlkə təlaşilə dügün,
Çarə, el dərdinə axtarmaq üçün
Ah oxilə daşı dəlmiş analar
Telgerafxanəyə gəlmiş analar
Səslənirlər hanı zeynəbpaşamız?
Qəlbimizdən götürə, od-maşamız

Dov tapıblar o gedəndən zəlilər
Artırıb kiynələrin, kiynəlilər
Kişilərdən biri söhbət elədi
Sukuta onları də'vət elədi
Hamı məczub olub, aram olaraq
Dəstə məxluqilə idğam olaraq
Xəlq sakit dayanıb, səhnə dolub
Az zəman cəvvə sukut hakim olub
Tazadan həmhəmə başlandı yenə
Öz yerindən hamı daşlandı yenə
Demə bir möhtəkerin bəxti yatıb
"hacı qasim"ki özün xəlqə qatıb
Qan soranlar böyügü, xəlqi soyan
Öz adın camiədə hacı qoyan
Dəycəyin orda qadınlar gözünə
Sankı covhər səpib esyan közünə
Bir qadın etdi ona həqqi əyan
Bir qaralmış çörəgi verdi nişan
Dedi: bundan utanıb, eylə həya
Etmisən ağ günü məxluqə qara
Gəlmisən, siynəvə yarlıq saçasan
Xəlq içində özünə yer açasan
O qadın vurdu ona bir şapalaq
Möhtəker yerdə bitib çün mazalaq
Üstünə başqa qadınlar tökülüb
Hacı qasim ayaq altında ölüb

Gətiriblər ölüsün topxanaya
Bəlkə xayinləri millət tanıya
Asdılar orda ağacdan ölüsün
Xəlq rö'yət edə şeytan ölüsün
Nayıbəkbər görüb ol səhnələri
O qadından çəkinən şəhnələri
Soruşub kimdir o sovlətli qadın?
Bilmədi kimsə onun düzgün adın
Gecə gəldi evə fikri qarışıq
Vəsl şəmii evinə saldı ışıq
Xəbər aldı qocaman "tahirə"dən
Xətibə nəğmə qoşan şairədən
Kimidi xəlqinə o arxa duran?
Möhtəker surətinə silli vuran
Şairin duyğu közü çəkdi əlov
Dedi: zeynəbpaşanın ruhudur o
Qurumuş sanma, dəniz tək coşanı
Ölü fərz eyləmə zeynəbpaşanı
İrtibati kəsilə, etmə guman
Gündə bir kəsdə olur ruhu əyan
Xəlqi öz tə'siri altda yaşadır
Hər igid qız özü zeynəbpaşadır
Buraxıb əcnəbinin zikrilərin
Boğmaq olmaz buların fikrilərin
Qan soranlar daha xoş qalmayacaq
Qəhrəmanlar yeri boş qalmayacaq.

## Təbrizli abbas sərraf

Afiyət getdi o gün gəldi mərəz
Dünyasın etdi muzəffərşah əvəz
Çün məhəmmədəli mirza şah olub
Qəlbi, məşrutəyə nifrətlə dolub
Qaladı xəlqin əsarətlə yükün
Başladı qazmağa məşrutə kökün
Öncə, fitnə quşuna səpdi dənə
Baş vəzir oldu "ətabək" vətənə
Nə ətabək! Təməli fitnə vo şər
Görməyib xəlq elə min üzlü bəşər
Qoydu öz adını məşrutə tələb
Əmələn verdi nişan qəhr o ğəzəb
Sözlərilə əməli fərq elədi
Xəlqi böhran selinə ğərq elədi
Təfrəqə saldı vəkillər içinə
Qoymadı xəlqi, mulayim keçinə

Vol verib oğrulara hərnə ki var
Qan tökən yağılara durdu havar
Qaradağ şahçıları fürcə tapıb
Yügürüb kəndlərə, xəlqi çapıb
Fitnə qaldırdı yaman ərmənilər
Tökdü urmiyyədə qan ərmənilər
Çoxları türkə cəsarət elədi
Kürdlər urmiyəni ğarət elədi
Möhtəkerlər olub asudə xəyal
Soymağa xəlqi tapıb yaxşı məcal
Bahalıq düşdü şəhərlərdə işə
Ah o nalə kasıba oldu peşə
Dərk edirdi, hamı o vəzıə səbəb
Tək ətabəkdi nə aşub tələb
Göstərir bəlgədə o tülkü vəzir
Doğrudan milləti etmişdi əsir
Qorxudan kimsə çıxatmırdı səsin
Dustaq etmişdi ürəkdə nəfəsin
Qorxudur xəlqi fəqət xar eləyən
Zalimi, məzluma cərrar eləyən
Amma bir gənc, döyüşdə alamat
Verən o mərhələdə xəlqə nəcat
İşi sərraflıq, özü şanlı ərən
Qəhrəmanlıq gülün əvvəlcə dərən
Öncə zeynəbpaşadan ilham alan
Ğələbə qorxuya mərdanə çalan

Boyuna fəxr libasi yaraşan
Düşünüb, camiə dərdin araşan
Baş vəzirin hədəfin düz tanıyan
Millətə qarşı yüzə-yüz tanıyan
-Təbrizin qoççağı abbas bək olub
İşi hər qəhrəmana örnək olub
Özün amadə qaranlıqda edib
Can ətabəkdən ala doğru gedib
Gecə ıldır təkin etdi hərəkət
Nur saçıb, aldı ışıq altı cəhət
Üç qızıl gülləilə açdı qisas
Fitnə şərrindən edib xəlqi xəlas
Kəsdi bir yolluq ətabək nəfəsin
Bəlkə sındırdı boğuntu qəfəsin
Çalışıb tutmağa fərraşlar onu
İşinin intihara çatdı sonu
Qorusun təşkilatın sırrı sözün,
-Bircə güllə vurub, öldürdü özün
Sukutun bağrı o səsdən sökülüb
Çölə dəhşətlə vəkillər tökülüb
Gördülər yerdə ətabək yıxılıb
Cismi qan içrə muşəbbək yıxılıb
Köhnə yaltaqlar ürək dağladılar
Vurdular başlarına ağladılar
Təşrifat oldu o ğəddar vəzirə
Qoydular nəhs vucudun qəbirə

Amma abbas bədəni yerdə qalıb
Hamı gözdən o cəvanmərdi salıb
Müstəbed kiynəsin izhar elədi
O canından keçəni xar elədi
Qoymadı dəfn edə millət, ölüsün
Torpaq üstündə qalıbdır iki gün
Saldılar sonra onu bir çuxura
Bəlkə ibrət məkanı olsun ora
Peykərin ağ kəfənə bükmədilər
Üstünə torpağıda tökmədilər
Amma himmətli mubariz kişilər
Ehtiram etdilər əbbasə bətər
Tazadan qazdılar izzətlə məzar
Kəfənə, nə'şi büküb quyladılar
Yeddi inci gecə millət ayılıb
İgid abbas, şuhədadən sayılıb
Üz qoyub qəbrinə minlərcə nəfər
Göz yaşından hamının surəti tər
Qoydular baş daşına güldən tac
Dəstə güllər qalanıb oldu yamac
Oxunub şe'r o çıxışlar olunub
Cəzb, tovsifə baxışlar olunub
Tehran əhli belə göstərdi əmək
Təbrizin cəhdini muşkuldu demək
Çox şuarlarda həqiqət varımış
Təbriz əhlində bəsirət varımış

Eşidib xəlq ətabək ölümün
Sandılar cümlə mubarək ölümün
Öncə bilmirdi cəmaət ki hələ
Öldürüb kim onu tehranda belə
Eləki bildilər o özgə deyil
Türküdür riyşəli, etnikdə əsil
Çox sınaqdan keçilən baş ucadır
Təbriz əhli, adı abbas ağadır
Gəldilər cuşə, ediblər həyəcan
Verdilər duyğuların alı nişan
At minib düşdü “qılıcxan” qabağa
Hey vurub, başladı at oynamağa
Ardıca çalqıçılar çaldı muzik
Hamı bu iftixara oldu şərik
Qoşdular, qoşmaçılar, qoşma ona
Eləki el çıxışı çatdı sona
Xəlq ona matəm üçün bəzm qurub
Həmı o bəzmidə sakit oturub
“mirza ğəffar zunuzi” danışıb
Odlu sözlərdən ürəklər alışıb
Şe’rilə səhnəni təsvir edirəm
Sözlərin mən belə təfsir edirəm
Ay cəvanlar tanıyın abbası
Olsun ehsasız, onun ehsası
Qabaran şahkarı abbas elədi
Qızılı döndərib almas elədi

Qorxu panbıq olaraq, ğeyrət əlov,
-Yandırıb qorxunu atəş təkin o
Ğeyrətin mö'cüzəsin qıldı əyan
Duzəxi xəlqimizə etdi cinan
Təcrebə məğzimizə dolmalıdır
Bu cəvan bizlərə məşq olmalıdır
Can verib, kütlələri şad elədi
Zülmüdən milləti azad elədi
Bu cəvan xəlqə gərək örnək ola
Ta səadət bizə məhrəm tək ola
Bu cəvan babəkə saleh nəvədir
Fəth edən zirvəni fateh nəvədir
El bunun getsə yolun, kamə çatar
Çölə basqınçını yurdundan atar
Sınmayın şişə tək, almas tək olun
Qorxusuz qəhrəman abbas tək olun.

## Urmu təhlükəsi

Tünbətün düşdü ətabək itilib
Urmuda fitnə qılıncı itilib
Üz verib qorxulu dünya savaşı
Bölgədə moslem o tərsa savaşı
Türkülə rus, döyüşə başladılar
Bir-birin bombailə daşladılar
Ruslara arxa duran ərmənilər
Van düzündə oturan ərmənilər
Asori ferqəsi, çapqın-dəlisov
Adlanan adları aləmdə "cilov"
Öz hokumətlərinə yağı olub
Dovlətə qarşı silahilə dolub
Çün o gün türk hokumətçiləri
Qıymadı öldürə minlər nəfəri
Bəlkə olmuş mədəniyyət səbəbi
Lacərəm səbr edib udmuş ğəzəbi

Belə çarə olara ol gün edib
Urmu məhrusəsinə sürgün edib
Başlanışda belə izləncə olub
Urmu şəhri asorilərlə dolub
Yayılıb salmasa, köhnə şəhərə
Xoyla sulduz arası həndəvərə
Bölgənin əhli çıxıblar qabağa
Etdilər hörmət o xidmət qonağa
Ğəm şəriki olaraq ğəmlərinə
Rəhm edib gözlərinin nəmlərinə
Göstərib atifədə səlqələrin
Verdilər evlərin, azuqələrin
E'timad eylədilər sözlərinə
Qatdılar rəğbətilə özlərinə
Oxşadıblar fuğara bəndələrə
Verdilər yer o pənahəndələrə
Qıssa söz, ərmənilər ki qovulub
Urmu şəhrində pənahəndə olub
Qaldılar sakit o sahmanda belə
Saldılar qalxışa ta fürcə ələ
Ondakı xaricəli soltəçilər
Yox gorüb urmuda məşrutəçilər
Paris o ləndən o məsko bir olub
Sonra amrikada tərhə qoşulub
"şet" çəkib nəqşə, verib yerlə yaraq
Etdi kətlərdə cilovlar oturaq

Yankılar konsuludur döktür şet
Siynədə xəyyer adilə etiket
Zahirən sazladılar xəstəxana
Yığmağa əfradı olsun bahana
Yaradıblar belə cəngin sitadın
Qoydular məkrilə xeyriyyə adın
Adı xeyriyyənin olsun arada
Bir qoşun ərmənilərdən yarada
Asorilər tapıb axtardığını
Ölkəmizdən yarıb öz yardığını
Dedilər bir-birinə hazir olaq
Məmləkət qurmaq üçün qadir olaq
Boşadıq indi ki türkiyyəni biz
Ərmənistən edək urmiyyəni biz
Mustəqil olmağa fursət yaranıb
Ərməni xəlqinə vusət yaranıb
Rusda vermişdi belə söz olara
Qorumaqla olacaq göz olara
Çün yaraq saldılar öz əllərinə
Urmunu aldılar öz əllərinə
Eləki oldu musəlləh hamısı
Etdilər bu sözü mətrəh hamısı
Gərək istiqlala yerlik salına
Əsləhə xəlqin əlindən alına
Olsa ğeyrətli müsəlmanda silah
Qoymaz olsun bizə bu soltə mubah
*

Vay o gündən ki səfə doldu hamı
Urmuda xəlıe silah oldu hamı
Səhnədə xəlqi görəndə əli boş
Oldular soltəçilər qırmağa xoş
Söz yetib qətl o cinayət gününə
Çatmamış xəlq qiyamət gününə
Urmuda qopdu qiyamət gecəsi
Nə qiyamət! De cinayət gecəsi
Döndülər qorxu şaxan ıldırıma
Başladı ərmənilər soyqırıma
Qan tökənlər bağırır əldə yaraq
Küçələrdə çığırır arvad-uşaq
Verməyir ləhzə aman güllə səsi
Çulqayıe güllə səsin, nalə səsi
Əl açıb ğarətə soyğunçu cilov
Aparır töylədən at, quzla. Bizov
Sındırır cə'bə görəndə qıfılın
Talayır inci cəvahir, qızılın
Ananın göz qabağında balasın,
-Öldürür var-yoxun asan talasın
Qudurub amma şərəf oğruları
əl tapıb dürrə-sədəf oğruları
yırtıcı sankı tapıb tavusa əl
girib evlərdə açır namusa əl
abıru pərdəsi qəhrən cırılır
namusun hifz eləyənlər qırılır

öldürəndən sora məxluqu cilov
od vurub evlərə, qaldırdı alov
asori, hitler üzün ağ elədi
ondakı od kürəsin dağ elədi
xəlqi yandırsada hitler kürədə,
-Kürəsin qoşdu əqəllən bərədə
Amma çapqın asori heyvərəsi
-Etdi xəlqin öz evin od kürəsi
Xəlqi yandırmadı hitler bu sayaq,
-Od içində kül olub yüzlər uşaq
Tökülüb yan-yana insan ölüsü
Xar olub yerdə müsəlman ölüsü
Neçə gün yerdə qalıblar ölülər
Konsulu fikrə salıblar ölülər
Hakimiyyət hesabın ürzədə get
Dəfn hökmün verib amrikalı şet
Neçə günlər ölü dəfn eylədilər
Nə verib ğusl, nə kəfn eylədilər
Basdırıb təşkilatın işçiləri
Torpağa gündə neçə yüz nəfəri
Hələ bunlardan əlavə, neçə min
-Çalışan dəfn qılıb öz ölənin
Bürünüb urmu müsibət donuna
Çatmadı soyqırım amma sonuna
Qan içib ərmənilər doymadılar
Görünən xəlqi, diri qoymadılar

Gün-bəgün qətl o cinayət çoxalıb
Ardıca fəqr o fəlakət çoxalıb
Yox sözüm aclığa miyzan deməgə
Leşi, məcbur olub insan yeməgə
Yenə türk ordusu imdadə çatıb
Ölkəmizdən çölə əşrarı atıb
Urmudan ermənilər gərçi qaçıb
Qarabağda qisasın amma açıb
Rusa yaltaqlanıb, olmaqla nökər
Qapsamış türk ocağın ermənilər
Olmadı urmudada fitnə tamam
Soltəçi öz işinə verdi dəvam
Bu dönə yankı sifarətxanası
Saldı xəlq içrə nejad fırtanası
Üzdə yardım sözü mətrəh elədi
Pul verib kürdü müsəlləh elədi
Qallaş ardınca gələn ovbaş olub
Kürd cinayətdə cilovdan baş olub
Kürdülə ərməni gər olsa qiyas
Var qiyas etməgə əldə bu əsas

Şərmidə pərdə cıran ermənilər
Urmuda xəlqi qıran ermənilər
Laəqəl ol hududa yetmədilər
Suyu məzlumlara qət etmədilər
Kürdlər amma su yolun bağladılar
Təşnə, xəlqin ürəgin dağladılar

Məncə yox soltəçinin yaxşı-pisi
Birdi amrikası ya ingilisi
Nəngdir amma pisin rabitəsi
Kürdülə ingilisin rabitəsi
Amili qayda məsirindən azıb
Namədə"seyyid taha"ya yazıb:
Kürdün əsli sözün inşa eləmə
Döyüşün illətin ifşa eləmə
Demə basqınçı yolun biz gedirik
Denə azadlıq üçün cəng edirik
İngilisdir bəli qəttalə dayaq
Söz qoyur ağzına kürdün bu sayaq
İxtisarla sözü təşrih elədim
Mən nəticə belə təsrih elədim
*
Niyə vermiş elə bu hadisə üz
İlləti aydın olubdur yüzə-yüz
Xoş məsəldir gərək ibrət alasan
Çoxda rəhm etməki rəhmə qalasan
Yada rəhm eylədi urmiyyəlilər
Öz atın peylədi urmiyyəlilər
can deyiblər hamı yoldan keçənə
yer veriblər asori qan içənə
yoxumuş eldə hoviyyət tələbi
bu olub fitnənin ilkin səbəbi
birdə xayin sözünə çün inanıb
öz alışdırdığı atəşdə yanıb

“ərşədolmolk”u salanlar qabağa
Saldı öz başların ancaq aşağa
Çünkü o servət o qudrətdən ötür
 Neçə gün xəlqə hokumətdən ötür
Üzdə lap olsada el mö’təbəri
Oldu gizlincə”simitqo” nökəri
Yurda zillət tozun axır elədi
Kürdləri xəlqə müsəllət elədi
Birdə qorxaxlıq olub əsl səbəb
Gətirib el başına qəhr o ğəzəb
Faydasızdır suçu tovcih eləmək
Yaxşıdır gerçəgi təşrih eləmək
Göstərir xəlıe silah məsələsi
Şəhr vəzıin o döyüş mərhələsi
Əsləhə xəlqin əlində çoxumuş
Ürzəli başçısı ancaq yoxumuş
O gün əşrarla savaşmaq yerinə
Bir olub sel kimi daşmaq yerinə
-Verdi yalvarmağa fərman uləma
Əlinə ağ ələm aldı zoəma
Bu əməl qan tökəni etdi cəri
Olmadı göz yaşının heç əsəri
Baradır xəlıe selah olmaq özü
Etməsin birdə qəbul el bu sözü
Kölgəli şe’rim adaqlır söyüdü
Bəzək olsun sözə türkün öyüdü

Soyulan bir kişi gəldikdə cana
Dedi türk ordusunun başçısına
izə kürdlər çox əziyyət eləyir
Gəlir əşyamızı ğarət eləyir
Başçı verdi ona bir qəbzə tüfəng
Üstünə əlli ədəd qoydu fişəng
Dedi: bu əslahədir əmrə mota
Namusundan get özün eylə difa
Yenə mümkündü xətər yurda dola
Qəhrəmanlar gərək amadə ola.

## Səttarxan və baqirxan

Yeni tariximizin məsdəri var
Bircə məşrutə, iki öndəri var
Sağ qolu olsa əgər səttarxan,
-Nehzətin sol qoludur baqirxan
Cüt gələr adları xəlqin dilinə
Bəzək olmuş ötəkin ay-ilinə
Uca dağlar adı birgə, sanasan,
-Car olar dildə səhənd o savalan
Böyük insanlığa malik ikisi
Dünbələndüz yola salik ikisi
Bir-birindən olaraq sağlam igid
Mehriban xəlqə rəşadətdə rəşid
İkisi başçılıq etmiş döyüşü
Onbir ay çəkdi savunma ötüşü
İkisi bir-birinə verdi ürək
Bu ona həm o buna oldu kömək

Təbrizin gün çıxanın baqirxan,
-Saxladı, gün batanın səttarxan
Qoşa qoçlar qoşa də’va elədi
Xəlqə məşrutəni ehya elədi
Gəldi səttarxana sərdar ləqəbi
İsə, baqirxana salar ləqəbi
Arada təfrəqəçi istəm edib,
-Bir-birə onlar ola bəlkə rəqib
Müstəbed çox çalışıb bəhrə ala
Onların ortasına fitnə sala
Amma onlar bu fəribi yemədi
Aldanıb şöhrətə mən-mən demədi
Bəlkə bel bağladılar bir-birinə
Atifə çağladılar bir-birinə
Verdilər əl-ələ həran ikisi
Dedilər bir-birə: can-can ikisi
Bu məhəbbət, bu sədaqət, bu viqar
Verdi böhranda nəticə okı var
Üz verib salara ol gün ki hərəc
Yenə sərdar ona qaytardı fərəc
Qəlbilər siynədə çırpındı o gün
Şaha baş əgdi, həmı sındı o gün
Qurdu saları muşaver hacılar
Sirəçi, şahçı muzəvver hacılar
Oxudu quş dili naseh o qədər
Salara etdi nəsihətlər əsər

Lacərəm yumdu bəsirətli gözün
iricə səhvə duçar etdi özün
əfradından silahı aldı özü
verdi "tacer başı"na, qaldı özü
yə'ni istibdada təslim olaraq
öz-özün saldı əsalətdən uzaq
tək bu yanlışla adı xeyli batıb
amma səttarxan o gün kamə çatıb
gəldi rus konsulu sərdarı görə
rus pənahəndəligin müjdə verə
eləki mətləbin etdi e'lan,
dedi rus konsuluna, səttarxan
mən əbulfəzl pənahəndəsiyəm
xəlq, bəndin açanın bəndəsiyəm
da'va qurtulsa, zəfər bəlli olar
uduzan kimdi, səhər bəlli olar
Konsulu saldı yola, etdi qiyam
Öncə baqirxana göndərdi pəyam
Ay mənim arxadaşım gəl özünə
Et yaman gündə əməl  öz-sözünə
Qıl vəfa əhdimizə, çökmə dizə
Öldü var, döndü yox aləmdə bizə
Eşidib vaqiəni baqirxan
Ki necə sıx dayanıb səttarxan
Necə soltə axışın sədd eləmiş
Rus pənahəndəligin rədd eləmiş

Necə ğeyrət camı tufanda dolub
Tək əbülfəzlə pənahəndə olub
Coşdu birdən-birə, etdi həyəcan,
-gəldi ol dəm özünə baqirxan
Şuarın eylədi mətrəh yenidən
əfradın qıldı musəlləh yenidən
döyüşüb ərsədə tufan elədi
ğəflətin, fəthilə cobran elədi
müstəbed atlıların qovdu çölə
möhtəşəm şazda bağın aldı ələ
yaraq əllərdə, dodaqlarda gülüş
etdi sərdar özü salarla görüş
məşvərət eylədilər islah üçün
vurdular qalxışa birliklə sütün
olmasaydı ikisi birgə əgər
ələ gəlməzdi böyük fəth o zəfər
düzgün öndərligə əlhəq yaraşan,
-Kültürün hər ikisi verdi nişan
Amma ehrazım olan nuktə budur
Xəlqə çox lazim olan nuktə budur
Adlanıb gərçe savadsız ikisi
Olub elm aləmi adsız ikisi
Nehzətin başlanışından sonuna
Bürünüblər ki həqiqət donuna
Döyüşüblər vətən uğrunda qoşa
Düşsələrdə nə qədər bərkə-boşa,

Onların özlərinin ixtilafın,
-Yox görən, ta edə öz e’tirafın
“Şex xiyabanı”nın amma hamaşı
Neçə aydın, şəhərin yekkə başı
Elm, sahibləri, əllərdə qələm
Açdılar ixtilafa yekkə ələm
Yol nişan vermədilər, yol azana
Verdilər balta, elə, gor qazana
Qatdılar zəhri, məhəbbət aşına
Tökdülər xəlqimizin kül başına
“kəsrəvi” intiqadı etdi peşə
“tənqidiyyə” quruhun saldı işə
Öndərə eşq o məhəbbət yerinə,
Etməli faydalı söhbət yerinə
Yava söz qıldı, qəzetlərdə bəyan
Əsəri təxribatın oldu əyan
Müstəbed çaldı, böyük xəlqə zəfər
Öldü öndər, atanış oldu hədər
Elm, məfkurəilə olmasa cüt
Qoyar öz xəlqini böhranda hürüt
*
Təşkilat, başçıları olsun ayıq
Etməsin təfrəqələr xəlqi yazıq
Sərdara, salara təmkin eləsin
İttihad şe’rini təzmin eləsin
Onların bir-birinə anlayışın
Dərk edib, anlasın öz arxadaşın

Vətən oşşaqı riyasət diləməz
Ucalan başlara töhmət çiləməz
İntiqad dayirəsin, tutsa ğərəz,
-Törədər camiədə xəlqə mərəz
İntiqad islah üçünsə xoş olar
Yoxsa düşmən cibinə xeyri dolar
Mənsəbə, şöhrətə xatir çalışan
El odunda ola bilməz alışan
Vətən eşqində yanan sadiq olar
Öz kökü, öz dilinə aşiq olar
Eşqilə amma şəhamət qoşadır
Qateiyyətlə sədaqət qoşadır
Şuvinisti çalışıb razı salan
Ola bilməz elə azadlıq alan
Kürdülə bəzmidə bahəm oturan,
-Çevrilib, türkə olub zərbə vuran
İstəsə xəlqə səadət diləsin
Gərək əvvəl özün islah eləsin
Söz budur, olsa ələkdən, əliyən
Qəhrəmandır özün islah eliyən.

## Səttarxan və rus konsulu

Nayıbəkbər xətibə başçı olub
Xətibin səngəri qoçlarla dolub
Hünərin eylədi hər yerdə əyan
Layiq olmaqda özün verdi nişan
Oldu səttarxana hər anda kömək
Qoymadı təhlukədə sərdarı tək
Lap o saətdə ki düşüb can xətərə
Müstəbed qeşri tapıb əl zəfərə
Saldı fursət yenə, əşrar əlinə
Şəhrilər düşdü sitəmkar əlinə
Bir fəqət baş uca təbriz dayanıb
Oda sındı, "əmirəqız" dayanıb
Bir tərəfdəndə ğənim ruslar olub
Soltəçi vahiməsi şəhrə dolub
Müstəbedlər dayağı oldu tezar
Vəli zahirdə verib milli şuar
Qan tökənlər yetişib iqtidara
Sərdarın mənzili düşdü hesara

Hamı təslim olaraq zillətilə,
-Qaldı onaltı nəfər izzətilə
Get bə get cəngin olur vəzii şədid
Yığışıb bir evə onaltı igid
Qılmış öz əhl o əyalilə vida
Atanışdan edir ol cəmii difa
Dolu tək güllə yağır başlarına
Vəli xəm vurmur olar qaşlarına
Şəhrin üstün bürümüş qarə duman
Qalmış evlərdə cəmaət nigəran
Hamı çıxmış dama, tər üzdən axır
Sərdarın cənginə heyrətlə baxır
Dil açıb yalvarır allahə belə
Saxla səttarxanı allah bu elə
Neçə ləhzə kəsilib güllə səsi
Küçələrdən ucalıb nalə səsi
Xəlq elə bildi ki səttarxan ölüb
Hamının qəlbini ğəm tiyri bölüb
Arzuman zirvəsini çən bürüdü
Təbrizi nale o şiyvən bürüdü
Amma səttarxan o dəm sağdı hələ
Sel önündə eləbil dağdı hələ
Gərçe böhranə düşüb, qorxusu yox
Nuh tufanə düşüb, qorxusu yox
Bax o tufanda onun sovlətinə
Verdigi imtəhana, ğeyrətinə
*

İki sərdarə əmannamə gəlib
Nə əmannamə! Ki həngamə gəlib
Bir əbülfəzlə, hüsen qardaşına
Birdə səttarxana el sırdaşına
Kərbəla vaqiəsin al nəzərə
Canlar o çöldə düşəndə xətərə
Gəldi əbbasə əmannamə ki sən,
-Olma əsla nigəran, əmnidəsən
Alqana, qoyma vucuduz boyana
Götür üç qardaşını gəl buyana
Göndərib valı, "ziyadoğlu" pəyam,
-Sənə,hazirdi verə cah o məqam
Dedi: sarsaqlama, olsun sənə ar
Kəs əmannamə sözün, vermə şuar
Mənə lazim deyil, öndərdən uzaq,
-Nəngilə bir neçə gün xoş yaşamaq
Batili, həq yerinə xoşlamaram
Mən hüseynin ətəgin boşlamaram
*
Necə səttarxana gör namə gəlib
Necə rus qəlbini, söz tiyri dəlib
Gəldi rus konsulu sərdar evinə
Ağ ələm saçmağa qoçlar evinə
Dedi sərdarə: döyüş etmə daha
Çün hamı təslim olub padişaha
Məmləkətdə hamı susmuş, oturub
Ağ ələm, öz qapısı üstə vurub

Ancaq onaltı nəfər, siz qalısız
Canızı müftə bəlayə salısız
Gəzmələr üstüzə əlan tökülər
Çox yubansaz, yerə çox qan tökülər
Az qalır məqtələ e’zam olasız
Hökm sadir olub e’dam olasız
Xoş deyil amma fədakarə ölüm
Heyfidir sən kimi sərdarə ölüm
Bəs təmənnayə inayət buyurun
Qapızın üstə ələm sizdə vurun
Şən həyatın yükünü xoş daşıyın
Rus pənahında səlamət yaşıyın
Oldu səttarxana tovhin bu xetab
Konsula verdi belə sərt cəvab
Mən əbülfəzl pənahında xoşam
Özümü yadlara heyhat qoşam
İstirəm yeddi vilayət başa-baş
Edə bu əsli reayət başa-baş
Gecə amal suyum camə dolar
Kim muzəffərdi səhər aydın olar
Eşidib bu sözü konsul qayıdıb
Eləbil yatmışı sərdar ayıdıb
Bəli, düşmən əlinə, vermədi əl
Amma öz və’dəsinə etdi əməl
Az mucahidlə gecə qıldı qiyam
Mətləbi etdi şucaətdə təmam
Bir bə bir yıxdı setebdad ələmin
Saçdı məşrutənin azad ələmin

*

Bu söz üç yerdə ki tikrar olunub
Muxtəlif qəsdilə izhar olunub
İki sərkərdə əmannamə cırıb
Bərdəlik zəncirin aləmdə qırıb
Bir əbülfəzl rəşadətdə rəşid
Birdə səttarxən əsalətli igid
Sözümün diqqət elə sehhətinə
Qatma əfsanəçilər söhbətinə
İstirəm dərk edə ellər bu işi
Saxladı nehzəti onaltı kişi
Qəhrəmanlar kı onaltı nəridi
Biri çal başlı nayıbəkbəridi
Qan axıb "lalə düzü"n yaşlamamış
Xətibin cəngləri başlamamış
Nayıbəkbər adı tarixidə var
Sərdara, salara nehzətdə havar
Öncədən yə'ni həmasə yaradıb
Adı, tarix səfəhatin qaradıb
Çün adı "bəlva" kitabında gəlib
Belə o incini "veycuyə" dəlib
Nayıbəkbər xətibin eldaşıdır
Qoç mucahidlərinin yüzbaşıdır
Adlanıb təbrizin esyan zəmanı,
-Nayıbəkbər xətibin qəhrəmanı.

## Xətib döyüşü Cuma axşamı

Təbrizin ğərbi cənubunda xətib
Bir məhəldir özü, tarixi əcib
Şəhərin bölgəsinin bir qoludur
Qırağı, sərdəri, təbriz yoludur
Üz verib orda xətib cəngləri
Oxunub vurhavur ahəngləri
Kimsə məşrutə kitabın oxusa
Məğzə tarix səfəhatin toxusa
Görər aydınca xətib cənglərin
Xəlqinin himmət o fərhənglərin
*
Hər tərəfdən bürüdü şəhri xətər
Xətibə gəldi bu dəhşətli xəbər
Ki sabah təbrizə tufan yetişir
Almağa şəhri səmədxan yetişir
Top-tüfəngilə gəlir xəlqi qıra
İstiqamət cecimin bəlkə cıra

Şəhrə amma necə daxil olacaq?
Tək xətibdən gecə daxil olacaq
Tutdu vəhşət xətib əhlin nə sayaq?
-Hərə bir yurda köçüb arvad-uşaq
Qaldı ğeyrətli dilavər kişilər
Nayıbəkbərlə qələndər kişilər
Qazdılar özlərinə səngər olar
Saldılar məntəqədə ləngər olar
şaxta fəslində, qışın öncə ayı
cümənin axşamı, ziyhəccə ayı
həmlə başlandı günün orta çağı
qoşunun birdən açıldı qabağı
dördyüz atlı çaparaq halda yetib
"lalə" səngərlərinə həmlə edib
Ğəflətən qıyha çəkib laləlilər
Düşmənə pəlmə tikib laləlilər
Tüpürüb, ovcuların yaşladılar
Atlılarla döyüşə başladılar
Qan tərin üzdən olar silmədilər
Can nədir, xəlqə görə, bilmədilər
Qonşusun sanma kı qonşu ötürüb
Nayıbəkbər nəfəratın götürüb
Yolu qıssatmağa xatir dəyişib
Lalə səngərlərinə tez yetişib
Bir-birə lalə, xətib can dedilər
Qan tökən düşmənə qan qan dedilər

Nayıbəkbər dedi yoldaşlarına
Cümlə səngərdəki sırdaşlarına
Hünər isbat edənin dövranıdır
Bizə bu ərsə sınaq meydanıdır
Cayizə almağa şirkət eləyin
Siz cəvan, mən qoca, himmət eləyin
Bağlaşaq atlıları yıxmaqda
Baş uca, mərhələdən çıxmaqda
Kimsə bir atlı vurub, yıxsa qəşəng,
-Alacaq cayizə beş danə fişəng
Doldular səngərə cəng eylədilər
ərsəni düşmənə təng eylədilər
hərə bir atlını düz etdi hədəf
güllə yağdırdılar əşrarə tərəf
neçə atlı, atıla bir yıxılıb
amma atlar yedi çox tir yıxılıb
yıxılan gördü kü can qorxusu var
piyada qaçmağa üz qoydu naçar
qalanı gəlmədi diygər bəriyə
qaçdılar sürətilə "sərdəri"yə
*
Neçə qoççaq özünə iş elədi
Ehtiyatla çölü təftiş elədi
Gördülər yox, yıxılıb çöldə qalan.
-Amma vardır tamaha qurdu salan
Toxunub güllə, ölübdür neçə at
Verib əldən, bəşər üstündə həyat

Nayıbəkbər baxıb əfsus elədi
Öz xəyalın ğəmə mə’nus elədi
Cayizə vermədi güllə atana
Ehtiyatsız döyüşə əl qatana
Zülm odun, biz dedi: söndürməliyik
Qan tökən zalimi öldürməliyik
Vurmusuz güllə günahsızlar ölüb
Dilsiz olduqda pənahsızlar ölüb
Adın insan qoyanın vicdanı var
Heyvanı gözlər, onunda canı var
*
İlk cəngi xətibin çatdı sona
Ğəm tozu qoymadılar şəhrə qona
Yanaşıb ay, eləbil haləilə
əl-ələ verdi xətib laləilə
qoşa, səngərdə difa eylədilər
bir-birin sonra vida eylədilər
hərə öz səngərinə qıldı rocu
sorakı vaqiələr tapdı voqu
qəhrəmanlar qoşuna çaldı zəfər
saxladı nehzəti məşrutəçilər.

## Xətib döyüşü cümə günü

Doldu axşam zəmanı şəhrə xəbər
Dayanışda xətib adlandı bətər
Dillərə düşdü nayıbəkbər adı
Bəlkə dillərdə olub əzbər adı
İstiqamət səmərin çün yedilər
Bu sözü bir-birə ellər dedilər
Xətibin səngəri tufan eləmiş
Düşməni ərsədə heyran eləmiş
Dedigi söz ayağında dayanıb
Dördyüz atlı qabağında dayanıb
Qoymayıb onları gəlsin bəriyə
Qaytarıb xiffətilə sərdəriyə
Yel dağıtdı eləbil həryana köz
Çatdı qafqazlı mubarizlərə söz
Heyrət əl verdi o nehzətçilərə
Döyüşən noxbə ədalətçilərə
O quruldan seçilib altı nəfər
Hər biri xibrə, verən yaxşı nəzər

Xətibin baxmağa səngərlərinə
Aşina olmağa ölçərlərinə
İzn alıblar gecə səttarxandan
Bəlkə vaqif olalar böhrandan
Xətibə cümıə günü gəldi olar
Sanma bir saniyə dincəldi olar
Araşaq məntəqəni söylədilər
Başa-baş bölgəni seyr eylədilər
Addım-addım kı gediblər qabağa
Düşdülər xeyli xətibdən uzağa
Görünüb "axmaqəyə" gözlərinə
Cəlb ediblər qoşunu özlərinə
Beşyüz atlı atına oldu səvar
Hamısı yırtıcı, sankı cənəvar
Vurhavur, nə'rə çəkib, söylədilər
Altı mərd üstə hucum eylədilər
Altı qafqazlı hünər etdi əyan
Piyada oldular atdan o zaman
Tutaraq əldə tüfəngin hədəfə,
-Dağılıb tez hərəsi bir tərəfə
Hər igid bir cola tapdı özünə
Səngər, o qovdalı yapdı özünə
Da'va başlandı, çölün vəzii çönüb
Güllə səsləndi, sukut şəmii sönüb
*
Nayıbəkbər baxacı gözdə baxır
Görübən atlıları sel tək axır

Eşidib nə'rə səsin, güllə səsin
Atların kişnəməsin, həmlə səsin
Söylədi səhnədə şahidlərinə
Xətibin cümlə mucahidlərinə
Səngəri sürətilə tərk eləyin
Fori qafqazlıları dərk eləyin
Qoymayın ərsədə yalqız oları
Saxlayın əmnidə yalnız oları
Çalışıb qoymayın ancaq habelə,
-Bir nəfər qafqazın əhlindən ölə
Yox sözüm ki döyüşə gəlmiş olar
Belə qanlı görüşə gəlmiş olar
Xətib adilə nə ki söz yayılır
Bizə indi qonaq onlar sayılır
Qanımız çıxsada bu çöldə dizə,
-Qonağın hörməti vacibdi bizə
Bizə istəkli qonaqlardı bular
Türkün ovladı, qoçaqlardı bular
*
Siz fəqət soltəçini yıxmalısız
Zalimi təngə salib sıxmalısız
Xətib əfradi çıxıb əldə yaraq
Qafqaz oğlanlarına durdu dayaq
O tikanlı çölü başdan ayağa
Sinə üstə sürünüblər qabağa
Hərə bir pəlmə ki dəydi gözünə,
-Oranı eylədi səngər özünə

*

Lalə səngərlərinə çatdı xəbər
Fursəti etmədilər ləhzə hədər
Nayıbəkbər səsinə verdilə səs
Sankı tufan quşu tərk etdi qəfəs
Səngəri vahiməsiz boşladılar
Sadə çöldə döyüşü xoşladılar
Çatmağa dadə, vurublar kəsə yol
İbtikar xərcə veriblər bol o sol
Birləşib ələhəli qoçlar o dəm
Açdılar cəng məsafında ələm
Qopdu həngamə necə? gəl görəsən!
Güc, hərif oldu gücə, gəl görəsən!
Açılıb güllə, qıjıldır havada
Gəzib amacı, vıjıldır havada
Ildırım misli səsi göydə gəlir
Dəyib amma hədəfi yerdə dəlir
Atlılar dəstə bə dəstə yıxılır
Yerə atdan üzü üstə yıxılır
Bə'zisi atdan elə xəsmi salır,
-At çapan öz atı altında qalır
Bə'zisə güllə məharətlə saçır
Yıxılır atlı atı çöldə qaçır
Yer tutub əsmə, göyə toz ucalıb
Piyada, atlı, toz altında qalıb
Gördü düşmən ki deyil əmn məhəl
Tapa haşa o mucahidlərə əl

Özünə qaçmağa ancaq yol açıb
Sərdəri yurduna vəhşətlə qaçıb
Belə əşrarə zəfər çaldı xətib
Beşyüz atlı qabağın aldı xətib
Bir nəfər vermədi eldən tələfat
Hamısı sağ qayıdıb, tapdı nəcat
Yaralandı biri qafqazlıların
Almadı amma yara ixtiyarın
Nayıbəkbər işi asan elədi
Öz əlilə ona dərman elədi
*
İltifat eylə doğurdan şərəfə
Qafqaz əhlində muqəddəs hədəfə
Görcəgin təngidə soydaşlarını
Saldılar mehnətə öz başlarını
Buraxıblar həşəmi, ayiləni
Tez gəliblər bu uzaq fasiləni
Qoşulublar vətən oğlanlarına
Boyanıblar çoxu alqanlarına
Amma vardır ana yurdunda nə çox,
-İddiası çox olan ğeyrəti yox
Vətənin korlasada soltəçilər,
-çıxmaz evdən eşigə, görsə xətər
El gərəkdir sevə qafqazlıları
Gətiriblər evə qafqazlıları
Xətibin duz çörəgindən yedilər
Qəhrəman xalqinə alqış dedilər

## Xətib döyüşü şənbə günü

Yazman etmiş ki xətibdən görüşün
Səbt qılmış belə şənbə döyüşün
Cümə və axşamı kı sındı qoşun
Ərsədə çün yava çırpındı qoşun
Sınmağın gördü səmədxan qudurub
Sankı bat bat yedi heyvan qudurub
Toxunub şə'ninə xiffətli sınış
Qurumun peylədi mehnətli sınış
İstədi zə'fini cobran eləsin
Qudrətin millətə e'lan eləsin
Gecə başçılları nazir elədi
Yuruşa ləşkəri hazir elədi
Güvənib heyvərələr heykəlinə
Qəsd edib təbrizi alsın əlinə
Odur əmr etdi, mərağə qoşunu,
-Başa-baş həmlə edib şənbə günü

Ğəflətən axmaqəyə səmtindən
Hucumun başladı şəhrə düşmən
Əlli şeypurçı qabaq səfdə gəlir
Qulağın pərdəsin ahəngi dəlir
Öncə şeypurilə başlandı axın
Eləki şəhrə qoşun gəldi yaxın
Neçə top gülləsi əvvəl atılıb
Başqa afzarə sora əl qatılıb
Döşlərin, cəng həyulası sağıb
-Dolu tək, el başına güllə yağıb
Açılır top elə bil yer cırılır
Toxunur güllə, cəmaət qırılır
Amma ellər dayaq olmuş xətibə
İttihadla hamı dolmuş xətibə
Var mucahid bakıdan, astaradan
Birləşib xeyli həmasə yaradan
Gürcü aslanları, gəncə qoçağı
Qafqaz oğlanları əldə yarağı
Geçib aşqın arazı cəngə gəlib
"salmas"ın peşnamazı cəngə gəlib
Yaradıb köhnə şəhər oğlu "bilal"
Öz huzurilə mucahidlərə hal
Qoca təbrizdə mucahid nəkivar
Tökülüblər xətibə dildə şuar
Hamıdan tez yetişib sərdar özü
Ondaki cəngin alovlandı közü

Lap əzəl gülləsini səttarxan
Vurdu şeypur çalanın ağzından
İkiminci tirinə etdi hədəf
Başqa şeypur çalanı qıldı tələf
Dəldi sağdan gələnin sağ qulağın
Boyadı alqanına al yanağın
Sağ qulaqdan yol açıb sol qulağa
Dağıdıb beynini çıxdı qırağa
Buraxıb sol ələ üçminci şarın
Qırdı soldan gələnin şahdamarın
Bu dönə tərsə çıxıb şar qırağa
Sol qulaqdan yol açıb sağ qulağa
Gərək əvvəl səsilə zülm səsi,
-Açıla sonra mubariz nəfəsi
Ərsədə atlı, piyadə qatışıb
Var gücüylə iki ləşkər atışıb
Çəkdi cəngin odu üç saət alov
Təbriz əhli yedi evlərdə xınov
Qaş qaraldı, çətirin açdı zəfər
Qaçmağa üz çevirib soltəçilər
Verilib hər iki taydan tələfat
Tökülüb kövşənə ölmüş nəfərat
Düşmənin bəski olub çox öləni
Gəldi ordu çəkənin pay böləni
Az nişan verməgə cəngin şərini,
-Üç yerə böldülər ölmüşlərini

Birazın soydular "axmaqəyə"də
Qəbrə lüt qoydular axmaqəyədə
Birazın etdilə tabutə səvar
"xılıcan"da aparıb quyladılar
Çox qəbir qazdı qoşun sərdəridə
Etdilər dəfn çoxun sərdəridə
Qəhrəmanlar gecə halva yedilər
Zəfəri bir-birə təbrik dedilər.

## Xətib döyüşü məhərrəmdə

Keçdi ziyhəccə məhərrəm yetişib
Xətibə yandırıcı ğən yetişib
İldə on gün ki tutar şiyıə əza
Yenə başlandı, hamı geydi qara
Cibhələr sakit olub, da’va yatıb
El başın matəmə təbrizdə qatıb
Keçdi onbir günü matəm ayının
Oniki minci günü ğəm ayının
Göstərib düşmən özündən hərəkat
Oldu amadə bu taydan nəfərat
Təbrizi almağa sultan qoşunu,
-Gətirib həmlə səmədxan qoşunu
Xətibin səngəri kəsdi qabağın
İşlədib muxtəsər odlu yarağın
Bir qədəm qoymadı gəlsin qabağa
Vurdu qandal mutəcaviz ayağa

Yağdırıb güllə sora şiddətilə
Qaçmağa məcbur edib zillətilə
Səngəri tərk, mucahidlər edib
Düşmənin ardıca sürətlə gedib
Bəlkə azad edələr sərdərini
Ta səmədxan görə öz keyfərini
Piyada cümləsi. əllərdə yaraq
Eləki düşdülə səngərdən uzaq
Xamsıdıb məkrilə düşmən dalıdan
Yügürüb qırmağa birdən dalıdan
Oynadı qurd oyunu, saldı tora
Düşdü ol cəm'i mucahid hesara
Canların çulqaladı ciddi xətər
Hərbirin dövrələdi yüzcə nəfər
Yə's tufanı odəm ki əsilib
Həsr olanlar umudu lap kəsilib
Birdən ommid fəzası açılıb
Buludu yardı günəş, nur saçılıb
Gəldi sərdarilə salar ikisi
Böyük insanlığa me'yar ikisi
Hərə öz atlılariylə yetişib
Ərsənin hal o həvasın dəyişib
Aslanın yoldaşıda aslan olar
Arxa, səttarxana, baqırxan olar
Qoşadağ tək ikisi bir ucalan,
-Yaranıb arxa səhəndə savalan

Dal-dala verdi iki başçı igid
Artırıblar savaşan xəlqə omid
İki tiğ, bir iti qeyçı yaradıb
Udqu meydanda belənçi yaradıb
Açılıb qeyçi təhərrük elədi
Ləşkəri parça kimi qeyçilədi
Gərçe başlanmışıdı ilk yavaş
Çox müsibətlə sona çatdı savaş
*
Xətibin cəngi o gün oldu şədid
Çox mucahid qırılıb oldu şəhid
Yaralandı nayıbəkbər özüdə
Boyanıb qanilə, doldu gözüdə
Görcəgin yandı "həbib bəy" halına
Tez nayıbəkbəri aldı dalına
Ehtiyatla gətiribdir evinə
Ölməmiş, sağ yetiribdir evinə
Qayıdıb sonra təlaş etdi həbib
Gətirib evdə başı üstə təbib
Yudular həm yarasın bağladılar
Sevinib qızları həm ağladılar
Xətib əhli boyanıb göz yaşına
Dolanıblar nayıbəkbər başına
Həbibi çoxlu dua eylədilər
Alqış o mərd oğula söylədilər
*

Həbibə olmamış oylaqda rəqib
Tanınıb xəlqə iki atlı həbib
Çün belə dillərə düşmüşdü sözü
At yorulardı, yorulmazdı özü
Xəstəlik da'vada bilməzdi,ğərəz,
-Amma yorğun atın eylərdi əvəz
Çox bəla gördü vəli daşmadı o
Nayıbəkbərdən uzaqlaşmadı o
Odur ol gün ona qaytardı həyat
Qəhrəman, qəhrəmana verdi nəcat.

## Nayıbəkbərin qərə tüfəngi

Gəldi səttarxan inayət elədi
Nayıbəkbərdən əyadət elədi
Nayıbəkbər hələ bilmirdi özün
Danışanmırdı, açanmırdı gözün
Baxdı sərdar onun ərtaşlarına
Dedi bu cümləni yoldaşlarına
Olmasaydı nayıbəkbərlə həbib
Baş uca, xəlqə tanınmazdı xətib
Gecə keçdi, səhər el tapdı özün
Nayıbəkbər ayılıb, açdı gözün
Baxcağın eyləmədi başqa həvəs
Dedi əvvəldə tüfəngim hənı bəs?
Şənlik üz verdi qız, oğlan, gəlinə
Verdilər qarə tüfəngin əlinə
Qundağın siynəsi üstə dayadı
Belə öz qarə tüfəngin sayadı

Ay mənim qarə tüfəngim səsə gəl
Ağ günə çıxmağa, yol vur kəsə gəl
Yox sənin tək mənə yardımçı tüfəng
Həlal olsun yedigin danə fişəng
Düşmədin ərsədə düşmən əlinə
Yaraşıqsan bu döyüşkən əlinə
Sən yaman gündə mənə yoldaşıdın
Qəlbimə quvvə verən qoldaşıdın
Çox döyüşlərdə olubsan mənə yar
Etmisən düşmənimi ərsədə xar
Şakirəm ki yava çırpınmamısan
Mənə dəymiş yara, sən sınmamısan
İndi çəngimdə difa alətisən
Qoluma güc, dizimin taqətisən
Ölsəm, ovladıma kəsb eylə viqar
Diri qalsam, yenədə ol mənə yar
Sən gərək zülmü kökündən qazasan
Müstəbed qurqusun ancaq pozasan
Xoşdur əmniyyəti tə’min edəsən
Xəlqə azadlığı təzmin edəsən
ərsənin sultanı sənsən yarağım
qızdıran meydanı sənsən yarağım
məzlumun xovfunu qaldır aradan
zalimə ol vəli vəhşət yaradan
olma əllərdə cinayət yarağı
ol musavatla ədalət yarağı

acız öldürməgə qaldırma ələm
düşmənim olsada razı deyiləm
kaş savaş olmaya heç axmaya qan
kiynədən qalmaya aləmdə nişan
qan tökənlərdə törətmiş ki neza,
-Ad qoyub cənginə əlbəttə difa
Həqqin üstə çəkilən pərdəni cır
Cəngin öz riyşəsin atəş elə qır
Sülhün ehyasına çırpınmalısan
Yoxsa məhkum olaraq, sınmalısan
Kültür olsaydı umum xəlqdə çox,
-Heç deyərdim: yarağa həcəti yox
Amma şənlikdə mudam ol yarağım
Lap qızıl gülləilə dol yarağım
İlqarım sənlə budur kamə çatam
Bəy, gəlin toy tuta, mən güllə atam
Qəhrəmanlar düşünüb el səlahın
Sülhə xatir yerə qoymaz silahın

# Tülkü və səmədxan

Müstəbed sındı, görüb ərsəni təng
Daha onbeş günəcə olmadı cəng
Cibhədə amma atışma varıdı
Ara çaqqışma, qatışma varıdı
Günüz aşubluğu xoşlurdu qoşun
Gecə səngərləri boşlurdu qoşun
Yekə bir zağə ki gəlmiş gözünə
Səngər etmişdi səmədxan özünə
Təpə üstə, özü moşref şəhərə
Varıdı seytərəsi həndəvərə
Ordan eylərdi nəzarət döyüşə
Şəxsən etməzdi şərakət döyüşə
Elçisin nazir edərdi qoşuna
Fərmanın sadir edərdi qoşuna
Çün bələd oldu mucahidlər ora
Araşıb vəziini diqqətlə sora

Bir gecə bombaçılar tərh töküb
Səngərin ortasın aramca söküb
Bombanı torpağına quyladılar
Eləki bomba tapıb yerdə qərar
Simini bir tatara bağladılar
Qarabağ sovqəti, qiymətli tatar
Yə’ni vursa tatara kim əlini
Bomba patlar dağıdar heykəlini
Bu omidlə ki əməl etsə səhər
Qalmaz aləmdə səmədxandan əsər
Oldu birdən vəli sim parə gecə
Patladı bomba, həman qarə gecə
Təbrizə nənni kimi verdi təkən
Sanasan eylədi volkan savalan
Diskinib durdu hamı, qaldı səfil
Çalınıb sure serafil eləbil
Bilmədi kimsə ki vardır nə xəbər
Gecə keçdi, eləki oldu səhər
Səngərə gəldi qoşun başçıları
Gördülər torpağın üstə tatarı
Tülkünün həm qana batmış cəsədin
Kəşf ediblər səbəbin oldu yəqin
Ki qoşub bombanı məşrutəçilər
İşlərin amma edib tülkü hədər
Gecə heyvan kı gəzirmiş qırağı
Simə, səngərdə ilişmiş ayağı

Patladıb bombanı dəhşətli gecə
Xəlqə olmuş gecə vəhşətli gecə
Eşidən vəqtə səmədxan sevinib
Qurtarıb təhlukədən can sevinib
Hakimə namə yazıb verdi xəbər
Ki canımdan gecə rədd oldu xətər
Verəm əldən, yaxın olmuşdu həyat
Can qoyub verdi mənə tülkü nəcat
*
Yayılıb şəhrə qəzetlərdə xəbər
Sujə saldı ələ əfsanəçilər
Hərə çəkdi sözü bir xəttə sarı
Qızışıb ümdə xurafat bazarı
Şaye'ə saldı, ğərəz əhli belə
Çün səmədxan yaxın olmuşdu ölə
Tanrı lütf etdi vəli tazə həyat
Göndərib tülkü, ona verdi nəcat
Yə'ni bu vaqiə allah işidir
Çün səmədxan mütədəyyin kişidir
*
Yazdı şe'rə zəmanın şairəsi
Belə qoşmuş xətibin tahirəsi
Tülkü gəlmişdi acından məhələ
Axtarırdı sala azuqə ələ
Gəlməmişdi verə ğəddarə nəcat
Ona tə'min edə nekbətli həyat

Fikr edib mətləbə, həzyan deməyin
Tanrıya, tülküyə böhtan deməyin
Ölmədi, sağ o səmədxan kı qalıb,
-Yüzlər insan həyatın əldən alıb
Amma tənziylə müsibət qarışıb
Ağlamaq gülməgə əlbət qarışıb
Doğrudan çərx zərafət elədi
Tülküdən, tülkü himayət elədi
Qoyulub bomba səmədxan adına
Yazılıb ölməsi heyvan adına
Axtarış olsa bütün altı cəhət
-Yox səmədxan kimi bir tülkü sifət
*
Qələm azdı, ürəgim etdi həras
Tülkünü qıldı səmədxanla qiyas
Xoş deyil heyvanı tənbih eləmək,
-Qan tökən insana təşbih eləmək
Yox yeməkdən sora heyvan günahı
Qan töküb, çoxdu səmədxan günahı
*
Bəli, getdi gecə heyvan ölümə
Verdi o heyvanı, insan ölümə
*
Tülkü seyrangahıdır lalə düzü
Yaşayır hər dərədə bəlkə yüzü
Hərəsi bir cürə tikmiş yuvasın
Böyüdür öz yuvasında balasın

Özü ceyran kimi çöllərdə gəzər
Verd olub quyruğu, dillərdə gəzər
Çöllərə olsa bəzək lalə çiçək,
-Tülküyə, quyruğudur incə bəzək
Güvənərlər sona tək özlərinə
Xoş baxarlar, baxanın gözlərinə
Tülkülərdəndi bu kövşən səfası
Becərib incə, təbiyət havası
Qan tökəndən qala kaş camiə boş
Tülkülər lalə düzündə gəzə xoş
Qərnilərdir ki sığıncaqdı bu tin
Qorumuş xəlq yaşayiş mohitin
Canlıya lazimədir rə′fət ola
İnsana, heyvana əmniyyət ola
Görüm olsun bu gediş xəlqə uğur
Qəhrəmanlar bu yolun yolçusudur.

## Xətib döyüşü isfəndin altısında

Nayıbəkbər yatıb evdə yaralı
Düşüb istəklilərindən aralı
Xətibin səngərinə bəs o zaman,
-seçilib başçı "məhəmmmədəlixan"
El işi düşdü o günlərdə dügün
-"Ərşədüddövlə" gəlib təbrizə çün
Orduqah etdi "barınc"ı özünə
Gəldi, el qudrəti yüngül gözünə
Təqviyət etdi səmədxanda dəvam
Əl-ələ verdi iki kiynə məram
Şərqdən bağladı o şəhri topa
Ğərbdən bu çalışıb fitnə qopa
Cüt qoşun almağa şəhri çalışıb
Döyüşün təndiri hərgün alışıb
Təbrizi ancaq ala bilmədilər
Ğələbə xəlqə çala bilmədilər
Valı fikr etdi belə dərdə əlac
Ki gərək təbrizin əhli qala ac

Seçdi öz qətl o cinayət hamaşın
Göndərib "alvar"a soyqunçu başın
Etdi alvarda "rəhimxan" oturaq
Qan tökənlər əlinə verdi yaraq
Xəlqə azuqə yolun bağladılar
Fəqr odunda kasıbı dağladılar
Çalışıblar yolu qoçlar açalar
Bölgədə əmn livasın saçalar
Alvarın cənginə bu oldu səbəb
Göstərib soltəçilər kin o ğəzəb
Atifə dəftəri mütləq bükülüb
Çoxlu insan qırılıb, qan tökülüb
Döyüşüb gündə döyüş həngiləri
Dalbadal qopdu xətib cəngiləri
Yazmışam quşəsin ellər hayının
Altısında vəli isfənd ayının
Elə bir cəng qopub, qaçdı hamı
Ovcun o mə'rəkədə açdı hamı
Atlılar daxil olublar xətibə
Soymağa xəlqi, dolublar xətibə
Yenə səttarxan özü hazir olub
Düşmanı nallamağa qadir olub
E'tiraf etdi məhəmmədəlixan
Bu sözü qıldı sərahətlə bəyan
Gördügüm səhnəni məğzə toxudum
Mən xətibdə o gün əsla  yoxudum

Amma olsaydım o tufanda əgər,
-Şübhəsiz məndə qaçardım o təhər
İndi bildimki deyilmiş asan,
-Ola bilməz hər igid səttarxan
Öz kitabında “əmirxizi” deyir
Vaqeiyyətlə söz əlbəttə yeyir
Elə qızmışdı xətib cəngi o gün
Riştəsi cibhədə düşmüşdü dügün
Təbrizin ğərbini tutmuşdu duman
Dama çıxmışdı özü səttarxan
Baxacı gözdə baxırdı xətibə
Ondakı ləşgər axırdı xətibə
Dedi birdən ki “uşaqlar qırılır”
Güllə altında qoçaqlar qırılır
Sora qulluqçuya əmr etdi belə
Tez yəhərlə atımı, hazir elə
Mərkəbə sürətilə oldu səvar
Xətibə çatdı, görüb mə’rəkə var
Üz bə üz gəldi neçə kəl qoçana
Buraxıb səngəri yolda qaçana
Dedi sərdar: hara axır qaçısız?
Düşmənin soltəsinə yol açısız
Dedilər: quvvəlidir düşmənimiz
Basılıb el-obamız, kövşənimiz
Qorxudan soltəçiyə yol açırıq
Can şirin gəlmiş, ölümdən qaçırıq

Qorxuruq sönsə, həyat fanusumuz,
-Qala başsız evimiz, namusumuz
Sərdarın gəldi bu sözlər arına
Qıldı əfsus oların əfkarına
Zamanın itlafın aldı gözünə
Bildi bu söhbəti vacib özünə
Dedi: bir azca özüzdən utanın
Bu həqarətli sözüzdən utanın
Söylə ay namusun aləmdə sevən,
-namus insanə qabaqdır ya vətən?
Namus ancaq igidə olsa əyar,
-Necə namusu vətənsiz qoruyar?
Milləti qarə günə, qorxu salar
Qorxağın namusu əllərdə qalar
Nə gəlib himmətizə, ğeyrətizə?
-Xət çəkibsiz belə milliyətizə
Babalarkı sözü təkmil eləmiş,
-Türkü ancaq belə təmsil eləmiş:
Birdi türkün ölüsüylə dirisi
İgid olsa, diridir hər birisi
Yoxsa bir cansıza bənzər ikisi
Qorxaq olsa, ölüdür hər ikisi
Ölüdən pis nədi? gər olsa sual,
-Gətirib öz sözünə başqa misal
Birdi qorxuyla xəyanət barada
Bir qədəm fasiləsi var arada

Qorxaq insan olar aləmdə zəlil
Qorxudur dünyada çox zülmə dəlil
Müstəbed qorxunu alət eləmiş
Millətə zülm o xəyanət eləmiş
Qorxaq insan necə azad olacaq?
Necə oğlu, nəvəsi şad olacaq?
Gərək azadlığa siz can verəsiz
Gər niyaz olsa qana, qan verəsiz
Verməsəz, ğəm yeli yurda əsilər,
-Az zamandan sora nəsliz kəsilər
Qorxunun ziddi olan səttarxan
Ərsədə öz hünərin verdi nişan
Dedi qorxaqlara: ardımca gəlin
Qorxunun bağrını ğeyrətlə dəlin
Vurdu bir güllə əzəl “həmzəxan”a
Boyadı ol yekə ğəddarı qana
Gəldi hər kim onu yerdən götürə
Özüdə güllələnib yatdı yerə
Neçə güllə ki atıb xəsmə tərəf
Hərəsində birini qıldı hədəf
Yenə siynə gərib, etdi hərəkət
Yaradıb hər qədəmində əzəmət
Çatdı qanşardakı top səngərinə
Vurdu bir güllə topun əsgərinə
Olmadı gülləsinə çünkü cəvab
Atılıb səngərə əvvəl o cənab

Ardıca daxil olublar həzərat
Gördülər boşdu, qaçıbdır nəfərat
Səngərə təkcə sukut kölgə salıb
Bircə əsgər ölüsü yerdə qalıb
Cürətə gəldi qaçan qorxaqlar
Çevrilib oldu qoçan, qorxaqlar
Cırdılar qorxu torun ğeyrətilə
Girişiblər döyüşə himmətilə
Savaşın seyrini cürət dəyişib
Zəfərə, şanlı qoçaqlar yetişib
*
Bəli qorxaqlar o gün nadim olub
Dönüb öz millətinə xadim olub
Sərdarın pey aparıb sözlərinə
Gəldilər yaxşı zaman özlərinə
Duydular mətləbi əzbəski dərin
Qabağa verdilər öz siynələrin
Kəsdilər dağ kimi düşmən qabağın
Sındırıblar mutəcaviz ayağın
Himmət üz gətdi ədalət tələbə
Çaldılar düşmənə axır ğələbə
Qorxunun məsələsi olmasa həl,
-Tapa bilməz bəşər azadlığa əl
Kaşkı öz xəlqinə azərbaycan,
Hər on ildən doğa bir səttarxan
Qorxudan xəlqi çıxardan sərdar,
-Qəhrəmanlar becərə, xəlqə havar.

## hacı qənnad şəfi`

Baş müsibət gecə, baş kəndin olub
Yaslı gün, altısı isfəndin olub
O günün da'vası matəm gətirib
Təbrizə, çox hamıdan ğəm gətirib
Göstərir aydın ötəkdə səfəhat
Çox olubdur o döyüşdə tələfat
Səhnədə hazir olan şahid özü,
-Söyləmiş xəlqə, həbibbəy bu sözü:
Sındı o ləhzəki dövlət qoşunu
Aldı səngərləri millət qoşunu
Kövşənə ibrətilə baxdım özüm
Ğussəli səhnələrə düşdü gözüm
Canlar olmuş necə gördüm ki hədər
Tökülüb qarların üstə ölülər
Ağ qarın üstə axıb qırmızı qan
Verir ol mənzərə, hər qəlbə təkan
Yurdun öz əhlinədə oldu nəsib
Üç şəhid inqilaba verdi xətib

Bir"alış" bir"qərəgöz" bir"quluxan"
Üçü, bir səngəri etmişdi məkan
Başları üstə gəlib sərdar özü
Baxdı peykərlərə islandı gözü
Dedi: olsun xətib əhli üzü ağ
İsə olsun başız illər boyu sağ
Olmasa arzı yolunda şuhəda,
-qafilə məqsədə çatmaz əbəda
Çirağı nehzətin, el iymanıdır
Covhəri amma şəhiydin qanıdır
Çox gəlib, getmiş igidlər xətibə
İftixar oldu şəhidlər xətibə
Dəfn olub izzətilə ol şuhəda
Xətibin korqanına verdi səfa
*
Qıldı sərdar özü iqdam səhəri
Yazdı ustanbula ilkin xəbəri
Eşidin dalğasın ellər hayının
Altısında bu il, isfənd ayının
Xətibə həmlə gətirdi nəfərat
Verdi beşyüz nəfər onlar tələfat
Yığılıb dəstə bə dəstə ölülər
Qoyulub daşqalar üstə ölülər
Həml olub başqa ölənlər yanına
"gəcil"in səlqəli qəbristanına
Qazdılar gorlarını, quyladılar
"həmzəxan"da tapıb o yerdə qərar

*
Zəfərin nəğməsi afaqə dolub
Baş uca gərçe mucahidlər olub
Amma əfsus ki ğəm üz verdi şədid
"hacı qənnad şəfi`" oldu şəhid
Elin ağ saqqalı, sökmən, əl açıq
Duru məfkurəli, vicdandan ayıq
Çox çalışdı o şərafətli ağa
Xətibin səngərini saxlamağa
Verdi məşrutənin eşqində qanın
Yə`ni azadlığa bəzl etdi canın
Baxdı səttarxan onun peykərinə
Göz yaşın qatdı axan qan tərinə
Dedi: xidmət gülünün yox tikanı
Cənnət olsun bu şəhiydin məkanı
Lalələr, lalə düzündə gül açar
Sırrın, avazə gəlib bülbül açar
Bu çölün hasil olubdur muradı
Tapdı mə`na özünə lalə adı
Lalə bu çöldə şəhid laləsidir
Nalə bülbüldə, xətib naləsidir
Hacı qənnad şəfi` varlı ərən
Al şəhadət gülün izzətlə dərən
Özü xoş niyyətidi, pak ğərəz
Etmədi xəttini, seyrində əvəz
Yaşadı qəhrəman öz rəngində
Öldü mərdanə xətib cəngində.

## Xətib döyüşü isfəndin ondördündə

Günəş ardınca gəzib öz ayının
Çatdı ondördünə isfənd ayının
Cəng ağırlaşdı, səmədxan bezişib
Lacərəm həmlə məsirin dəyişib
“şamqazan”dan gətirib şəhrə hucum
Oldu hər gündən o gün təbrizə şum
Aldılar soltəçilər “hökmavar”ı
Toplanıb orda qoşun başçıları
Ardıca gəldi səmədxan özüdə
Dedi məzlumlara: qan-qan özüdə
Təbl o şeypurilə daxil olaraq,
-etdi bir varlı evində oturaq
*
Nəql edir beylə məhəmmədəlixan
Verdi fərman mənə sərdar o zaman
Tez yetirdim özümü şamqazana
Əl tapıb gördüm avan ol məkana

Xətibin bayrağın ovbaşlar açıb
Şamqazanda duvarın üstə saçıb
Ta desinki qoşun almış xətibi
Talayıb, zəhmətə salmış xətibi
İstəsəz olmaya yurduz ora tay
Dövlətə yardım olun, dildə haray
*
Ləhzə bə ləhzə şədidləşdi neza`
Biz oturduq dalı. Qıldıqca difa`
Ğələbə, zohr çağı çaldı qoşun
"axını" məntəqəsin aldı qoşun
Şəhri başdan-başa vəhşət bürüdü
Qorxaq insanları dəhşət bürüdü
Amma ğeyrətli cəmaət seçilib
İstiqamət donu xəlqə biçilib
Hamı təbrizdə tüfəng aldı ələ
Qoşulub öldü mucahid habelə
Düzdür, el əlbir olub, etdi qiyam,
Millətin xeyrinə cəng oldu tamam,
Qatmasaydı vəli sərdar özü əl,
-Cəngin olmazdı o gün müşkülü həl
Sərdarın cibhədə ol gün döyüşün
Söyləmiş beylə həbib öz görüşün
Gəldi sərdar "axını" oylağına
Qədəmin qoydu "sazanda" bağına
Xanabağ üstünü səngər elədi
Yenə çırpışmada məhşər elədi

Verdi ruhiyyə mucahidlər üçün
Eləbil ki açılıb bağlı dügün
Bir tərəfdən “xiyavan” əhli gəlib
Bir tərəfdən “maralan” əhli gəlib
Yetirib sərdara o halda çapar,
-“Dizəc”in yardıma çox hacəti var
Sərdar ordan alıcı quş sayağı
Dizəcə qondu əlində yarağı
Sankı can bəzminə canan yetişib
Cansıza təhlukədə can yetişib
Sabit oldu yenə şahidlərinə
Sərdar özcandı mucahidlərinə
Ondakı başladı öndər döyüşə
Elə bil başladı ləşkər döyüşə
Görə bilməz hər igid öndər işin
Görər öndər vəli bir ləşgər işin
Az zamanda döyüşün vəzii çönüb
Qaçmağa, ləşgər üzü ğərbə dönüb
Qıyha, süfrə döşənəndə çəkilib
Yeməmiş küftə səmədxan əkilib
“ərəgər”dən sovuşub, tapdı aman
Getdi “qarə məleki” etdi məkan
Gün batıb, qaş qaralıb, oldu gecə
Parlaq ulduzlarıla doldu gecə
Yorulan başçılar asudə yatıb
Hamı cəngin xəyalın başdan atıb
Təkcə səttarxan özü qalmış oyaq
Dayamış tilfuna mərkəzdə qulaq

Bir bə bir zəng vurur cibhələrə
Son qoya, ariz olan şübhələrə
Görə kim cibhədə yatmış, kim oyaq
Xətəri ta edə ellərdən uzaq
Xətibə zəng vuranda o cənab
-Səsinə vermədi bir kimsə cəvab
Bu durum xatirinə gəlmədi xoş
Fikr edib ki qoyub el səngəri boş
Gecə sərdar özü gəldi xətibə
Cibhəni gəzdi, yanaşdı həbibə
Gördü, düşmən əli yetmiş talana
Səngərin tilfunu getmiş talana
*
Xud məhəmmədəli söylür beləcə,
-Mən qonaq getmişidim çün o gecə
Danışırdıq, yeməmişdik hələ şam
Qapı səsləndi, bizə gəldi pəyam
Ki dayanmış qapıda səttarxan
Sizi istir görə hətmən alan
Sanasan, can çanağın, çalxaladı
Nigəranlıq bizi çox çulqaladı
Tez çıxıb sərdarı rö'yət elədik
Ehtiramla evə də`vət elədik
Dedi sərdar: evi çox xoşlamayın
Səngəri öz başına boşlamayın
Gər olaydı nayıbəkbər halı xoş
Gecə qalmazdı xətib səngəri boş

Döyüşüb, çox yorulubsuz bilirəm
İstirahətdən olubsuz bilirəm
Amma qansın bunu əsgərlərimiz
Boş gərək qalmaya səngərlərimiz
Yuxlamaqdan günümüz oldu qara
Bizə düşmən dalıdan vurdu yara
Qərnilər yuxlamışıq ərsədə biz,
-Bizi vermiş yuxuya düşmənimiz
Daha indi bizə yatmaq yaramaz
Baş, yava işlərə qatmaq yaramaz
Yuxlasaq, düşmənimiz kamə çatar
Bizi, evsiz qərəçi xəlqə qatar
*Bəli gündüz döyüşən səttarxan
Gecə yatmazdı, gəzərdi nigəran
Bu döyüşdən bu nəticə alınıb
Nəğmə, düşmən tərəfindən çalınıb
E`tiraf eylədilər soltəçilər
Sınmaz ordu ilə məşrutəçilər
Başqa bir tərh gərəkdir tökülə
İstiqamət qalasi ta sökülə
Amma xoş dərsi mucahidlər alıb
Söz olub sırqa qulaqlarda qalıb
El gərəkdir döyüşə hazir ola
Ta özün saxlamağa qadir ola
Qəhrəmanlar nə gəlib yatmaq üçün,
-gəlmiş ellər dadına çatmaq üçün.

## Ruslarla döyüş

Qara qış çıxdı, yaşıl yaz yetişib
Amma şənlik vətənə az yetişib
Müstəbed bağladı azuqə yolun
Şəhnələr kəsdi yolun sağla solun
Dərdə, göy ot gövərib, çarə dedi
Xəlq acından, tərə çöllərdə yedi
Taza ötmüş “anaxatun” döyüşü
“sarıdağ” qırqını, qanun döyüşü
Çoxalıb el ğəmi gəlmirdi sana
Ğəm əlindən hamı gəlmişdi cana
Bir taza ğəmdəki doğdu taza il
Şühədayə qoşulub “baskrovil”
O cəvan xəlqə fəda etdi özün
Hamının şəhridə ağlatdı gözün
*
Çatmamışdı içəri cəngi sona,
-əcnəbi cəngi muzaf oldu ona

El zəlalətdə qalan günləridi
Təbrizi ruslar alan günləridi
Gərçe basqın gətirib,amma yenə,
-dolmamışdı hələ şəhrin içinə
Verdi rus iyrana ki oltimatom
Eləbil kəllələrə vurdu batom
Hakimiyyət baş əyib, oldu zəlil
Milləti eylədi aləmdə xəcil
Oki "yepremxan"ı iş üstə çəkib
Qərə günlər tuxumun xəlqə əkib
Zilləti, millətə təhmil elədi
Məclisi bağladı, tə`til elədi
E`tiraz etdi hamı kənd o şəhər
Təbrizin e`tirazı oldu bətər
Rus odur niyyətin e`mal elədi
Təbrizin çox yerin işğal elədi
Öz satılmışlarımız amil olub
Təbrizə rus qoşunu daxil olub
Köhnə manqutlara qudrət yetişib
Qan tökən cəllada fursət yetişib
Tezarın olsa"rəhimxan" sağ əli
Sol əli tülkü səmədxandı bəli
Soltəçi, monci nişan verdi özün
Murtəce qeşri qəbul etdi sözün
Vurub onlarkı dəyanətdən dəm
Tez damı üstə saçıb ağ pərçəm

Rusların yə`ni pənahında yaşır
Tarixin nəngini çigrində daşır
Təbriz əşrafı neçə yüz nəfərat
Ruslara təqdim edərdi maliyat
Eləki məqsədə ruslar yetişib
Get bə get öz hərəkatın dəyişib
Kuçələrdə dolanıb dəstəilə
Verdilər xəlqə əziyyət habelə
İstədi xəlq edə hər ləhzə qiyam,
-Hakimiyyət qabağın aldı mudam
Saldı bu sujəni xəlqin dilinə,
-Bahana verməyin əğyar əlinə
Hər cürə e`tirazı qıldı yasaq
Əl-qolun bağladı xəlqin bu sayaq
Hər cinayət elədi soltəçilər,
-Səbr edib, dinmədi məşrutəçilər
Məsləhət dafeəni görmədilər
Bahana rus əlinə vermədilər
Amma həddən ki təcavuzlar aşıb
Coşlanıb, camiənin səbri daşıb
Seqətülislam  o ğeyrətli kişi
Müctəhed feqhidə, himmətli kişi
Rus önündə dayanıb qudrətilə
Dəfii  fitvası verib hekmətilə
El şəhamətilə qalxıb ayağa
Əl, mucahidlər apardı yarağa

Öz təhərrük cəhətin etdi ələn
“əsəd aqa” , “lilava” səmtindən
Təhlükə ərsəsinə qoydu qədəm
Yürüşün başladı, qaldırdı ələm
Zülmət üstə eləbil şaxdı nucum
Rusların mərkəzinə etdi hucum
*
“hac hüsenxan” səfinə verdi nizam
“maralan dan” döyüşə etdi qiyam
Çalışıb fəth qıla “şazdabağ”ın
Kəsə saldatların ordan ayağın
*
Öz quruhilə “məhəmmədəlixan”
Bazarın oldu məsirindən əyan
Əl-ələ verdi “əmir heşmət”ilə
Aliqapu alınıb sürətilə
Amma birlik quşu hardan su içir?
Uca ərkin kuçəsində nə keçir?
Sözümün covhərin al, ibrət apar
Qəhrəmanlıqdan oxu, ləzzət apar.

## Hacı babaxan ərdəbiyli

Birligin osvəsi “hacı babaxan”
Su tək əfsanəsi dillərdə axan
Ellərin fəxri, vətən iftixarı
Ulu səttarxanın istəkli yarı
Ərdəbil, təbrizi bir nuqtə görən
Pərgara, xət əbədiyyətdə verən
Dünbələn düz vəsətində şəhərin
Göz önündə hamı təbrizlilərin
Ərdəbil oğlu həmasə yaradır
Vəsfi, tarix səfəhatın qaradır
Qılıcın vəsfini, covhərdən eşit
Babaxanı, nayıbəkbərdən eşit
Ərk cəngində ki şirkət eləmiş
Xatiratın belə söhbət eləmiş
Gecə mənzildə mənə gəldi pəyam
Vaqif oldum ki edib xəlq qiyam

Rusların fırtanasın dərk elədim
Yenə durdum evimi tərk elədim
Savunuş fursəti saldım əlimə
Çəkmə geydim, yaraq aldım əlimə
Vurmağ zərbə avan dəstəsinə
Tez qoşuldum babaxan dəstəsinə
Çatdıq ərkin yanına biz o zaman
-Məhşəri gördük olub orda əyan
Bir evi səngər edib qəzzaqlar
Yağdırırlar arasız güllə padar
Öldürürlər gələni həm gedəni
Həm yol üstündə təhərrük edəni
Təng olub ərsə mucahidlər üçün
Girə düşmüş kuçənin əhli bütün
Göz odun düşmən alan mərhələdə
Hamı müşküldə qalan mərhələdə
Qəd ələm eylədi hacı babaxan
Ildırım tək zələmə üstə şaxan
Sinəsin verdi sipər tək qabağa
Söylədi: hammı çəkilsin qırağa
Qorxulu səngəri mən almalıyam
Ğələbə, saldata mən çalmalıyam
Siz qıraqda durub asudə baxın
Gözə, soy gözlügün əlbəttə taxın
Əcnəbi təbrizi talan eləmiş
Ərdəbil ğeyrəti tufan eləmiş
*

Babaxan dəstəsi etdi hərəkət
Görünüb əzmlərində əzəmət
Çox zaman çəkmədi o fərli qoçan
Səngəri aldı, zəfər oldu əyan
Qoçlar alqışlamağa başladılar
Ərdəbil qoççağın alqışladılar
Düzdür, ərkin döyüşü oldu səbəb
Babaxan saldı ələ şə`n o ləqəb
Amma lazimdi ola həqqi əda
Təbrizin əhli unudmaz əbəda
Çox döyüşlərdə bu hacı babaxan
Sovlətin, mə`rifətin verdi nişan
Hər zaman təbrizə üz verdi xətər
Ərdəbil oğlu canın etdi sipər
Sabit etdi, canımız birdi bizim
Kökümüz bir, qanımız birdi bizim
Elimiz bir, dilimiz bir yaranıb
Suyumuz bir, gilimiz bir yaranıb
İctinab etməliyik təfrəqədən
Soltəçi getməlidir məntəqədən
*
Həqqi var etsə gilayə odəba
Yazmayıb şe’r o cənabə şüəra
Bəli çox yazmalı var, mətləb uzun
Yazan istir, məni mə`zur tutun
Ərdəbil qəhrəmanı tək bu deyil
Çox igid var belə sovlətdə əsil

Var “axundof” kimi aslanlarımız
Noxbə qızlar, xələf oğlanlarımız
*
Ərdəbil çehrəsi hacı babaxan
Əski tarixə bəsirətlə baxan
Kaşkı örnək ola öz ellərinə
Çata qəlbindəki söz ellərinə
Öz ana yurdu odunda alışa
Möhtəşəm xəlqi yolunda çalışa
Mutəvəcceh ola milliyyətinə
İsə, hafiz ola əsliyyətinə
*
Babaxan ülgümüz olsaydı əgər
Bizə düşmən çala bilməzdi zəfər
O xurafatilə da’im döyüşüb
İrticaiylə mudavem döyüşüb
El gərək dostu avandan ayıra
Qatmasın çarə giyahın çayıra
Var omiydim ulu şairlərimiz
Tuta örnəklərin aləmdə əziz
İstəsə düşməninə qəbr qaza
Gərək öndərlərinə şe’r yaza
Xətib oğlu taza gül, sözdən əkib
Ərdəbil qəhrəmanın nəzmə çəkib.

## Sürgün

Neçə gün rusilə təbriz döyüşüb
Güllə altında cəmaət ötüşüb
Ruslara verdi qulaq burması el
Sankı yerdən süpürüb xərməni sel
El gücün rus böyügü dərk elədi
Da`vanı hiyləilə tərk elədi
Demə çəngində görüb az qoşunu,
-gözləyirki gələ qafqaz qoşunu
Dalıdan vurmaq üçün xəlqə piçaq,
-eylədi sülh sözün dildə maraq
Hiyləsin beyni qalınlar yedilər
Fitnəli sülhə mubarək dedilər
Şəhri öz əllərinə almadılar
Rusları tez eşigə salmadılar
Gecə keçdi, səhər iş oldu əvəz
El görüb ki varımış ayrı ğərəz

İrəvandan taza niyru yetişib
Yenə ruslar hərəkatın dəyişib
İntiqam almağa amadə olub
Şəhr başdan-başa vəhşətlə dolub
Evdə məşrutəçilər həlqə vurub
Məşvərət etməgə toplantı qurub
Hərə bir cür nəzərin qıldı bəyan
Olmadı çarə yolu xəlqə əyan
Kaş "əmirheşmət", o sahib hünərin,
-hamı icrayə qoyaydı nəzərin
O dedi: biz ğələbə çalmalıyıq
Rusları tez eşigə salmalıyıq
Bu döyüş nisfə çatan vaqeədir
Qalsa naqis, işimiz faceədir
Bəli, qalxış sona çatsaydı,mətin,
-sora xəlqin işi olmazdı çətin
O qadınlarkı sınanmışdı o gün
Almalı həqqi inanmışdı o gün
O mubariz kişilərki varıdı,
Kişilərdə o hünərki varıdı
Rusları xıxlamağa qadiridi
Mərzidə saxlamağa qadiridi
Amma heyf olsun, o ki başçı olub
-atmağa daş qabağa, daşçı olub
Bilən olsaydı böyük başlarımız
Sürgün olmazdı vətəndaşlarımız

Qaldı naçar “seqətülislam” elə
Yol, mucahidlərə göstərdi belə
Dedi: siz təbrizi tərk etməlisiz
Xəlqə xatir, uzağa getməlisiz
Ülfətuzdən əlimi üzməliyəm
Çarə yox, fürqətuzə dözməliyəm
Burda qalsaz, boyanarsız, qanıza
Tez köçüb, hafiz olun öz canıza
Siz gərək indi səlamət qalasız,
-sonra azadlığı xəlqə alasız
Gələcək ehtiyacın dərk eləyin
Ana yurdun bu gecə tərk eləyin
*
Təbrizin oldu o hicran gecəsi
-sanasan şame ğəriban gecəsi
Eldən etmişdi o kəslərki difa`
Qohumun, ayiləsin qıldı vida`
Atına mindi əmir heşmət özü
Nəzmə kərvanda qılıb diqqət özü
Etdi qanşarda “boluri” hərəkət
Qafilə əhlinə göstərdi cəhət
Ardıca pəncəsi qudrətli cəvan,
-“əlimisyo” balası, nər “hacı xan”
Sora cüt xibrə bürünmüş yarağa
“əsəd ağa”ilə”ibrahim ağa”
“faresolmolk” o “məhəmmədəlixan”
ərdəbil başçısı, “hacıbabaxan”

qoç “yekani”lə ”əmirxizi”,adaş
-iki “ismail” olub yolda hamaş
Cəm’ən onlarkı gecə etdi səfər,
-nayıbəkbərlə olub əlli nəfər
Amma yollarda çoxaldı nəfərat
Çox mubariz qoşulub, tapdı nəcat
Yetişib qafilə “köhnə şəhər”ə
Orda öz məqsədini seçdi hərə
Gecə toplantıda çox söhbət olub
Bölünüb qafilə üç qısmət olub
Babaxan oldu əmir heşmətilə,
-həmnəzər, bir sürü cəmiyyətilə
Arxadaş torpağına getmədilər
Yə`ni ustanbula əzm etmədilər
Gedən əşxasə dua söylədilər
Ayrılıb,tehranı qəsd eylədilər
İkiminci qurul iz`an elədi,
-bölgədə qalmağın e`lan elədi
“yekan” əfradi, döyüşdə vurağan
Başçıl oldu olara “qoçəlixan”
Çün mubarizlərə səngərdi yekan
-yekanı eylədi ol dəstə məkan
Üçüminci qurula don biçilib
Başçısı ağa boluri seçilib
O quruldaydı iki noxbə qoçan
Əsədağa vo məhəmmədəlixan

Satdılar hərbə ələ gəldi vocuh
Oldu ustanbula azim o quruh
Nayıbəkbər baxıb üç bölgü səfə
Hərəsi,gördü gedir bir tərəfə
Kərbəla gəldi, tikildi gözünə
Dedi qəlbində belə öz-özünə
Məndə zeynəbpaşanı yad eləyim
Ruhun ülfətlə gedib şad eləyim
At sürüb, kərbobəlayə yetişib
Vəslilə ruhu səfayə yetişib
Baxdı bir qəbrinə zeynəbpaşanın
Sözlərin gətdi dilə söz qoşanın
Dedi: ay ellərinin birdanası
Xəlqə yardımcı, yetimlər anası
Gəlmişəm ərze eradət eliyəm
Səni ğurbətdə ziyarət eliyəm
Atanışdan sənə versəm yazanaq
Ötəkin güzgüsü tutmaz tozanaq
Ğələbə çaldı kı məşrutəçilər
Çehrəsin tez dəyişib soltəçilər
Cənəvar düşdü qoyun surətinə
Döndü məşrutə oyun surətinə
Yetişib soltə, rəyasət tələbə
Dünya təng oldu ədalət tələbə
Xoş məsəldir atanış əhli deyər:
İnqilab öz balasın ümdə yeyər

Sərdarı güllələdi soltəçilər
Düşdü çöldən çölə məşrutəçilər
Bizki məşrutəni ehya elədik
On bir ay, birbaşa də`va elədik
İşimiz oldu həqarət daşımaq
Təhqir altında həmişə yaşamaq
Pişdi manqutlar əlilə aşımız
Olmadı öz əlimiz, öz başımız
Dilimiz susdu, kəsildi hayımız
Tək boğuntu bizim oldu payımız
Amma səndən alıb elham elimiz
Yenə bir gün coşacaqdır selimiz
Var bizim coşduran örnəklərimiz
Şer qadınlar, ulu babəklərimiz
Var isə sən kimi zeynəbpaşamız
Duyğular üstə qoyan od maşamız
Çəkdi hər yerdə xəyalın mənə baş
Qəhrəman, qəhrəmana oldu hamaş.

## Seqətüleslam

Seqətüleslam igid xəlqə ecə
Sürgün əfradı yola saldı gecə
Özü ruslar qabağında dayanıb
Ulu babək sayağında dayanıb
Dedi konsul ona konsulxanada
Vermə ya şex canını müftə bada
Bizə yar olsan inayət edərik
Səndən əlbəttə himayət edərik
İmzala sən bu yazılmış varağı
Azad ol get, yaşa ə`yan sayağı
Bu varaqda iki cümlə yazılıb
İki söz sadəcə beylə yazılıb
Bir buki rus qoşunu açmamış əl
Başlamış cəngi mucahidlər əzəl
Birdə cəngin təbili çün çalınıb
Cəng edib, cəngidə təbriz alınıb

Seqətüleslam ona verdi cəvab
Məni candan üşünən etmə hesab
əvəla da`vanı siz başlamısız
al qanımızla boğaz yaşlamısız
biz, sizin torpağıza gəlməmişik
mərz o qanun duvarın dəlməmişik
saniyən sülhü həram etməmişik
əbəda cəngə qiyam etməmişik
siz, bizim yurdumuzu qapsamısız
sülh adıyla, döyüşə qısnamısız
biz difa` etməgə məcbur olaraq
-yaraq aldıq ələ namus qoruyaq
Bəs yazılmış o iki sözki yalan
Məndən imza alasan, etmə guman
Gördü konsul, dedigi rəngə dayaq
-seqətüleslamı olmaz boyamaq
Dedi: esyan cəzasın görməlisən
Dar ağacında səhər ölməlisən
Ötüb o ğəmli gecə oldu səhər
Günüzün faciəsi oldu bətər
Çox ürək təng olub aşura günü
Təbrizə nəng olub aşura günü
And ola həqqə ki şahiddi qələm
Yazmağa vaqeəni şərm edirəm
Aç bəsirət gözünün pəncərəsin
Qıl təcəssüm o günün mənzərəsin
Əcnəbi dardan asır qardaşını
-vətən ovladı yarır öz başını

Yox şu`uru ələ alsın qəməni
Yügürüb düşmənə çalsın qəməni
Yox mubarizlərin əldə əlacı
Göz önündə qurulur dar ağacı
Bir sürü sadə cəmaət dayanıb
Zülmə etmiş okı adət dayanıb
Ad müsəlman, özünün yox əməli
Yol açan xəsmə cinayətdə vəli
E`dama baxmağa ancaq yığışıb
Duyğusuz heyvərə, maymaq yığışıb
Amma çox iddə əza bəzmi qurur
Baş yarır, zəncir atır, siynə vurur
Səpir öz başlarına tozlu saman
Dəstələr bir-birinə vermir aman
Rozəxanlar vurub od xəlqi yaxır
Fəxr edirlərki uruslarda baxır
Alnına palçıq əza əhli yaxıb
Hal tapıb, var nə masail buraxıb
Başladı ruslar o dəm öz işini
Gətdilər məqtələ səggiz kişini
Soltəçi hökmünə barmaq basılıb
"şex səlim" öncə ağacdan asılıb
Şexsəlim, qəlbi səlim ruhani
Oldu öz millətinin qurbani
Ardıca baxdı fəqət xəlq gözü
Dara getdi seqətüleslam özü
Elmə malik olan üçminci fəda
Can verib darda "ziyaololəma"

Dördüminci adı lohə basılan
“sadeqolmolk” olubdur asılan
Amma beşinci “məmədibrahim”
Qıldı mərdanə özü can təslim
Altıminci boğulan oldu həman,
-cürmsüz, “hacı məhəmməd qulu xan”
Yeddiminci “əli misyo” balası
“həsən” azadlığın oldu fədası
Səggizinci asılan oldu “qədir”
Həsənin qardaşı sinnində səğir
Bunların xatirəsin yeydi demək
İki qardaş kı qalıb şəhridə tək
Oldular bir hacıya evdə qonaq
Murtəza adlı, şərafətdən uzaq
Məkkədə şeytana ləbbeyk deyən
Ruslara bağlı özü rüşvə yeyən
Xəlqə, xayincəsinə tor toxuyan
Zahirən zalimə lə`nət oxuyan
Dürtülüb, harda aş, orda baş olan
əli misyola yaxın yoldaş olan
arına gəlmədi rusvaylı sitəm
qonağın hörmətinə çəkdi qələm
əldə təsbih olaraq, dildə du`a,
-iki məzlum uşağı verdi lova
Bəli aşura günü təbrizdə
Görünüb rexvət o ğeflət bizdə
Ortasında şəhərin aşikara
Soltəçi, müctehedi çəkdi dara

Səggiz insanı günahsız boğaraq
O böyüklükdə cinayət doğaraq,
El, başın qatdı fəqət ağlamağa
Fikrinə çatmadı, qalxa ayağa
Demə, təbrizdə o qudrət yoxudu
Rusların tank o tüfəngi çoxudu
Düz hidayət edən olsaydı əgər,
-yolu bağlardı mubariz kişilər
Dağdan ordu edə bilməzdi gələ
Təbrizi, rus ala bilməzdi ələ
Xəlqi gorxaq baradan alçaqlar
-bais oldu ucala qəzzaqlar
Var omiydim ki yatanlar ayıla
Xəlqə bu hadisə ibrət sayıla
İddia, qorxaq olan eyləməsin
Mən hüsen şiyəsiyəm söyləməsin
Kərbəla şahı, verən xəlqə omid,
Həqqin almaqdan ötür oldu şəhid
İstəsən varlığa meydan verəsən,
-vətən uğrunda gərək can verəsən
Seqətüleslam hüsen şiyəsidir
Sınmayan qəl`ə onun qəl`əsidir
Ölümə verdi özün, fəxr aparıb
Xeyli əfradı ölümdən qutarıb
Oləma qəhrəmanı, elm ocağı
Dardan aslandı məsiha sayağı.

## Nayıb qəhvəsi

Nayıbəkbər yenə ğurbətdə qalıb
Gündə öndər məzarın yadə salıb
Amma çox çəkmədi bu şum səfəri
Qonşulardan eşidib xoş xəbəri
Diktator məş`əli tufanda sönüb
İnqilab coşdu, rusun vəzii çönüb
Xəlqə etmişdi cəhətsiz ki azar
Keyfərin gördü zəlalətlə tezar
Təbrizi tərk elədi qəzzaqlar
Qayıdıb sürgün olan qoççaqlar
Nayıbəkbərdə qayıtdı xətibə
Qoşulub öz elinə, qoç həbibə
Yenə millətçi yolun getmək üçün
Xidmət insanlara çox etmək üçün
Açdı, dayir elədi qəhvəxana
Yığdı istəklilərin bir məkana

Besatı yol qırağında qurulub
Xoş olub dövrəsi, zehni durulub
Yol həman sərdəri, təbriz yoludur
Ki məsirində musafir doludur
Həm xətib da'vaları orda düşüb
Atlılarla nayıbəkbər döyüşüb
Çünkü dövran dolanıb, da`va yatıb
Öz başın bir işə hər kimsə qatıb
Nayıbəkbərdə baxarkən zamana
Etdi öz səngərini qəhvəxana
Adı qəhvəxana, ədliyyə özü
Saçıb ommid nuru qəlyanda közü
Açmamışdı oranı pul qazana
Doldura küftə, pilov boş qazana
Bəlkə açmışdı həlal bəllə yesin
Həm gəlib orda sözün xəlq desin
Bağlamazdı odu bir an qapısın
Görməsin  bağli, bir insan, qapısın
əl açıq, vicdan oyaq, gözlər ayıq
özü hazır, qapısı da`im açıq
verdi səhman eləki qəhvəsinə
xətibin mö'təmədi oldu yenə
görüb o dövrədə öncə bu işi
seçdi üç varlı, səxavətli kişi
dördü birlikdə edib xeyrə qiyam
tikdiriblər el üçün xəznə hamam

bəli xadimlərə yol bağlı deyil
xəlqinə olsa əgər eşqi əsil
çün nayıbda yoxdu ayrı ğərəz
səngərin, xəlqə görə etdi əvəz
gün bə gün qəhvəxana adlım olub
səhər-axşamda, cəmaətlə dolub
şöhrəti ellər içində yayılıb
ğəribə, yoxsula mə`mən sayılıb
lotularda vurulub şiyvəsinə
toplanıb gündə nayıb qəhvəsinə
*
Tikilib qış nayıbəkbər gözünə
Aldı bir cüt taza başmaq özünə
Birdə öz əgninə bir pencək alıb
Ona uyğunsa, qalın köynək alıb
Şülü pencək yaraşırdı boyuna
İstəmirdi geyinərkən soyuna
*
Günlərin bir günü tutmuş göyü çən
Doludur qəhvəxana müştəridən
Havanın şaxtası xəlqi kiridib
Dondurub şənligi, eyşi əridib
Körpələr sankı sıxılmış beşigə
Qəhvədən kimsə çıxanmır eşigə
İçilir qəhvə vo qəlyan çəkilir
Nəzmə o halda bu dəstan çəkilir
Nayıbəkbər özü getmiş bazara
Piyada, şaxtada düşmüş azara

Hamı gözlür nayıbı rö'yət edə
Gələ, tarixi açıb, söhbət edə
Məqsədə çatmağa, tarix yol açar
Oyadıb yatmışı ta əl-qol açar
Tarix insanda cəsarət yaradar
Çox, cəvanlarda rəşadət yaradar
Qərnlərdirki nağılçı danışır
Faydasız bir yükü çignındə daşır
Köhnə əfsanəni ünvan eləyir
Rüstəmi, söhrabı dəstan eləyir
Xəlqin əqlin, fikirin əldən alır
Günü-gündən geri, bu ölkə qalır
İşlədir saxsını daşqaş yerinə
Rüstəm əfsanəsinin kaş yerinə
Bilgi kürkün geyə qəhvəxanada
Xəlqə tarix deyə qəhvəxanada
*
Nayıbəkbər o gün artıq yubanıb
İntizardan, oturanlar usanıb
Xətəratı yada salmışdı hamı
Nigəran halda kı qalmışdı hamı
Gördülər zöhrə yaxın qar səpəlir
Nayıbəkbər gəlir amma nə gəlir!
Börkü yox, başmağı yox, pencəgi yox
Şalı yox beldə, qalın köynəgi yox
Sankı soyqunçu soyub paltarını
Təkcə əgnində qoyub şalvarını

Qəhvə əhli tökülüblər başına
Gördülər qar yapışıb göz-qaşına
Soruşublar ki nə gəlmiş başuva
Söylə dəstanıvı yar-yoldaşıva
Dedi: yol üstə gəlirdim xətibə
Ğəflətən düşdü gözüm bir ğəribə
Vəz`i yoxsulluğun andım yetirir
Paltarı yoxdu soyuqdan titirir
Ona təqdim elədim pencəgimi
Həm qalın börkümü həm köynəgimi
Üzünə ğəm tozu qonmuşdu onun
Şaxtadan əlləri donmuşdu onun
Az qalır gördüm ayaqlarda dona,
-taza başmaqlarımı verdim ona
Çılpağı görməgə yox məndə dözüm
Ğəmi yox, lüt belə qalsamda özüm
Qəhvə əhli huyuxub sözlərinə
Verdilər bəlkə təkan özlərinə
Dedilər: doğru səadətdi bizə
Bu öyünməkdə kifayətdi bizə
Bu elin başda nayıbəkbəri var
Nayıbəkbərdə kərəm covhəri var
əl açıqlıqda doğurdan kişidir
nayıb olmaq, nayıbəkbər işidir
həqqi var adlana ta var nişanı
nayıbəkbər səxilər qəhrəmanı.

## Xətib və mıqınat

Gecə, da`im ışıq olmazdı xətib
İndi tək nurilə dolmazdı xətib
O zaman kı yoxudu bərqi çiraq
Şəm` o fanus, əridərdi gecə yağ
Gərçe zülmət törədib çoxlu xətər
Amma qışda elə vurmazdı zərər
Çün hamı evdə edərdi oturaq
Çölə, qoymazdı çıxa, şaxta-sazaq
Əl qatanda vəli yaz-yayda işə
İşə, qoymazdı qaranlıq girişə
Gecə bağvan su verən vəqtə bağa
Ehtiyacı çox olardı çirağa
Yanmasaydı fanusun lampa yağı
Gecə bağban suvaranmazdı bağı
Şuxumun həm biçinin həm əkinin
Varıdı müşkülü hər tək təkinin

Çox olub xirə gözüm yaz gecəsi
Görmüşəm çöldə özüm yaz gecəsi
Bağbanın çehrəsi zülmətdə əbus
Bir əlində beli, bir əldə fanus
Rənc odunda tər içində alışır
Işığı saxlamağa çox çalışır
Bir tərəfdən fanusa yel yügürür
Bir tərəfdən hava zülmətdi görür
Yel və zülmətlə mudavem çəkişir
Fanusun yerdə, yerin hey dəyişir
Su açır kərdiyə, vəryan çevirir
Duzəxi cənnətə bağvan çevirir
Çarəsiz dərdidi ancaq zulumat
Başa-baş rəncidi zülmətdə həyat
Hamının müşkül olan vəqtə işi
Xətibə gəldi bir ovcubə kişi
Uca qamətli, başında ləbədar
Kıravatlı özü bir parça viqar
Türk dilli, adı ibrahim ağa

Heykəli cəzbəli başdan ayağa
Bərq elmində muhəndis olaraq
Bəgənib, etdi xətibdə oturaq
Öncə, bərqin gətirib jenratorun
Sora dayir elədi su motorun
Su çıxardıb quyudan doldu gölə
Göldən axdıqca, həyat verdi çölə

Qalmadı çöldə susuzluqdan əsər
Çoxalıb miyvəli bağlar zəmilər
Eləki oldu sudan dinc ürəgi
Quyladı kuçələrə sim dirəgi
Bağladı lampı, simə vəsl elədi
Bərq verdi, gecələr nur çilədi
Səhldir ki kuçələr oldu ışıq
-evlərə sim çəkilib doldu ışıq
Adlanıb şəhridə ibrahim ağa
Adı hər yerdə düşüb dil-dodağa
*
O gün əşrafə erəm təbrizidi
Şazdalar cənnəti həm təbrizidi
Şazdanın məskəni təbriz olaraq,
-nəfəratı varıdı əldə yaraq
Təşkilatı, sarayı, dəbdəbəsi
Xirə eylərdi gözü kəbkəbəsi
Valınında varıdı, qudrəti çox
Kəndi, mülkü bol o sol, dövləti çox
İxtiyarında idarat o qoşun
İqtidarı sana gəlməzdi onun
Şazdanın dəstəsi məğrur özünə
Valı hizbi qazanıb zur özünə
Ortada köhnə ədavət varıdı
Zahirən leyk rəqabət varıdı
*

Günlərin bir günü e`lan olunub
Bərqdən söz belə unvan olunub
Cəşn təbrizdə mucəlləl olacaq
Oynama, çalma mufəssəl olacaq
Kef gəlib, ğussə ürəkdən gedəcək
Məclisi şazda müzəyyən edəcək
Şəhr bir parça çirağan olacaq
Çilçirağilə çilovğan olacaq
Teknikə hörmət olan gündür o gün
Bərqdən söhbət olan gündür, o gün
Zəmanı, yığvanın axşam çağıdır
Məkanı, ərkdə millət bağıdır
Valı əfradı çəkib nəqşə belə,
Şazda bağda yanaşan vəqtə elə,
Ləhzəsində bu işi görməliyik,
Bərqi birdən-birə söndürməliyik
Xəlqə mə`lum ola ta xidmətimiz
Bərqə xatir çəkilən zəhmətimiz
Nəqşədən agəh olub şazdaçılar
Xətibə gəldi neçə atlı çapar
Sözü ibrahimə faş eylədilər
Almağa çarə təlaş eylədilər
Qıldı ibrahim o əşxasə kərəm
Dedi: mən müşkülüzü həll edərəm
Aparıb orda qoşub jenratorun
Vəsl edib lamplara öz motorun

Cəşn meydanı xulasə bəzənib
Şazda iclalilə faytundan enib
Çıılçırağ yan-yörədə şö`lələnir
Şö`lə çəkdikcə isə nur ələnir
Bürünüb cümlə ağaclar çırağa
Göydən ulduz tökülüb sankı bağa
Oməra əl-əli üstündə durub
Şazda öz səndəli üstə oturub
Valı fərraşı salıb fursət ələ
Məclisin isti çağında habelə
Bərqi qət` eylədi mərkəzdə yavaş
Söndü təbrizdə çırağlar başa-baş
Ğəflətən şəhri qaranlıq bürüdü
Eləbil cəvvi dumanlıq bürüdü
Sönmədi amma mərasimdə çırağ
Artırıb öz ışığın cəzbəli bağ
Verdi əyləncə idamə işinə
Valinin düdmə dəyib öz dişinə
Heyrət əl verdi hokumətçilərə
Səhnə mə`murları, dövlətçilərə
Axtarıblar oranın sim çəkənin
Jenrator sazlama tərhin tökənin
Faş olub vaqi`ə başdan ayağa
Tanınıb millətə ibrahim ağa
Qoydu cəm`iyyəti öz elminə mat
Adı-adlandı o gündən "mıqınat"

Bərqilə, zülmətə çaldı ğələbə
Yol nişan verdi həqiqət tələbə
Sözümüz olsa bu cümlə, düz olub
Mıqınatdan gecəmiz gündüz olub
Mıqınatdan bağ olub çöllərimiz
O çıxardıb su, dolub göllərimiz
Amma tuş oldu əvamil gücünə
Çatmadı qudrəti cahil gücünə
Söylədi şexlərə: biz indi gərək,
-mədrəsə körpələrə dayir edək
ədl o təqva geyimin soydula tez,
-üstünə kafər adın qoydula tez
Amma çün həqqi nişan verdi zaman,
-xədəmati kişinin oldu əyan
E`tiraf etməliyik səhvimizə,
-ən böyük xidməti etmiş o bizə
Elm o teknikdə xətib qəhrəmanı,
-mıqınatdır, hələdə var nişanı.

## Nayıbəkbərin ölümü

oldu şah iyrana quldur rizaxan
ölkəni çulqaladı zil xəfəqan
bərkidəndən sora çün səltənətin
aşekar eylədi öz şeytənətin
gündə bir sujə bəhanə gətirib
xəlqi azarilə canə gətirib
nayıbəkbər tutulub ting tova
qalmağın bilmədi yurdunda rəva
nə tapıb çöldə aman, nə qalada
quyladı qarə tüfəngin çalada
tapşırıb oğluna qəhvəxananı
çarəsiz, tərk qılıb el-obanı
istədi, olmasın özgə hamaşı
tək bəlayə düşə öz qallı başı
atına mindi gecə azim ola
düşməmiş amma səfər üstə yola

baxdı həsrətlə xətib bağlarına
ğussə, duz səpdi ürək dağlarına
nisgilin gözdə təcəssüm elədi
dildə bu şe'ri tərənnüm elədi
ay xətib bağları,cənnət parası
bal olub sizdə beheştin qorası
yurdumu, çarəsizəm, tərk edirəm
siynədə el ğəmi yalqız gedirəm
yenə məndən sora xanlar gələcək
bara, ğeyrətli cəvanlar gələcək
etsələr soltəçi qarşında qiyam
onlara yardım olun sizdə mudam
gül açıb, yurdumuza cilvə verin
bu diyarın elinə miyvə verin
*
İnqilab arzumanı qaldı əqim
Getdi ğurbətdə yenə oldu moqim
Ev tikib kərbobəladə özünə
Yandı illər boyu hicran közünə
İldə bir dəf`ə gələrdi xətibə
Ancaq izzətlə nə misli ğəribə
Hamı peşvazə çıxardı görüşə
Yetişən ləhzə nayıbla öpüşə
Neçə illər bu gəlib-getmə olub
Cələsə qurma, çıxış etmə olub
Ömr çərxi dolanıb, çatdı başa
Dəydi can şişəsi ğurbətdə daşa

Atmadı amma xətib öz balasın
Çəkib öz siynəsinə tutdu yasın
Gətiriblər nayıbəkbər ölüsün
El əziz tutdu dilavər ölüsün
Hamıya zayiəsi etdi əsər
Verdilər sürətilə şəhrə xəbər
Ki nayıbəkbəri dərk etdi əcəl
Kərbəladə həyatından üzüb əl
Xətibə sübh cəmaət dolacaq
Nayıbın peykəri təşyi` olacaq
Xətib ovladı gecə yatmadılar
Çalışıblar, yerə baş atmadılar
Gül təkin eylədilər tər küçəni
Su səpiblər, süpürüblər küçəni
Düzülüb el, xətib ağzında səhər
Ala çərşablı xanımlar, kişilər
Işıq aldı şəhəri, gün yayılıb
Yuxudan millət o gün tez ayılıb
Oldu öz himməti, məxluqə əsa
Təbriz elliklə durub, gəldi yasa
Elə yerdən göyə şiyvən ucalıb,
-Gözyaşı, göydə bulutdan bac alıb
Hərə bir nisgilin unvan elədi
Oxşama verlişi tufan elədi
Nayıbı, el həman o tufanda
Dəfn ediblər bala qəbristanda

Gecəsi şame ğəriban tutulub
Məçid ibçin dolub, eyvan tutulub
Başçılar qoydu qərar, cüm`ə günü,
-yas tuta el nəkivar cum'ə günü
Təbrizin məclisi ol gün tutulub
Nayıba tə`ziyə düzgün tutulub
Keçdi illər, xətib əhli çoxalıb
Taza qəbristana millət yer alıb
Aparıb hər kəs ora öz ölüsün
Tapşırıb orda gora öz ölüsün
Nayıbəkbər qəbirin açdı açan
Gördülər tər qalıb o fərli qoçan
Nə dağılmış bədəni, nə çürümüş
Kəfənin sankı taza şeh bürümüş
Ruhuna rəhmət ola söylədilər
Ölüsün məşhədə həml eylədilər
Neçə il qəbr yeri qaldı dərin
El ziyarət elədi boş qəbirin
Sonralar yol çəkilib doldu cola
Nayıbəkbər qəbiri düşdü yola
Buda bir yalnışı oldu zəmanın
İtdi, batdı məzarı qəhrəmanın.

## Möhtəkerlər oyunu

Getdi quldur rizaxan oğlu gəlib
Başı panbıqla kəsən oğru gəlib
Gördü, o görmədigi işləri bu
Kültürün riyşəsinə bağladı su
Kasketi durdu başında yanakı
Eylədi xəlqə müsəllət savakı
Pəhləvi markı vurub səltənətə
Adı şahənşah olub məmləkətə
Özü amrikanın oldu nökəri
Çərxinin, ta bitə asan təkəri
Bağladı ğərbə bütün məmləkəti
Yad əlilə qorusun səltənəti
Çalışıb, xəlq cəhalətdə qala,
-bəlkə öz nəsli rəyasətdə qala
Şuvinizmi günü-gündən böyüdüb
Başqa millətlərə düşmən böyüdüb

Yazanı məğlətə tə`lif elədi
Türk tarixini təhrif elədi
Bizə mənsub olan asarı tamam
Qıldı öz adlarına səbt mudam
Tapdı şiddət elə fikrində mərəz,
-yerlərin türkü adın etdi əvəz
Yurdumuzda yazı yazmaq-oxumaq,
-öz dilimizdə bizə oldu yasaq
Olmadı turkucə bir mədrəsəmiz
Sən`ət o elmdə qaldıq dalı biz
*
Şahın ə`malı yazılsa varağa,
-hamısı mənfidi başdan ayağa
Təkcə müsbət işiki var deməli,
-qoymadı çox açıla tacir əli
Vermədi sərmayadar qeşrinə üz
Nəzəri altına aldı yüzə-yüz
Qoydu asnaf evinin çün təməlin
Kontorol eylədi tüccar əməlin
Al-verə, hökm verib diqqət ola
Cinslər üstə gərək qiymət ola
Baha satmış tukanı möhrülədi
Ölkədə qiyməti sabit elədi
Ehtikar mo`zəlini həl elədi
Səhnədən möhtəkeri əzl elədi
Öz evin yıxdı bu iqdamilə şah
Aqibət oldu işi nalə vo ah

Baha satmaq kı görüb oldu yasaq
Tüccar oldu şahıla qanlı-piçaq
Odur esyan ocağın dağladılar
İnqilabda bazarı bağladılar
Möhtəker posquda gizlənmişimiş
Batıranmırdı hələ məzluma diş
Eləki verdi səmər nehzətimiz
İnqilab etdi böyük millətimiz
Saldı fursət ələ, covlanə gəlib
Möhtəkerlər yenə meydanə gəlib
İşləri amma bu yol fərq elədi
Xəlqi böhran selinə ğərq elədi
Öncə, buğda, unu satmazdı fəqət,
-çörəgi millətə eylərdi qəhət
Bu səfər möhtəkerin var maşını
Götürür neççə nəfər ovbaşını
Sadə yoldur, nə gədik var nə cığır
Şəhridən bir bə bir əcnası yığır
Eləki cinsi yığıb etdi tamam
Arxayın oldu kı düşmüş hamı xam
Doldurub anbara qıtlıq yaradır
Yox bilən anbarı əsla haradır
Camiə möhtac olan vəqtə ona
Müştəri səfdə dolan vəqtə ona
Möhtəker əl işə asudə qatır
Neçə qat qiymətinə xəlqə satır

Cəhlimiz beylə təğafol yaradıb
Möhtəkerlikdə təkamol yaradıb
İnqilabdan ki neçə gün sovuşub
Xəlqin esyan xətəri çün sovuşub
Möhtəkerlər ğənimət bildi çağı
Basdılar anbara əvvəldə yağı
Gizlədiblər sora qəndi-şəkəri
Bir bə bir muxtəlif azuqələri
Qarpıza yay günü novbət yetişib
Qiymətin miyvə satanlar dəyişib
Bu cırıqqa hərəkət verdi elə
Mən özüm onda yetişdim "gəcil"ə
Gördüm aydınca çıxış izdihamın
Qarpız üstündə cəmaət qiyamın
Yıxılıb var nə ki qarpız tayası
Uçulub sankı yola dağ qayası
Xiyavan ən-boyu qarpızdı bütün
Aparır hər yetişən müftə cütün
Qarpız üstündə coşub el ğəzəbi
Var qiyamın vəli başqa səbəbi
Yayda hər miyvə olan vəqtə qəhət
Yoxsulun miyvəsi, qarpızdı fəqət
Amma ğussə yaradıb bu yeməli
Qarpızın faciəsi var deməli
Səbəb o faciə olmuş bu təbə
Qəhrəman xəlqi gətirmiş ğəzəbə.

## Sözlük

Abraman: müdür
Axın: həmlə
Al: qırmızı
Alamat: çox yaxşı
Aldar: yalançı
Alız: məriz
Alqır: öldürən
Alqış: dua, istiqbal
Apartayd: təb`iz nejadi
Araşmaq: axtarmaq
Arazan: xoşbəxt
Artaq: aşoftə
Arzuman: istəmək
Aşqın: motəlatem
Atanış: qiyam
Avan: düşmən
Aymaq: keşvər
Bağirmaq: nə`rə çəkmək
Baxac: durbin
Basqın: təcavuz

Basqınçı: mohacim
başcıl: rəhbər
Başkənd: paytəxt
Başqa: ayrı
Başlıq: müsabiqə atı
Bəlgə: sənəd
Bərə: güzərgah
Bilə: hətta
Bilgi: elm
Birgə: bahəm
Bomba: bomb
Boy: nəsəb
Bölgə: məntəqə
Cecim: zereh, gilim
Covhər: hər şeyin əsli
Çağdaş: muasir
Çağlamaq: coşmaq
Çapar: qasid
Çevrə: mohit
Çələng: tac
Çən: duman
Çılğın: divanə, şeyda
Çilovğan: tom gülüstan
Daş-qaş: cəvahirat
Davranış: rəftar
Dayanış: istadegi
Dəhşət: qorxu
Dəniz: dərya
Dilək: arzu
Diləmək: istəmək
Dolayı: ba vaset e
Dov: meydandari

Döyüşkən: mubariz
Durğun: raked
Durum: vəz`
Dustaq: zindan
Duyğu: ehsas
Duymaq: ehsas etmək
Ecə: rəhbər
Ehtikar: yığım
Entersan: maraqlı
Etnik: nejadi
Eynalı rəngi: qırmızı
Əmlək: mehriban
Ərən: cəvanmərd
Ərəz: illət, arizə
Ərtaş: yoldaş
Əski: qədim
Əsmə: titrəmə
Əyləncə: təfrih
Fərli: aqel, layeq
Fond: zəxire
Fürcə: fursət, girəvə
Gaz: hava
Geri: dalı
Geysi: paltar
Gənc: cəvan, xəzinə
Gərgin: vəxim
Gəzmə: güzərçi
Görəvini: vəzifəsini
Görkü: zibayi
Güzgü: ayna
Hadis: taza
Havar: kömək

Havosin: p.həxamәneşiyan,sasaniyan
Heyvərə: gobud, ədəbsiz
Hərəc: darlıq, təngi
Hövə-hövə: rəvan-rəvan
Hürüt: mat
Xıxlamaq: dizə çökdürmək
Xor: xar
Ildır: nurani
İlkin: əvvəlin
İlqar: əhd o peyman
İncə: zərif
İnci: qovhər
İpçin: kamil
İricə: böyük
İsə: niz, həm
İstəm: iradə
İtim: itirmək
İz: rəd, əsər
İzləncə: bərnamə
Keneşt: mə'bəd
Kəhər: qəhveyi rəng at
Kəl: qəvi
Kişi: nəfər
Korqan: qəbristan
Köks: sinə
Kölə: bərdə
Köy: kənd
Kültür: fərhəng
Kütlə: cəmaət
Qabaran: bərcəste
Qabarıq: bərcəste
Qaftan: cəng libasi

Qaldırmaq: qalxızmaq
Qandal: kündə, zəncir
Qanlıq: qan pulu, xunbəha
Qanşar: muqabil
Qarğaşa: ğoğa, ezdeham
Qarovul: negəhban
Qarşı: muqabil
Qartal: şahin
Qazamat: zindan
Qələndər: dərviş, imanlı
Qəmər: bir cür at
Qərəçi: evsiz, vətənsiz
Qəzet: ruznamə
Qırqın: qətle am
Qoçan: qəhrəman
Qoldaş: həmrəzm
Qonu: movzu’
Qopuz: saz
Qovdal: govdal
Qurqu: tote’ə
Qurul: quruh
Qurum: ğurur
Quzqun: kərkəs
Quzlaq: hamilə qoyun
Lacərəm: naçar
Lalə: gül, çirağ
Ləlöyün: ac göz, həris
Man: eyb
Manqut: satılmış, xae’n
Matan: mətin
Mavi: abi
Məbsut: açıq

Məfkurə: fikr
Məzdəmək: iştahilə ğəza yemək
Mıqınat: yaradan
Möhtəker: baha satan
Müsəccəl: yazılı
Nəsboleyn: göz qabağında
Obraz: sima, dastan
Olay: ittifaq
Olcar: xəbər
Oltimatom: hərbə kəsmə
Osvə: rəhbər, ülgü
Otək: tarix
Oylaq: colangah
Ökmə: anbar
Ölçər: məhəndis
Öncə: qəblən
Öncü: rəhbər
Öncül: qabaqcıl
Öndər: rəhbər
Önəmli: mohem
Örnək: numunə
Öyünmək: iftixar etmək
Özcan: məhbub
Para: pul
Pəlmə: mane`
pusqu: kəmin
Sağlam: salim
Sanasan: mesle inke
Savunma: defa`
Savunuş: defa`
Sayamaq: şe’r oxumaq
Saydam: şəffaf

Sayın: alicənab
Seytərə: ğələbə, müsəllət
Səfil: sərgərdan
Sərt: möhkəm
Sıçramaq: atılmaq
Sığıncaq: pənahgah
Sıx: möhkəm
Sınaq: imtəhan
Sırqa: guşvara
Sinə gərmək: sinə sipər etmək
Soy: nejad
Soydaş: həm nejad
Sökmən: qəhrəman
Suç: günah
Sürücü: şofer
Şar: güllə
Şən :şad, xoş
Şəngül: şad
Şənlik: şadlıq
Şirnikmək: təhrik olmaq
Şülü: taza
Tanıq: şahid
Təhlukə: xətər
Təməl: binövrə
Təmhid: amadəlik
Tin: bucaq
Toplantı: cələsə
Tust: başmaq
Tük salmaq: qorxmaq
Udqu: piruzi
Uğur: məqsəd, mübarək
Uyduruq: cə`li

Uyğun: münasib
Üstün: ali
Üşünmək: qorxmaq
Vergi: maliyant
Verliş: bərnamə
Volkan: atəşfeşan
Vurğun: aşeq
Yalnız: fəqət
Yamac: dağ ətəgi
Yanaşıq: bir-birinə yaxın
Yanlış: xəta, eştebah
Yan-yörə: ətraf
Yaraq: əsləhə
Yaramaz: faydasız
Yararlanmaq: bəhrə aparmaq
Yardım: kömək
Yasa: qanun
Yasdıq: balış
Yaşmaq: neqab
Yava: faydasız
Yazanaq: guzareş
Yazman: dəbir, münşi
Yengi: taza
Yerəl: məhəlli
Yerlik: zəmine
Yetgin: yetişmiş
Yoğrulmaq: əcin olmaq
Yönləmək: cəhət girlik etmək
Yürüş: hucum,həmlə
Zəngin: ğəni
Zirvə: qollə
Zumar: azuqə

## Qaynaqlar

Atəş bər fəraze təbriz- behruz xamaçı.

Bəlvaye təbriz-haci mohəmmədbaqer veycuye.

Tarix və coğrafi təbriz-şahzade nader mirza.

Tarixe məşrute- əhməd kəsrəvi.

Tarixe hicdəh saleye azərbaycan- əhməd kəsrəvi.

Təbriz dər gozəre tarix- əyyub nikname lale və fəriborze zoqi.

Təbriz tufanı- şövkət əliqızı, tərcomeye pərviz zare`e şahmərəsi.

Xace tacdar-janqur- tərcomeye zəbihollahe mənsuri.

Daneşməndane azərbaycan- mohəmmədəli tərbiyət.

Zeynəbpaşa- məcid rezazad əmuzeyneddini.

Sorx camegan-doktor hoseyn feyzollahi vəhid.

Se mobareze məşrute-əbdolhoseyn nahidi azər.

Fərziyeye zəbane azəri- doktor hoseyn mohəmmədzade sədiq.

Qiyame azərbaycan dər enqelabe məşrutiyyət-mohəndes kərim taherzade behzad.

Qiyame azərbaycan və səttarxan- esmayil əmirxizi.

Qiyame şeyx mohəmməd xiyabani- əli azəri.

Şefahi rivayətlər.

Şəxsi təhqiqlər.




گروه مسلح خطیب

انتشارات آذر تورک

ISBN : 978-600-8343-39-4

9 786008 343394